www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 24 iyul 2014-cü il Cümə axşamı № 187 (5896) Qiymәti 40 qәpik

**Xəbər**

## Daha bir təyyarə faciəsi - 51 ölü

yazısı səh.2-də

**Gündəm**

### 3 ton qaçaq heroinin Azərbaycan izləri - yeni bilgilər



Bakıdakı iranlı iş adamına dair şok iddialar; böyük miqdarda heroinin Azərbaycanda saflaşdırılması iddiası var; Gürcüstan DİN "Yeni Müsavat"ın heroin əməliyyatı haqda sorğusunu qəbul edib

yazısı səh.15-də

### Müxalifətin heroin susqunluğu nə ilə bağlıdır?

yazısı səh.7-də

### Köhnə YAP-çıların vəzifəyə gətirilməsinin sirri

yazısı səh.8-də

### Beynəlxalq Qızıl Xaç Komitəsi girovlarla bağlı hərəkətə keçdi

yazısı səh.9-da

### Hacı İbrahim Türkiyə və İtaliyada mühüm görüşlər keçirdi

yazısı səh.4-də

### Yadigar Sadıqovun Hüquqlarını Müdafiə Komitəsi bəyanat yaydı

yazısı səh.9-da

### Ağdamın işğal günü erməni bayrağı yandırıldı

yazısı səh.10-da

### Separatçılar Ukraynada daha 2 təyyarə vurdu

yazısı səh.2-də

### Siyəzəndə məktəb direktoru həbs edildi

yazısı səh.14-də

### Bu gündən tələbələrin ixtisas seçimi başlayır

yazısı səh.2-də

**Ramazan ayının 26-cı günü**

İftar 21.20. İmsaq (azan) 5.06 (QMİ-nin cədvəli)

26-cı günün duası: "İlahi, bu gün mənim səyimi bəyənilmiş, günahımı bağışlanmış, əməlimi qəbul olunmuş və eybimi örtülmüş qərar ver! Ey eşidənlərin ən gözəl Eşidəni!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## Müxalifətçi ailənin iki üzvü həbs edildi

# MÜSAVATÇI GƏNCİN BAŞINA TORBA KEÇİRİB OĞURLADILAR

Müsavatın Laçın təşkilatının üzvü Fərəc Kərimlini mülkü geyimli şəxslər saxlayıb, naməlum istiqamətə aparıblar; polislər onun böyük qardaşını bir həftə öncə həbs etmişdilər; Kərimli ailəsi və Müsavat Partiyası həbslərin siyasi sifariş olduğunu deyir

Fərəc Kərimli



yazısı səh.5-də

## "Sevil" MTK-nın rəhbəri həbs olunub

Minlərlə vətəndaşın milyonlarla pulunu mənimsəməkdə suçlanan Aynur Zeynalov gizli vəhhabi məscidi inşa etdirirmiş; bu qalmaqalda Abşeronun icra başçısı Zakir Fərəcovla Hökməli bələdiyyəsinin sədrinin adları da hallanır

yazısı səh.12-də



*İlhamiyyə Rza:*

### "Dəyərlərimizi güvələrə yedirməmək naminə naftalin olmağa hazıram"

yazısı səh.13-də



### Mübariz Qurbanlını dinin başına gətirən yol

yazısı səh.10-da



*Arif Hacılı:*

### "Başqan bəlli kriteriyalara cavab verən şəxs olmalıdır"

yazısı səh.7-də



## İlham Əliyevdən sərt Qarabağ açıqlaması

**Prezident İlham Əliyev Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. APA-nın məlumatına görə, H. Salberi Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi vəzifəsində fəaliyyətə başlaması münasibətilə təbrik edən Azərbaycan prezidenti onun bu səfərinin regiondakı vəziyyətlə yaxından tanış olmaq üçün yaxşı fürsət yaradacağına əminliyini ifadə edib.**

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan dövlət başçısı bildirib ki, Azərbaycan münaqişənin sülh yolu ilə nizamlanmasına tərəfdardır, qeyri-konstruktiv mövqe nümayiş etdirən Ermənistan isə nə beynəlxalq hüquqa, nə də həmsədr ölkələrin rəhbərlərinin bəyanatlarına məhəl qoyur.

Münaqişə nəticəsində Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazilərinin hələ də işğal altında olduğunu vurğulayan prezident İlham Əliyev qeyd edib ki, əgər problem beynəlxalq hüquq çərçivəsində ədalətli həll olunmazsa, regionda vəziyyət daha da mürəkkəbləşə bilər.

Regiona müxtəlif vaxtlarda bir neçə dəfə səfər etdiyini vurğulayan H. Salber mövcud vəziyyətlə tanış olduğunu deyib. O, təmsil etdiyi qurumun Azərbaycanla əməkdaşlığı genişləndirərək regiondakı münaqişələrin həllinə öz töhfəsini vermək niyyətində olduğunu vurğulayıb.

## Prokuror casusluqda ittiham olunan şəxslərə ömürlük cəza istədi

**Bakı Ağır Cinayətlər Məhkəməsində dövlətə xəyanətdə təqsirləndirilən Vəliyev Hafiz Ramiz oğlu və Ağamirov Ağamir Novruz oğlunun cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**

APA-nın məlumatına görə, prosesdə dövlət ittihamçısı çıxış edərək, hər iki şəxsə ömürlük cəza istəyib.

Qeyd edək ki, hər iki şəxs İran xüsusi xidmət orqanları ilə əməkdaşlıqda təqsirləndirilir.

Onlar Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsinə əsasən ittiham olunur.

## Azərbaycanda müəllim hazırlığı siyasətində dəyişikliklər ediləcək

**Təhsil Nazirliyi növbəti tədris ili üçün ali məktəblərdə müəllim hazırlığı ilə bağlı tətbiq olunacaq yeniliklər və dəyişikliklər barədə məlumat açıqlayıb. Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdiri Fərzəli Qədirov APA-ya açıqlamasında deyib ki, nazirlik müəllim hazırlığı siyasətində əsaslı dəyişikliklər etməyi planlaşdırır. Onun sözlərinə görə, ilk növbədə müəllimlər üçün peşə standartları yeniləşdirilir: "Ali məktəblərdə tam yeni peşə standartları tətbiq ediləcək. Bu o deməkdir ki, əvvəlki proqramlardan fərqli olaraq müəllim hazırlığı sahəsində dəqiq, konkret kompetensiyalar müəyyənləşəcək. Bu, müəllim hazırlığı üçün əsas götürüləcək".**

Şöbə müdiri əlavə edib ki, ölkənin müəllim hazırlığında praktik hazırlığa daha çox diqqət yetiriləcək. F.Qədirovun sözlərinə görə, "Azərbaycanda Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası"nda da müəllim hazırlığı sahəsində internatura modelinin tətbiqi nəzərdə tutulub: "Onlar 1 il müddətində məktəblərdə məhz praktik fəaliyyətlə məşğul olacaq, praktik vərdişlər əldə edəcəklər. Bundan əlavə, ali məktəblərdə müəllimlik ixtisaslarını seçənlər üçün xüsusi stimullaşdırıcı tədbirlər həyata keçiriləcək. Bunun nəticəsində müəllimlik ixtisasını seçənlər daha çox olar. Azərbaycanda Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası çərçivəsində gələcəkdə digər bu kimi tədbirlərin icrası da nəzərdə tutulub".

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası gündəlik
«Yeni Musavat » qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli
və xarici nəşrlər.
■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər büyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41

## Azərbaycanlı girovlara qondarma ittihamlar elan edildi

### Erməni hüquq müdafiəçisi isə girovluqdakı soydaşlarımızın ailəsindən üzr istədi

**Kəlbəcər rayonu ərazisində erməni hərbi birləşmələrinin girov götürdüyü Dilqəm Əsgərov və Şahbaz Quliyev separatçı Dağlıq Qarabağ rejiminin onlara qarşı açdığı qondarma "ittihamlar"la tanış olublar. Modern.az Ermənistan KİV-nə istinadən xəbər verir ki, bu barədə Dağlıq Qarabağdakı separatçı qurumun "baş prokurorluğu" məlumat yayıb.**



Dilqəm Əsgərov Şahbaz Quliyev

Məlumata görə, girovluqda olan Dilqəm Əsgərov və Şahbaz Quliyevə "casusluq" maddəsi ilə cinayət işi açılıb.

Bununla yanaşı, azərbaycanlılara qarşı başqa "maddələr"lə də ittiham irəli sürülüb. Separatçı rejim Dilqəm Əsgərov və Şahbaz Quliyevə "casusluq"la yanaşı, "qanunsuz olaraq Dağlıq Qarabağ "sərhədlərinə" daxil olmaq", "qanunsuz olaraq silah-sursat daşımaq" , "həddi buluğa çatmamış şəxsin əvvəlcədən əlbir olan bir qrup şəxs tərəfindən öldürülməsi", "adam oğurluğu", "adam öldürməyə cəhd" kimi qondarma maddələri ilə saxta ittihamlar irəli sürülüb.

Qeyd edək ki, bir müddət öndə Dilqəm Əsgərov və Şahbaz Quliyev Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonunda erməni silahlı dəstələri tərəfindən girov götürülüb. Ermənistan rəsmi dairələri onlarla birlikdə Kəlbəcərə gedən Cəbrayıl rayon sakini Həsən Həsənovun isə erməni hərbi birləşmələri tərəfindən öldürüldüyünü bəyan edib.

Erməni hüquq müdafiəçisi, Qafqaz Sülhməramlı Təşəbbüslər Mərkəzinin rəhbəri Georgi Vanyanisə Dilqəm Əsgərov və Şahbaz Quliyevin Kəlbəcərdə ermənilər tərəfindən girov götürülməsinə kəskin reaksiya verib.

**Aktual.az-ın sorğusuna cavab olaraq, erməni hüquq müdafiəçisi bildirib ki, rəsmi şəxslərin bəyanatları da daxil olmaqla, Ermənistanın, qondarma Dağlıq Qarabağ respublikasının informasiya məkanı Putin casuslarının fəaliyyət meydanıdır:**

"Burda nə siyasət, nə də maraqlar var. Girovların məsələsi isə dalana dirənmiş haldadır. İndiki vəziyyətdə mən vətəndaş səviyyəsində hüquqların müdafiəsi, həmçinin obyektiv araşdırma üçün heç bir imkan görmürəm".

**Georgi Vanyan həmçinin girovların ailəsindən üzr istəyib və məsələnin həllində ölkə prezidenti İlham Əliyevə inandığını da bildirib:**

"Bu cür kəskin və heç bir ümid verməyən bəyanatlara görə mən Dilqəm Əsgərovun, eləcə də Şahbaz Quliyevin doğmalarından və yaxınlarından üzr istəyirəm. İnanıram ki, hələ gec deyil və Azərbaycan prezidentinin səyləri girovların taleyini müsbət həll edə bilər".

## Daha bir təyyarə qəzası

**"TransAsia Airways" şirkətinin sərnişin təyyarəsi Tayvanda qəzalı eniş edib, 51 nəfər insan həlak olub, yeddi nəfər yaralanıb.**

"Ans Press" haqda "Taiwan News"a istinadən xəbər verib.

ATR-72 turbovintli təyyarəsinin içində 54 sərnişin və dörd ekipaj üzvü olub. Təyyarə Penxu arxipelaqında Maqun şəhərinin aeroportunda yerə enməyə uğursuz cəhd edib. Pilotlar enmənin ikinci cəhdi haqqında xahiş ediblər, sonra hava gəmisi aviadispetçerlərlə əlaqəni itirib.

Bildirilir ki, təyyarə Xusı yaşayış məntəqəsində torpağa girib. Bu halda o, iki evə zərər vurub, hansılar ki, yanıblar. Evdə olanlardan itki alanlar barədə hələ məlumat yoxdur.

Twitter sosial şəbəkəsində təyyarənin "Transasia Airways" şirkətinə aid olduğu qeyd olunub.

## Separatçılar Ukraynada daha 2 təyyarə vurdu

**Ukraynanın şərqində rusiyameylli separatçılar Ukraynanın iki Su-25 hərbi təyyarəsini vurub. ANS PRESS-in məlumatına görə, bu haqda terrorçuluğa qarşı əməliyyat qərargahının nümayəndəsi Aleksey Dmitraşkovskiy bildirib.**

"Bizdə vurulmuş təyyarə-qırıcılar haqqında informasiya var, indi hadisənin aydınlaşdırılması prosesi gedir", - Dmitraşkovskiy qeyd edib.

Daha əvvəl separatçıların nümayəndəsi Snejniy şəhəri ərazisində iki Ukrayna təyyarəsini vurduqları barədə məlumat vermişdi.

Antiterrorçuluğa qarşı əməliyyat qərargahında təyyarələrin ekipajının üzvlərinin taleyi haqqında informasiyalar hələlik yoxdur.

Ukrayna Müdafiə Nazirliyi bildirib ki, ilkin informasiyaya görə, vurulmuş təyyarələrin pilotları xilas olmağı bacarıb, onlar vaxtında tullana biliblər.

## Bu gündən tələbələrin ixtisas seçimi başlayır

**Bu gündən Azərbaycanda ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi başlayır. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasından (TQDK) APA-ya verilən xəbərə görə, bu proses avqustun 5-dək aparılacaq. Qəbul aparılan ixtisaslar və onların kodları, ixtisaslar üzrə plan yerləri "Abituriyent" jurnalının 4-cü sayında təqdim olunub. TQDK ixtisas seçiminə kömək məqsədilə hər bir ixtisas qrupunun abituriyentləri üçün "İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?" adlı vəsaitlər çap edib. Vəsaitlərdə hər bir ixtisas qrupu üzrə qəbul planı, dövlət sifarişi üzrə yerlərin sayı, müsabiqə şərtləri, müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin imtahan ballarının paylanmasına dair məlumatlar təqdim olunub.**

Tam orta təhsil bazasında (11 illik) orta ixtisas təhsili müəssisələrinə ixtisas seçimi avqustun 8-dən 13-dək aparılacaq. İxtisas seçimində ümumi balı 100-dən az olmayan abituriyentlər iştirak edə bilərlər. İxtisas seçimi ilə bağlı ətraflı məlumat "Abituriyent" jurnalının 5-ci sayında təqdim olunub.

## Əsgər özünü güllələdi

**Azərbaycan ordusunda silahlı insident olub. APA-nın məlumatına görə, hadisə Müdafiə Nazirliyinin Murovdağda yerləşən "N" saylı hərbi hissəsində qeydə alınıb. Hərbi hissənin əsgəri Polad Malik oğlu Bayramlı əlindəki avtomat silahdan açılan atəş nəticəsində yaralanıb. Əsgər hospitala yerləşdirilib. Onun vəziyyəti orta-ağır qiymətləndirilir.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya faktı təsdiqləyiblər.

Faktla bağlı araşdırma aparılır.

## Qaçqınların binasında partlayış - xəsarət alan var

**Xırdalan şəhərində yaşayış binasında partlayış baş verib. Az-News.az-ın məlumatına görə, hadisə şəhərin 26-cı məhəlləsində yerləşən məcburi köçkünlərin məskunlaşdığı binada qeydə alınıb. Şahidlər bildirib ki, partlayış binanın birinci mərtəbəsində, vanna otağında baş verib. İlkin ehtimallara görə, partlayışa qaz sobasındakı nasazlıq səbəb olub.**

Hadisə zamanı evdə olan qadın yanıq xəsarətləri ilə xəstəxanaya yerləşdirilib.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05



## Kəmaləddin Heydərov Xızıda vətəndaşları qəbul etdi

**Fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov dünən Xızı şəhərində Sumqayıt şəhəri, Abşeron və Xızı rayonlarının sakinlərinin, habelə həmin şəhər və rayonlarda məskunlaşmış məcburi köçkünlərin qəbulunu keçirib.**

APA-nın şimal bürosunun məlumatına görə, nazir tərəfindən qəbul edilən 22 vətəndaşın müraciətlərinin bir hissəsi yerindəcə həllini tapıb, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun zəruri tədbirlərin görülməsi barədə aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilib.

Bundan başqa, kadr məsələləri ilə bağlı 98, digər məsələlərlə bağlı müraciət etmiş 52 vətəndaş nazir müavinləri, nazirliyin müvafiq baş idarə və qurum rəhbərləri tərəfindən qəbul olunub.

## Bakıda azyaşlı uşağı at vurdu

**Bakı şəhər sakini, 2003-cü il təvəllüdlü Ağarza Əlihəsən oğlu Məmmədov sahibi məlum olmayan atı minmək istəyərkən at onu vurub.**

3 saylı Şəhər Klinik Xəstəxanasından APA-ya verilən məlumata görə, iyulun 23-də saat 16.50 radələrində Maştağa qəsəbəsindən şəxsiyyəti məlum olmayan 8-10 yaşlarında oğlan uşağı bədən xəsarətləri ilə xəstəxananın reanimasiya şöbəsinə yerləşdirilib, vəziyyəti ağırdır.

Hadisə şahidlərinin bildirdiyinə görə, Maştağa qəsəbəsində yolun kənarı ilə hərəkət edən uşağı at vurub.

Sabunçu Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə Maştağa qəsəbəsində, 11 saylı Xüsusi internat məktəbin qarşısında qeydə alınıb.

## Bakıda daha bir avtobus qəzası: iki yaralı

**Bakıda yol qəzası baş verib. Xətai Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə Nobel prospektində qeydə alınıb.**

Sürücüləri məlum olmayan 90-XK-418 dövlət nömrə nişanlı, KİA markalı yük avtomobili ilə 95 saylı xətt marşrutu üzrə hərəkət edən 10 TF 840 dövlət nömrə nişanlı, "Daewoo" markalı sərnişin avtobusu toqquşub.

Qəzada bədən xəsarətləri alan yük avtomobilinin sürücüsü xəstəxanaya yerləşdirilib.

YENİ MÜSAVAT
N 187 (5896) 24 iyul 2014



Yazarımız Tofiq Yaqubluya Azadlıq!

# Ər doğan?

(Bu yazını redaksiyamıza Tofiq Yaqublunun vəkili Nemət Kərimli təqdim edib)

**Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğan ölkədə ilk dəfə keçiriləcək prezident seçkiləri yaxınlaşdıqca təbliğat kampaniyasını daha da genişləndirir. Onun təbliğat çıxışlarında müxalifətə qarşı tənqidi fikirlərin yer alması çox təbiidir. Ancaq bəzən elə fikirlər səsləndirir ki, onlar çox absurd və haqsız olurlar.**

CHP AKP-nin əsas rəqibidir. Ərdoğan da məhz bu partiyaya qarşı daha çox güc sərf edir. Son çıxışlarının birində Ərdoğan 1944-cü ildə onlarla Azərbaycan türkünün Stalinin tələbi üzrə sovetlərə təslim edildiyini, onların da elə sərhəddəcə güllələndiyini xatırladıb. Həmin vaxt Türkiyədə CHP hakimiyyətdə olub. O, ovaxtkı CHP-nin qüsurlarını indiki CHP-nin ayağına yazaraq, siyasi rəqibinə zərbə vurmağa çalışıb. Bununla da çox haqsızlıq edib.

Əlbəttə ki, Stalin repressiyasından qurtulmaq üçün Türkiyəyə sığınmış babalarımızın bu qaniçən cəllada təhvil verilməsinin heç bir bəraəti yoxdur. Ancaq obyektivlik naminə o vaxtkı reallığı düzgün qiymətləndirməliyik. Birinci Dünya savaşında ağır məğlubiyyətə uğramış Türkiyə Şərqi Anadolunu bir sıra itkilərlə də olsa sovetlərdən güclə qoruya bilmişdi. Ta Türkiyənin NATO-ya üzvlüyünədək bu ərazilərə sovet təhlükəsi çox real olub və hər şey bir tükdən asılı vəziyyət alıb. 1944-cü ildən artıq SSRİ faktiki olaraq müharibənin qalibi və nəhəng, azğın, kompromissiz güc halına gəlmişdi. Nəinki ovaxtkı zəif, sısqa və dünya siyasətində söz sahibi olmayan Türkiyə, hətta ABŞ və Böyük Britaniya kimi nəhənglər də Stalinin kaprizlərini nəzərə almaq zorundaydılar.

İndi isə yapçıların təbirincə desək, Türkiyə "analoqu olmayan" inkişafa, regionda həlledici, dünyada isə hörmət qoyulması mövqeyə sahibdir. Ərdoğan hər fürsətdə bunları deməkdən qalmır. İndi ondan soruşuram, bəs sən özün Rauf Mirqədirovu çağdaş dövrün Stalin rejiminə təhvil verəndə nə fikirləşirdin?

Buna məcbur idin? İndiki dövrdə günahsız və istedadlı bir jurnalistin MTN zirzəmisinə atılması, çağdaş dövrün insan haqları kontekstindən baxıldıqda, bəlkə də 1944-cü ildə sorğusuz-sualsız güllələnməkdən də dəhşətlidir. Düşünəndə ki, Ərdoğan bu addımı hansısa supergüc dövlətin təhdidi qarşılığında yox, sadəcə olaraq, özünün və Azərbaycan iqtidarının siyasi kaprizlərinin təmin olunması üçün atıb, vəziyyət olduğundan qat-qat dəhşətli görünür.

Kamal Kılıçdaroğlu ilə 1944-cü il davası aparan Ərdoğan fərqindədirmi ki, onun 2003-cü ildə ölkəmizlə bağlı atdığı addımlar Azərbaycan xalqını qurşuna düzdü. Hələ onun Mövlud Çavuşoğlusunu demirəm. AKP tərəfindən AŞ PA-da görəvləndirilmiş bu zatın Azərbaycan xalqının demokratiya və azad seçkilər istəyinə necə bombalar yağdırdığını xatırlayın, görün, qardaşa bundan artıq xəyanət təsəvvür etmək olurmu?! Mövlud Çavuşoğlunun da Ərdoğanın tapşırığı ilə hərəkət etməsinə heç kəs şübhə etmir.

Əminəm ki, 1944-cü il hadisəsi kimi üstündən 70 il keçməsinə ehtiyac qalmayacaq, lap yaxınlarda Ərdoğandan və AKP-dən Azərbaycan xalqına etdiklərinin hesabını soruşacaqlar.





# Hüquq müdafiəçilərinin "Yeni Müsavat"a bayram ziyarəti

Milli Mətbuatımızın yaranmasının 139 illiyi münasibətilə hüquq müdafiəçiləri iyulun 23-də "Yeni Müsavat"ı ziyarət ediblər. Musavat.com-un məlumatına görə, hüquq müdafiəçiləri Novella Cəfəroğlu, Səadət Bənəniyarlı və Səidə Qocamanlı "Yeni Müsavat" kollektivini bayram münasibəti ilə təbrik ediblər. Onlar milli mətbuatımızın inkişafında "Yeni Müsavat"ın rolunu yüksək qiymətləndiriblər.

Daha sonra "Yeni Müsavat"ın baş redaktorunun birinci müavini Azər Ayxan, qəzetin danışmanı Pənah Hüseyn, baş direktor Ələsgər Süleymanlının iştirakı ilə görüş keçirilib. Görüş iştirakçıları mətbuatın hazırkı vəziyyətini müzakirə etməklə yanaşı, hüquq müdafiə sahəsindəki problemlərdən də danışıblar. Hüquq müdafiəçiləri eyni zamanda yeni həbslərə də münasibət bildiriblər.

Qonaqlar daha sonra redaksiyanı gəzərək "Yeni Müsavat"ın əməkdaşlarına bayram təbriklərini çatdırıblar.

❑ **Fərahim İLQAROĞLU**
**Fotolar müəllifindir**



# "Natəvan Anar Məmmədovun məşuqəsi deyildi"

## Nazir oğlunun qətlə yetirilən işçisinin yaxınları danışdılar; qəzetimiz ortaya screen-shot qoyur; iddianın kökü Anar Məmmədovun saytlarının birində gedən diskussiyadadır!

**Qəzetimizin ötən sayında Nəsimi rayonundakı mənzilində qətlə yetirilən "Qarant Sığorta" ASC-nin İdarə Heyətinin üzvü Natəvan Əliyevanın ölümü ilə bağlı yazı dərc etmişdik. Həmin yazıda qətlin disput.az saytındakı forumda müzakirə olunduğu və N.Əliyevanın "Qarant Holdinq" sahibi Anar Məmmədovla tanışlığı haqda yer alan fikirləri təqdim etmişdik.**

Məsələ ilə bağlı **aznews.az-a danışan N.Əliyevanın** bacısının həyat yoldaşı Əli Məmmədovun sözlərinə görə, mərhumə "Qarant Sığorta" ASC-də işləyənədək digər sığorta şirkətində - MBAX sığorta şirkətində çalışıb: "Bu şirkət yarandıqdan sonra isə baldızım Natəvan xanıma bu şirkət tərəfindən təklif olub və o da bununla razılaşıb. Burada qeyri-adi heç nə yoxdur. Yəni hər bir insan karyera əldə etmək və daha sərfəli təkliflər olanda onu dəyərləndirir. Bu baxımdan Natəvan xanım da ona edilən təklif daha sərfəli bir təklif olduğu üçün qəbul edib və ilk gündən bu şirkətdə işə başlayıb. Yaxşı işlədiyinə görə "Qarant Sığorta" ASC-yə dəvət olundu və şöbə müdiri kimi işə başladı. Onun şirkətdə İdarə Heyətinin üzvü seçilməsi isə bilik və bacarığı hesabına olub. Belə ki, uzun müddət bu sahədə çalışdığından təcrübəli olub və bir də rəhbər seçkili orqanlara seçilərkən imtahan verib. Digər tərəfdən, o, bu müddət ərzində üç ixtisasartırma kursunda iştirak edib. Üç ildən sonra Zərərlərin Tənizmlənməsi departamentinə rəhbər seçilib. Orada da özünü peşəkar cəhətdən göstərdiyinə görə iki il əvvəl imtahan verərək, qurumun idarə heyətinə üzv seçilib. Həmin imtahana bir il hazırlaşmışdı".

**Əli Məmmədov baldızının "Qarant Sığorta" ASC-nin rəhbəri Anar Məmmədovla yaxın münasibətlərinin olması barədə yazılanlara da aydınlıq gətirib və bunun həqiqəti əks etdirmədiyini deyib:** "Qəzetdə yazılır ki, son bir neçə ayda idarə heyətinin üzvü olub. Hətta iddia olunur ki, Natəvan Anar Məmmədovun yaxın tanışı olub. Bu adam Anar Məmmədovun üzünü tədbirdən tədbirə görüb. Heç ünsiyyətləri olmayıb. Çünki orda bütün işləri aparan Natəvan yox, İdarə Heyətinin sədridir. Yazıda qeyd olunur ki, son on gündə yaxın çevrəsindən uzaqlaşlaşıbmış, sosial şəbəkədə profilini bağlayıbmış. Bu da yalandır. Bu dəqiqə də onun profili açıqdır... Çevrəsindən də uzaqlaşmamışdı. Ölümündən bir neçə gün əvvəl bizimlə kinoya da getmişdi". **Onun ev alması ilə bağlı məsələyə aydınlıq gətirən Ə.Məmmədov dedi ki, Natəvan Əliyeva 6 il əvvəl ipoteka ilə özünə Nəsimi rayonu ərazisində, "Dostluq" kinoteatrının yaxınlığında bir otaqlı mənzil alıbmış:** "Həmin mənzilə görə isə ayda 380 manat kredit ödəyirdi. Hələ dörd il krediti qalmışdı. Özü ayda 400 manat ödəyirdi ki, ödəniş tez qurtarsın... Deyilənlər hamısı yalandır. Bir insanın faciəsini şişirdib onun yaxınlarının hissi ilə oynamaq heç kimə yaraşmaz".

**Ə. Məmmədov mərhumun valideynləri haqqındakı informasiyaları da təkzib edib:** "Onun atası dənizçi deyil, neft sahəsi üzrə mühəndis-geoloqdur və üç ildir ki, yataq xəstəsi kimi insultdan əziyyət çəkir, anası isə tibb bacısı yox, sahə həkimi olub".

**Ə.Məmmədov istintaqın gedişi barədə də danışıb və bildirib ki, istintaq onlara lazım olan dəlil-sübutu təqdim edib:** "İş hazırda Bakı Şəhər Prokurorluğundadır. Bizə o qədər ətraflı dəlil və sübutlar təqdim edilib ki, qətlin məhz Natəvanın evində işləyən usta Tərlan Tahirov tərəfindən törədildiyinə əminik". Ə.Məmmədov qətlin necə baş verməsi haqda da danışıb. Onun sözlərinə görə, təxminən 6 ay əvvəl N.Əliyeva evinə mebel ustası, 1988-ci il təvəllüdlü Quba sakini Tərlan Rahib oğlu Tahirovu dəvət edib. Mətbəx mebelini quraşdıran usta sonradan tamah məqsədilə Əliyevanın evinə gəlib və özü ilə gətirdiyi bıçaqla onun bədəninin müxtəlif nahiyələrinə çoxsaylı xəsarətlər yetirərək onu öldürüb. Daha sonra mənzildəki N. Əliyevaya aid qızıl-zinət əşyalarını götürüb hadisə yerindən qaçıb: "Bizə qətlin tam təfərrüatı da məlumdur. Sadəcə, istintaq sirri olduğundan hələlik açıqlamaq istəmirəm".

Qeyd edək ki, qətlə yetirilən Natəvan Əliyevanın bacısı Nərminə Məmmədova da "Novosti-Azərbaycan"a açıqlamasında onun nazir oğlunun rəfiqəsi olması barədə yayılan məlumatı təkzib edib.

"Yeni Müsavat" qəzeti Anar Məmmədovun özünə yaxın sayılan media quruluşunda gedən iddianın screen-shotunu təqdim edir və bu məsələnin sadə təkzib, "ar olsun" ritorikası ilə həll olunmayacağını bəyan edir.

❑ **E.MƏMMƏDƏLİYEV**



disput.az saytında qətllə bağlı müzakirənin screenshot variantı




Öldürülən Natavan Əliyeva

YENİ MÜSAVAT
N 187 (5896) 24 iyul 2014



# Neft yaxşıdır, avtoritarizm pisdir?

Azər RƏŞİDOĞLU

**Zaman-zaman nüfuzlu Qərb mətbuatında Azərbaycan hakimiyyətini kəskin tənqid edən yazılar dərc edilib. Bu baxımdan Böyük Britaniya qəzetləri xüsusilə fərqlənirlər.**

"The Telegraph", "The Daily Mail", "İndependent"kimi nüfuzlu mətbu orqanlarda rəsmi Bakının tənqidi daha çox müşahidə edilib. Nüfuzlu Qərb KİV-i arasında ilk beşliyə daxil olan "The Guardian" qəzetinin Azərbaycan hakimiyyətini vaxtaşırı kəskin tənqid etməsi də təsadüfü sayıla bilməz.

Böyük Britaniyanın Azərbaycandakı səfiri İrfan Siddiq bugünlərdə facebook səhifəsində ifadə azadlığı və müstəqil medianı demokratiyanın fundamental tələbləri adlandırıb. İrfan Siddiq bildirib ki, Böyük Britaniya ifadə azadlığına böyük dəstək verir.

Böyük Britaniyanın Bakıdakı səfirliyi Azərbaycanda dəqiq, qərəzsiz, müstəqil medianın bərqərar olması səylərini dəstəklədiyi üçün qürur duyduğunu açıqlayıb.

Səfir söz azadlığına xüsusi diqqət yetirməklə əslində Londonda çıxan qəzetlərin rəsmi Bakı ilə bağlı hədəflərini açıqlayıb.

Vurğulayaq ki, vaxtaşırı Böyük Britaniya mətbuatı Azərbaycan hakimiyyətinə qarşı görünməmiş hücumlarda bulunur. Bəzən eyni gündə bir neçə aparıcı London qəzeti rəsmi Bakını kəskin tənqid edən məqalələr dərc edirlər.

"The Telegraph", "The Daily Mail", "İndependent" qəzetlərində və digər nəşrlərdə yer alan məqalələrdə Azərbaycanda seçkilərin saxtalaşdırıldığı bildirilir. Adıçəkilən qəzetlərin yazdığına görə, Azərbaycanda iqtidar öz siyasi rəqiblərini həbsxanalara doldurur.

Həmin qəzetlər Böyük Britaniya hakimiyyətini də rəsmi Bakı ilə sıx təmaslar qurduğuna görə kəskin tənqid edirlər. Məsələn, həmin nəşrlər vurğulayırlar ki, Azərbaycan hakimiyyəti rəngli inqilablardan qorxaraq, islahatlar tələb edən gənc fəalları həbs edir, belə bir iqtidarla əməkdaşlıq etmək ingilis demokratiyasına kölgə salır.

Maraqlıdır ki, Böyük Britaniyanın ən müxtəlif qəzetləri eyni gündə eyni mövzudan bəhs edən məqalələr dərc edirlər. Bu, yəqin ki, təsadüfi hesab edilə bilməz.

Sözügedən hücumların arxasında Azərbaycan hakimiyyətinə təzyiq göstərmək istəyən güclərin dayana biləcəyini ehtimal edə bilərik.

Ən maraqlısı odur ki, Azərbaycan hakimiyyətinin Avropada apardığı lobbiçilik siyasəti də adıçəkilən KİV-də sərt tənqid edilir. Fövqəladə hallar naziri Kəmaləddin Heydərovun oğlu Taleh Heydərovun rəhbərlik etdiyi Avropa Azərbaycan Cəmiyyətinin fəaliyyəti barədə silsilə tənqidlərin dərci də təsadüfi ola bilməz.

Böyük Britaniya qəzetlərinin Azərbaycanla bağlı tənqidi məqalələrinin əsas qayəsi ondan ibarətdir ki, rəsmi Bakı neft amilindən istifadə edərək ölkədə repressiv sistem yaradıb.

Azərbaycanla bağlı Böyük Britaniya qəzetlərində gedən yazıların birində vurğulanır: "Bu ölkədə polis insanları daim nəzarətdə saxlayır. Söz və mətbuat azadlığı mövcud deyil. Hətta ən dinc aksiyalar belə zor gücü ilə dağıdılır".

London siyasi elitasının rəyini dəyişməyə qadir olan mətbu orqanların belə fəaliyyəti incə məqamlardan xəbər verir. Lakin ingilislər Azərbaycan hakimiyyətinin ən yaxın dostları hesab edilir. Artıq uzun illərdir ki, Böyük Britaniya korrupsiya və avtoritar idarəçilikdə ittiham etdiyi Azərbaycan hakimiyyəti ilə enerji resursları istiqamətində sıx əməkdaşlıq edir.

Dünyanın ən nəhəng şirkətlərindən biri olan bp-nin adı 1993-cü ilin "Gəncə qiyamı"nda hallandırıldı. "Gəncə qiyamı"ndan sonra, 1994-cü ildə məhz BP "Əsrin müqaviləsi"nin imzalanmasında ən əsas oyunçu hesab edildi.

Elə o zamandan başlayaraq BP Azərbaycanda neftçıxarma ilə məşğul olmağa başladı. Bu, müqavilə BP üçün də vacib idi. Dünyada imzalanan ən iri miqyaslı neft müqavilələrdən biri olan layihədə başlıca rol oynayan BP Azərbaycan hakimiyyəti üçün mühüm əhəmiyyət kəsb edir.

Araşdırmaçılar hesab edirlər ki, bu layihələrdən Azərbaycan xalqının gəlir əldə edəcəyi az inandırıcıdır. Offşor zonalardan gələn məlumatlardan o məlum olur ki, Azərbaycanın gəlirlərinin offşor zonalara çıxarılması ənənəsi formalaşıb.

London qəzetlərinin yazdığına görə, insan haqları məsələləri heç bir halda təbii resursların arxasına keçməməli və daha önəmli dəyər kimi qiymətləndirilməlidir. Bu müqavilələrdən əldə olunan gəlir demokratik prinsipləri üstələməməlidir.

Göründüyü kimi, rəsmi Bakını sərt tənqid edən London ikili oyun oynamaqda davam edir. Belə davranış ingilis siyasəti üçün bir həyat tərzidir...





# "Avesta" Konserni beynəlxalq əlaqələri genişləndirir

## Hacı İbrahim Türkiyə və İtaliyada mühüm görüşlər keçirib

**"Khazar Islands" və "Gold City" layihələrini gerçəkləşdirən "Avesta" Konserni bu yöndə beynəlxalq əlaqələrini də genişləndirir. Belə ki, iyulun 3-5-i aralığında Türkiyədə rəsmi səfərdə olan konsern rəhbərliyi burada bir sıra mühüm görüşlər keçirib. Qardaş ölkənin "Nurol Holding", "Türkerler Holding", "Galpan" kimi iri şirkətləri ilə keçirilən görüşlərdə əsasən inşaat texnologiyaları, metal konstruksiya, energetika, investisiya mövzularında qarşılıqlı anlaşmalar əldə olunub.**

İyulun 7-dən etibarən Hacı İbrahim Nehrəmlinin başçılığı altında İtaliyada rəsmi səfərdə olan nümayəndə heyəti burada da bir sıra vacib görüşlər keçirib. "Luca Dini Design", "Luca Baldi", "Stefano Ricci", "Lamborghini", "Benetti", "Zanaboni", "Provasi", "CIAC" kimi İtaliyanın ünlü şirkətlərinin rəhbərləri nümayəndə heyətini yüksək səviyyədə qarşılayıb, həm rəsmi, həm də qeyri-rəsmi görüşlər keçirilib. Burada bir sıra memorandumlar imzalanıb, birgə fəaliyyət barədə razılıqlar əldə olunub. Həmçinin qeyd olunan bütün şirkətlərin rəhbərləri sentyabr ayında Hacı İbrahim Nehrəmlinin şəxsi dəvəti ilə Bakıda səfərdə olacaqlar.



❑ "Avesta" Konserninin mətbuat xidməti

# "Həmin məzunların quracağı cəmiyyəti təsəvvür etmək istəmirəm"

## Bəxtiyar Hacıyev Azərbaycan təhsilinin uçuruma yuvarlanmasının səbəbləri və çıxış yollarından danışdı; "Müsbət Dəyişiklik" hərəkatının həmtəsisçisi İlham Əliyevə müraciət edib

**Azərbaycan təhsili bərbad vəziyyətdədir. Abituriyentlərin ali məktəb imtahanlarının nəticələrinə baxmaq kifayətdir ki, təhsilin hansı səviyyədə olduğunu görəsən. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) bu il açıqladığı rəqəmlər isə ötən illə müqayisədə daha bərbaddır, ölkə təhsilinin hansı gündə olduğuna işarədir, bilik səviyyəsinin deqradasiyaya uğramasının sənədlərlə dəlil-sübutudur.**



Bəxtiyar Hacıyev

Hətta təhsil nazirinin dəyişməsi də sistem dəyişikliyinə səbəb ola bilmədi. Baxmayaraq ki, dövlət proqramları çərçivəsində məktəblər tikilir, yeni-yeni binalar təhvil verilir, amma o məktəblərin içərisində keçirilən tədris heç də təmtəraqlı binalar kimi parlamır.

**"Müsbət Dəyişiklik" hərəkatının həmtəsisçisi Bəxtiyar Hacıyev** deyir ki, ali məktəblər orta məktəb bazasını təkmilləşdirmək yerinə daha da pisləşdirirlər. Onun sözlərinə görə, keçid ballarının aşağı düşməsi gələcəkdə müəllim, həkim, mühəndis peşəsində kimlərin olacağı təsəvvürünü yaradır. B.Hacıyev təklif edir ki, ilk növbədə ali məktəblərdə maliyyələşmə sistemi dəyişməlidir.

"Sabit maliyyələşdirmə əvəzinə performansa görə maliyyələşdirmə, məktəblərdə sərbəstlik, analitik və kritik yanaşma, məntiqin inkişaf etdirilməsinə ehtiyac var. 700 keçid balı üzərində 150 bal o deməkdir ki, 1,07 nəticə göstərilib. Bu isə o deməkdir ki, müsabiqəyə qoşulan abituriyent iki qiymət də yox, bir qiymət alaraq ali məktəbə qəbul olunur. Əgər geridə qoyduğumuz 10 ildə beş ballıq sistemdə abituriyentlər bir qiymət alıb, ali məktəbə daxil olursa, deməli, vəziyyət göz qabağındadır. 150 bal toplamış, sonra həkim, müəllim, mühəndis işləyəcək həmin məzunların quracağı cəmiyyəti təsəvvür etmək istəmirəm.

Bunun üçün maliyyələşmə sistemində dəyişiklik vacibdir. Hər universitetə dövlət tərəfindən sabit maliyyə ayrılır, tələbələr pulsuz təhsil alır, müəllimlər isə neçə tələbəyə və necə dərs deməyindən asılı olmayaraq sabit maaş alırlar. Bu da nə tələbədə, nə müəllimdə maraq oyatmır. Gördüyü işin keyfiyyətini artırmağa həvəs yaratmır,"- deyə B.Hacıyev qeyd edir.

**Amerikanın Harvard Universitetində təhsil almış B.Hacıyevin fikrincə, Qərbin bir çox məktəblərində şagird tutumu azdır, müəllim-şagird və şagird-şagird arası münasibətlər fərqlidir:** "ABŞ və Avropa ölkələrində müəllimlər keçdikləri dərsləri mənimsətmək üçün dərsdən sonra şagirdləri qruplara bölür, onların fərdi şəkildə yox, komanda şəklində müəyyən tapşırıqları həyata keçirməsini təmin edirlər. Bu tapşırıqlar çox vaxt sosial fəaliyyətlərlə, əyləncə ilə müşayiət olunur ki, bu da oxumağı, təhsil almağı məktəblilərə sevdirir.

İkincisi, ABŞ-da bir çox böyük şəhərlərdə elm muzeyləri mövcuddur. Bu muzeylərdə bizim muzeylər kimi Nəsrəddin Tusinin fotosu və onunla bağlı yazılar yox, elmi məktəblilərə sevdirəcək xüsusi qurğular, otaqlar mövcuddur.

Məktəblilər müxtəlif eksponatlarla, oyunlarla fizika, kimya, biologiya, astronomiya və s. sahələrdə əsas qanunları öyrənir, həm də əyləncəli şəkildə onları təcrübədən keçirirlər. Bu yaxınlarda Azərbaycan prezidenti İlham Əliyevə online müraciət edərək Azərbaycanda da belə elm muzeylərinin yaradılmasını və məktəblilərin ora aparılmasını təklif etmişəm. Düşünürəm ki, Azərbaycan qısa zamanda orta və ali məktəblərdə tətbiqi elmlərə maraq oyatmasa, dünyada gedən texnoloji inkişaf yarışında çox geridə qalacaq".

**B.Hacıyev deyir ki, maliyyədən əlavə siyasi iradə olmalıdır ki, təhsildə islahatlar həyata keçirilsin, inkişaf olsun:** "Problemin dərin kökləri var və kifayət qədər də həll yolları çoxdur. Dünya təcrübəsində yetərincə proqramlar var ki, təhsili inkişaf etdirmək olar. Sadəcə, ən əsası siyasi iradə olmalıdır. Xaricdən təcrübəli mütəxəssislər cəlb edilə bilər, onlarla yüksək nəticə əldə oluna bilər. Siyasi iradə olsaydı məzunları 600-700 bal yığan türk liseyləri bağlanmazdı".

**B.Hacıyev danışır ki, yeni təhsil nazirinin gəlişi heç nəyi dəyişməyib. Onun dediyinə görə, xarici təhsilli kadrların universitetlərdə müəllim kimi işə cəlb olunması, kafedralara yerləşdirilməsi də problemi kökündən həll etmir:**

"Universitetin marağı olmur ki, yenilik etsin, tədqiqat aparsın. İş bazarı ilə təhsil ocaqları arasında əlaqə yoxdur. Heç kim bilmir ildə Azərbaycanda neçə hüquqşünas, neçə həkim lazımdır. Orta məktəblərdə də eyni qaydada, yeni nəticədən asılı olmayaraq sabit maaş verilir. Performansa görə maliyyələşdirmə olmalıdır.

Müəllimlərin tez-tez attestasiyası keçirilmir, şagirdlərə bilgi əzbərlədirlər. Nəticə də belə olur, keçid balları aşağı düşür. Ümumiyyətlə, köhnə müəllimlərdən yenilik gözləmək doğru deyil, o cümlədən Dövlət Pedaqoji Universitetin proqramında dəyişiklik olunmalıdır.

Ancaq Avropada şagirdlərə hədsiz sərbəstlik verilir, maraqları çərçivə salınmır. Hansısa tarixi əzbərləyən şagirdə yüksək qiymət verilmir.

Əksinə, ona imkan verilir ki, tarixi hadisəni öyrənsin, məsələyə standart çərçivədən baxmasın, analitik düşüncəsi inkişaf etsin. Beləcə, onlar yüksək məntiqli insan kimi yetişirlər. Ola bilsin ki, tarixi hadisənin harada və nə zaman olduğunu bilmirlər.

Ancaq informasiyanı idarə etməyi öyrənirlər. Çünki indi kiminsə tarixi məlumata ehtiyacı varsa internetdən əldə etmək mümkündür. Amma bizdə şagirdlərə informasiyanı yükləyirlər. Sonra hər şey yaddan çıxır. Eyni zamanda orta məktəblərin təhsil səviyyəsini qaldırmaq üçün maddi-texniki bazanın əhəmiyyəti var".

❑ Emil SALAMOĞLU

YENİ MÜSAVAT
N 187 (5896) 24 iyul 2014

## Müxalifətçi ailənin iki üzvü həbs edildi

**İyulun 23-də səhər saatlarında Müsavat Gənclər Təşkilatı MTK-nın sədri, blogger, musavat.org.az saytının administratoru Fərəc Kərimli həbs edilib. Gənc fəalın həbs edilməsinin səbəbləri hələ bilinmir. O, anasını xəstəxanaya apararkən, mülki geyimli şəxslər tərəfindən başına torba keçirilərək, naməlum istiqamətə aparılıb.**



# Müsavatçı gəncin başına torba keçirib oğurladılar

## Müsavatın Laçın təşkilatının üzvü Fərəc Kərimlini mülkü geyimli şəxslər saxlayıb naməlum istiqamətə aparıblar; polislər onun böyük qardaşını bir həftə öncə həbs etmişdilər; Kərimli ailəsi və Müsavat Partiyası həbslərin siyasi sifariş olduğunu deyirlər

**Fərəc Kərimlinin vəkili Nemət Kərimli həbs olayı ilə bağlı musavat.com-a bunları deyib:** “İyulun 17-də Fərəc Kərimlinin qardaşı Sirac Kərimlini iş yerində həbs etmişdilər. Daha doğrusu, oğurlamışdılar. Ona qarşı artıq 234-cü maddə ilə cinayət işi açıblar. Evdən onun atasına məxsus noutbuku da götürmüşdülər. Məhkəmə zamanı vəsatət qaldırdıq ki, noutbukun bu məsələyə nə dəxli var? Bu işin siyasi xarakter daşıdığını və Fərəclə bağlı olduğunu dedik. Ehtimal edirdik ki, onlar Fərəcin əvəzinə səhvən qardaşını həbs ediblər. O gündən bu yana daim Fərəc nəzarət altında idi. Evinin ətrafında əməliyyatçılar keşik çəkirdi. Bu gün (dünən-red.) anası xəstə olduğundan Fərəc onu xəstəxanaya aparıb. Orada faktiki olaraq, onu oğurlayıblar. İndiyə qədər onun barəsində heç bir məlumat verilməyib”.

**Vəkil gənc fəalın həbs edilərkən ciddi təzyiqlərə məruz qaldığını, başına torba keçirilərək, döyüldüyünü bildirib:** “Şahidlərin dediyinə görə, həbs edilərkən onun başına qara torba keçirdilmiş, qolları arxadan bağlı vəziyyətdə xüsusi amansızlıqla döyülərək həbs edilmişdi. Onu həbs edənlər özlərini belə təqdim etməyiblər. Fərəcin bu vəziyyətdə həbs edilməsi insani dəyərlərə ziddir. «Polis haqqında» Qanunda saxlanılan şəxslə necə davranmaq yazılıb. Fərəc saxlanılarkən səbəbi ona bildirilməli, vəkilin yardımından istifadə etməsi dərhal təmin edilməli idi. Bunun bir adı var - adam oğurluğu. Birbaşa siyasi sifarişdən doğan həbsdir. O, musavat.org saytının adminlərindən idi. Eyni zamanda sosial şəbəkələrdə fəal idi”.

**Nemət Kərimli Fərəc Kərimlinin hazırda hara aparılmasından məlumatsız olduqlarını və dəqiqləşdirməyə çalışdıqlarını da qeyd edib:** “Biz Fərəcin həbsi ilə bağlı 102 xidmətinə zəng vurduq. Lakin indiyə qədər bu barədə heç bir məlumat yoxdur. Ona yaxınlarına, valideynlərinə məlumat verməsi üçün şərait yaradılmalıdır. Onun qardaşı da həbs edildə Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə getdim. Mənə qarşı orada kobudluq etdilər. Bayıra çıxararaq, axşamtərəfi gəlməyimi tələb etdilər. Axşam getdiyim zaman mənə heç bir məlumat vermədilər. Bütün bunlar qardaşların həbsinin qanunsuz olduğunu sübut edir”.

**Fərəc Kərimlinin həbsi, hazırda harada saxlanılması ilə bağlı günorta saatlarında Daxili İşlər Nazirliyi ilə əlaqə saxladıq. Qurumun mətbuat xidmətinin rəis müavini Ehsan Zahidov musavat.com-a baş verən hadisədən xəbərsiz olduqlarını bildirdi:** “Belə bir hadisədən xəbərimiz yoxdur. Bizə məlumat daxil olmayıb. Nə üçün, harada saxlanılması barədə sizə dəqiq bir şey deyə bilmərəm. Amma bu istiqamətdə araşdırmalarımızı aparacağıq. Heç kəs narahat olmasın. Qısa müddətdə hər şey aydın olacaq”.

Qeyd edək ki, müsavatçı gənc fəalın bir həftə öncə qardaşı Sirac Kərimli həbs edilib. Onun barəsində artıq 234-cü maddə ilə cinayət işi açılıb. Vəkil və yaxınları Fərəc Kərimlinin siyasi fəaliyyətinə görə həbs edildiyini iddia edirlər.

**Müsavat Partiyası gənc üzvünün və onun qardaşının qanunsuz həbsi ilə bağlı bəyanat verib. Bəyanatda deyilir:** "Müsavat Partiyası Laçın rayon təşkilatının təsisçilərindən biri, 12 il bu təşkilatın sədri olan Raqif Kərimlinin oğlu, Müsavat Gənclər Təşkilatının MTK-nın sədri, blogger, musavat.org.az saytının administratoru Fərəc Kərimli 23 iyul 2014-cü il tarixində Bakı Sağlamlıq Mərkəzinin reanimasiya şöbəsinin qabağından mülki geyimli şəxslər tərəfindən heç bir sənəd təqdim edilmədən, ona hüquq və vəzifələri elan edilmədən faktiki olaraq oğurlanaraq, iradəsi əleyhinə məcburən qeyri-müəyyən istiqamətdə aparılıb.

Hakim rejim Fərəc Kərimlinin siyasi və blogger fəaliyyətinə görə həbs etdiyini gizlədə bilməyəcək. Bir neçə gün bundan qabaq onun siyasi fəaliyyətlə məşğul olmayan böyük qardaşı Sirac Kərimli küçədə saxlanılaraq, üzərindən əməliyyatçılar tərəfindən guya narkotik maddənin tapılması, evində axtarış aparılarkən ilk olaraq Fərəcə məxsus noutbukun axtarılması və götürülməsi bu həbsin Fərəc üçün planlaşdırıldığını ifşa edirdi.

Müsavat siyasi xarakter daşıyan bu həbslərin partiyaya qarşı, azad düşüncəli gənclərə qarşı, sosial şəbəkələrin fəal iştirakçılarına qarşı - bütövlükdə Azərbaycan demokratik qüvvələrinə qarşı repressiyaların davamı olduğunu bəyan edir.

Raqif Kərimlinin ailə üzvlərinə qarşı həyata keçirilən bu həbslər, iki azyaşlı uşaq atası, heç bir siyasi mənsubiyyəti olmayan Sirac Kərimlinin şərlənərək həbs edilməsindən sonra insult əlamətləri olan anasını təcili yardım maşını ilə Bakı Sağlamlıq Mərkəzinə müayinədən keçirmək üçün aparan qardaşı Fərəc Kərimlinin də saxlanılması eyni zamanda konkret bir ailəyə qarşı qəddarlığın təzahürüdür.

Beynəlxalq təşkilatlar qarşısında siyasi məhbusların olmadığını iddia edən Azərbaycan hakimiyyəti ölkədə fəaliyyət göstərən bloggerləri, siyasi fəalları, QHT nümayəndələrini həbs etməklə faktiki olaraq siyasi məhbuslar siyahısını gün-gündən genişləndirir.

Azərbaycan hakimiyyətinin bu repressiv addımları haqq və ədalət uğrunda mübarizə aparan müasir gəncliyin mübarizə ruhunu qıra bilməyəcəkdir. Gənclərlə mübarizə aparan rejimlərin süquta məhkum olması tarixin qanunauyğunluğudur.

Müsavat Partiyası qanunsuz və əsassız olaraq həbs edilmiş Sirac Kərimlinin və Fərəc Kərimolinin qeyd-şərtsiz olaraq dərhal həbsdən azad edilməsini tələb edir".

**Müsavat Partiyası başqanının müavini Gülağa Aslanlı “Yeni Müsavat”a deyib ki, Fərəc Kərimli həbs edilməyib, oğurlanıb:** "Fərəcin həbs edildiyini demək düzgün deyil. O, birbaşa oğurlanıb. Özü də mülki geyimli şəxslər tərəfindən. Onu saxlayanlar kimliyini belə təqdim etməyiblər. Hüquq və vəzifələri haqqında ona heç bir məlumat verməyiblər. DİN-in bir müddət özünü həbsdən xəbərsiz aparması bunların sübutudur. Bu, birbaşa quldurluq və oğurluqdur. Amma Fərəcin həbs edilmə ehtimalı var idi. İyulun 17-də qardaşının həbsindən sonra bu rəy yaranmışdı. Bu, ölkədə baş verən növbəti qanunsuzluqdur. Hüquq-mühafizə orqanları müasir yox, quldarlıq dövrünün qanunlarına riayət edirlər. Bu, Raqif Kərimlinin ailəsinə qarşı yönəlmiş repressiyanın tərkib ələmətidir”.

Axşam saatlarında DİN Fərəc Kərimlinin saxlanılması xəbərini təsdiqləyib. Qurumun mətbuat xidmətinin əməkdaşı Orxan Mənsurzadə APA-nın sorğusuna cavab olaraq bildirib ki, Fərəc Kərimli əməliyyat məlumatı əsasında polis əməkdaşları tərəfindən saxlanılıb, baxış zamanı onun üzərindən narkotik vasitə aşkar edilərək götürülüb.

O.Mansurzadə onu da qeyd edib ki, F.Kərimli sosial şəbəkələrdə psixotrop maddələrin təbliği ilə məşğul olurmuş.

**Fərəc Kərimlinin atası Raqif Kərimli son bir həftədə ailəsinin başına gətirilən müsibətlərlə bağlı musavat.com-a bunları deyib:** "Övladlarım həbs edilməyib, oğurlanıblar. Fərəcdən 8 saat ərzində xəbər tutulmaması, hüquq-mühafizə orqanlarının suallarımızdan yayınmaları bunu sübut edir. Hara müraciət etdimsə, mənə "get, hara şikayət edirsən, et" cavabını verdilər. Böyük oğlum da bu cür həbs edildi. Uzun müddət xəbərim olmadı. Anasının gözlərinin qarşısında oğlumu amansızlıqla apardılar. Pis vəziyyətdəyəm. Bir oğlum Kürdəxanı həbsxanasındadır. Biri də bu gün (dünən-red.) həbs olunub. Həyat yoldaşım xəstəxanadadır. Son bir həftədə yataqxanada başımıza gəlməyən hadisə qalmayıb. Siyasi fəaliyyətinə görə bu qədər hadisələrin insanın başına gəlməyinə inanmıram".

**Gənc fəalın atası oğlunun narkotik maddəsi ilə ittiham olunmasına da münasibət bildirdi:** "Bizim ailədə dövlət əleyhinə təbliğat olmazdı. Biz axı nə etmişik? Sadəcə, qanuni mübarizə yolu ilə gedən adamlarıq. Böyük oğlumun siyasətlə, ümumiyyətlə, əlaqəsi yoxdur. Fərəclə mənim siyasi mənsubiyyətimiz var. Bunu inkar etmirəm. Qanun çərçivəsində hərəkət edən adamlarıq. Qanunların yol verdiyi qədər mübarizə aparırıq. Bundan sonra bu rejimdən artıq nə görsəm, təəccüblənməyəcəm. Artıq hər şey gözləyirəm. Bundan sonra yenə bir addım mövqeyimdən geri çəkilməyəcəm. Sona qədər haqqımı müdafiə edəcəm. Qanunun tələb etdiyi bütün mübarizə üsulları üzrə hərəkət edəcəm”.

❑ **Cavanşir ABBASLI**

## Azərbaycan türmələrində əsl oyunlar başladı

**“Azərbaycan” İntellektual Oyunlar Klubu və Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin birgə təşkilatçılığı ilə cəzaçəkmə müəssisələrində intellektual oyunlar üzrə turnirlərə start verildi.**



ANS PRESS-in məlumatına görə, ilk belə yarış iyul ayının 22-də Bakının Binə qəsəbəsində yerləşən 2 saylı cəzaçəkmə müəssisəsində baş tutub.

Qeyd edək ki. yarışma “Nə? Harada? Nə Zaman?” formatında keçirilib. Oyun hər tur 12 sualdan ibarət olmaqla, 2 tur davam edib. Yekunda 16 düzgün cavabla “Qartal” komandası qələbəni bayram edib.

“Azərbaycan” İntellektual Oyunlar Klubunun prezidenti Aydın Piriyevin sözlərinə görə, intellektual oyunlar maraqlı bir hobbi olmaqla bərabər, eyni zamanda böyük tərbiyəvi xarakter daşıyır və klub da öz növbəsində bu tip yarışların daha da populyarlaşması üçün səylərini əsirgəməyəcək.



# Təcrid olunduqca güclənən iki lider

Xalid KAZIMLI

**Bu yazı qonşuluğumuzda yerləşən və xüsusi münasibətimiz olan iki dövlətin rəhbəri haqqındadır. Bu dövlətlərdən biri Rusiya, o biri Türkiyədir. Hər ikisi qardaşdır.** ***(Oxucu öz zövqünə görə bu qardaşlığın birini dırnaq arasına ala bilər. Hər iki dövləti uzun müddət "böyük qardaş" bilmişik. Birini hələ də elə bilirik, o birini isə vaxtilə o cür bilənlər çox idi, indi də az-az var).***

Bu dövlətlərdə gedən siyasi proseslərin, baş verən hadisələrin ölkəmizə çox ciddi təsirləri olur və bu, heç də azalan xətt üzrə inkişaf etmir, əksinə, ildən-ilə artır.

Uzun illərdir biz böyük qonşularımıza baxa-baxa ölkəmizdə demokratiyanın, haqq-ədalətin bərqərar olmasını istəyirik. Çoxdan avtoritar idarəçiliyin pəncəsində olan Rusiyanın ardınca Türkiyə də o yola qədəm qoymaqdadır.

Həm Vladimir Putin, həm də Rəcəb Tayyib Ərdoğan öz ölkələrində və xaricdə "güclü siyasətçi", "sərt rəhbər", "xarizmatik lider" kimi tanınırlar. Və burada yanlış yoxdur. Onlar məhz o cürdür.

Qəribəsi odur ki, bu sərt rəhbərlər demokratik dövlətlər tərəfindən qınandıqca, sıxıldıqca, öz ölkələrindəki nüfuzları, reytinqləri artır.

Bu gün həm Rusiyada, həm də Türkiyədə "o, olmasa ölkə batardı", "o gəldi, milləti xilas etdi", "məhz o çökməkdə olan dövləti dirçəltdi", "iqtisadi sıçrayışımız onun adıyla bağlıdır" kimi yarıdürüst-yarıyanlış qənaətlər var və müvafiq təbliğat tezisləri hər iki xalqın dilinin əzbəridir.

Putinin siyasəti də ölkəsini beynəlxalq təcrid vəziyyətinə gətirib, Ərdoğanın yeritdiyi siyasi xətt də. Biri zatən uzun illərdir ABŞ-la intriqada idi, o biri isə müttəfiq idi. Artıq ABŞ-ın Rusiya ilə mükalimə tonu necədirsə, Türkiyə ilə də o cür olmağa başlayır.

Avropa dövlətləri də hər iki sərt liderə tənqidi münasibət *(birinə az, birinə çox)* sərgiləyir.

Türk və rus xalqları isə aparılan total təbliğata qulaq verərək, inanaraq öz liderlərinin böyüklüyünə, xalqı xoşbəxt etmək üçün dünya gücləri ilə kəllə-kəlləyə gəlməkdən çəkinmədiklərinə inanır və onları sevir.

Bu liderlərin böyüklüyünün mahiyyətinə varmaq, yeritdikləri siyasətin yanlışlığını sübut etmək üçün boğaz yırtanlar isə azlıqdadır və xalq onları dinləmir.

Tarixdə bu cür "xarizmatik liderlər" çox olub və onlar bir çox ölkələrin taleyində mənfi rol oynayıblar. Sanki hər bir xalq öz "sərt lider"inin əlindən yamanlıq görməli, qırx arşın quyunun dibinə düşməlidir ki, bu sayaq idarəetmənin yanlış olduğunu, yeganə əlacın demokratiyada, hakimiyyət komandalarının tez-tez, vaxtaşırı dəyişməsində olduğunu anlasın.

Bir şəxsin hakimiyyətinin uzun müddət davam etməsi müəyyən sahələrdə sabitliyə, inkişafa səbəb ola bilər, amma o heç vaxt bütövlükdə dövlətə, millətə xoşbəxtlik gətirə bilməz. Əksinə, ona olduqca böyük problemlər yarada bilər. Ortada Hitler, Mussolini, Stalin, Franko, Pinoçet, Samosa, Markos, Şarl de Qoll, Kastro, Səddam Hüseyn, Qəzzafi, Hüsnü Mübarək, Düvalye, Stressner, Peron və başqa nümunələr var.

Artıq Ərdoğan 12, Putin isə 14 ildir hakimiyyətdədirlər və niyyətləri ən azı daha 10 il hakimiyyətdə qalmaq, dövləti bildikləri kimi idarə etməkdir.

Son aylarda onlar öz ölkələrindən çox, qonşu ölkələrin problemləri ilə məşğuldurlar və öz üzərlərinə "əzilməkdə olan qonşu xalqların himayədarı" funksiyası götürüblər. Putin Ukraynada "qırğına məruz qalacağı gözlənilən rus azlığ"ın pasibanıdır, Ərdoğan isə hər gün "Qəzzada ölən dindaşlarım" deyir.

Müşahidəçilərin fikrincə, Ərdoğan Qəzza problemindən öz seçkiqabağı təbliğat kampaniyasının aparıcı ünsürü kimi istifadə edir və prezident seçildikdən sonra anti-İsrail ritorikasını xeyli yumşaldacaq. Putinin isə bütün bu sərt tövrlərinin Avrasiya İttifaqının qurulmasına yönəldiyini düşünənlər və deyənlər var.

Biz də bizə iki yaxın dövlətin rəhbərliyinə, idarə edənlərinə baxa-baxa qalmışıq. Belə bir qənaət var ki, bu iki dövlət gerçək demokratiya yoluna qədəm qoyanda, biz də onlardan örnək götürəcəyik.

# Qərbin Rusiyanı 8 yerə bölmək planı işə düşüb

## Sanksiyalar Rusiyanı çökdürə bilər; "Rusiyanın həm iqtisadi, həm də siyasi sahədə təklənməsi prosesi həyata keçiriləcək"

**Ukraynanın ərazi bütövlüyünü pozması ilə Avropa Birliyinin, Qərbin qəzəbinə tuş gələn Rusiya Ukrayna ərazisində Malayziya təyyarəsinin vurulması ilə daha çətin durumla üz-üzə qalıb. Artıq Avropa Birliyi Rusiyaya qarşı yeni ağır sanksiyalar qəbul etməyə başlayıb. Avropa Birliyi Rusiya prezidenti Vladimir Putinin yaxın ətrafını "qara siyahıya" salıb.**



Rusiyaya qarşı daha bir genişləndirilmiş sanksiyalar paketi qəbul olunub. Eyni zamanda Böyük Britaniyanın baş naziri Devid Kemeron silah satışına qadağa qoymağa çağırıb. Bu barədə Britaniyanın "The Guardian" qəzeti məlumat yayıb. Qəzetin yazdığına görə, Kemeron bildirib ki, Malayziya təyyarəsinin vurulmasına cavab olaraq növbəti ağır sanksiyalar Putinin dostlarına və oliqarxlara da şamil olunacaq. Baş nazir qeyd edib ki, Avropa Birliyinin Rusiyaya belə münasibəti təkcə təyyarənin rusiyapərəst qüvvələr tərəfindən vurulması ilə bağlı deyil. Bu həm də Moskvanın separatçıları dəstəkləməsi ilə əlaqədardır: "Əgər Moskva Ukraynaya münasibətini dəyişməsə, Avropa və Qərb Rusiyaya yanaşmanı əhəmiyyətli dərəcədə dəyişəcək".

Avropanın sanksiyalarının hədəfləri ABŞ-ın da "qara siyahısına" düşüb. Onların əksəriyyəti Putinlə birgə güc strukturlarında işləyən dostları və Sankt-Peterburqdan olan oliqarxlardır. Bunlar - Putinin yaxın dostları və milyarderlər Gennadi Timçenko, Sergey İvanov, Arkadi və Boris Rotenberq qardaşları, İqor Seçin, Yuri Kovalçuk, Vladimir Yakunindir.

Avropa Birliyinin, ABŞ-ın mövqeyinin sərtləşməsi, vəziyyətin gərginləşməsi Rusiya prezidentinin rəhbərliyi ilə iyulun 22-də Təhlükəsizlik Şurasının təcili toplantısının keçirilməsinə səbəb olub.

**Proseslərin gedişi Rusiya üçün çətin günlərin qarşıda olduğunu söyləməyə əsas verir. Bu mövzuda danışan politoloq Qabil Hüseynli bildirdi ki, təyyarə məsələsi Rusiyanın dünya üçün nə qədər təhlükə olduğunu açıb göstərdi. Dünya gördü ki, onun qarşısında ipə-sapa yatmayan, ağılasığmaz hərəkətləri ilə dünyanı qana çalxalamağa hazır olan bir siyasi lider dayanıb:** "Bəziləri hətta onu Adolf Hitlerin 1933-cü ildəki davranışları ilə müqayisə edirlər. Belə bir analogiya gətirirlər ki, əgər vaxtında Hitler dayandırılsaydı, İkinci Dünya müharibəsi də baş verməzdi. İndi də belə hesab edirlər ki, əgər Putin vaxtında dayandırılarsa, onda dünyanı gözləyən təhlükələrin də qarşısını vaxtında almaq olar. Həqiqətən də sanksiyaların üçüncü dövriyyəsinin tətbiq edilməsi Rusiya üçün o qədər arzu edilən nəticələrə gətirib çıxarmayacaq. Üçüncü dövriyyədə Rusiyaya qarşı geniş maliyyə və ticari sanksiyalar nəzərdə tutulur. Bunun nəticəsində Rusiya dünyanın aparıcı şirkətləri ilə əməkdaşlıqdan məhrum ediləcək. Rusiya demək olar ki, dünya banklarından tamamilə təcrid ediləcək və nəticə etibarilə Rusiyanın həm iqtisadi, həm də siyasi sahədə təklənməsi prosesi həyata keçiriləcək. Bu isə o deməkdir ki, Rusiya çox ciddi problemlərlə baş-başa qalacaq. Bu problemlərin içərisində, əvvəla, xarici ticarət dövriyyəsinin hiss ediləcək səviyyədə azalması, eləcə də Rusiyanın qabaqcıl texnologiyadan məhrum edilməsi prosesi dayanır".

**Politoloqun sözlərinə görə, sanksiyaların üçüncü mərhələsi bütün Avropa Birliyi tərəfindən həyata keçirilərsə, Rusiyanı çox böyük fəlakət gözləyir:** "Rusiya Təhlükəsizlik Şurası iyulun 22-də toplanarkən Rusiyanın hətta bölünməsi ilə bağlı planlar müzakirə edilib. Putin ilk dəfə olaraq, Rusiyanın 8 yerə bölünməsi ilə bağlı Qərbin planlarının olmasından danışıb və bunun qarşısını almaq üçün ciddi tədbirlərin görülməsinin zəruriliyini qeyd edib. Hətta ətrafındakıları ruhlandırmaq naminə bildirib ki, Rusiyaya heç kəs qalib gələ bilməz. Amma fakt faktlığında qalır ki, artıq hərbi sənaye kompleksinin içərisində, eləcə də hərbçi generalların içərisində Putini avantürist və siyasi uzaqgörən olmayan bir xadim kimi tanıyırlar. Hətta onun uzaqlaşdırılması, aradan götürülməsi barədə planlar cızırlar. Belə bir variant da irəli sürülür ki, Malayziya təyyarəsini Putinin təyyarəsi hesab edərək vurublar. Bununla da rus kəşfiyyatındakı müəyyən adamlar Putini aradan götürmək barədə planlar cızırlar. Yəni Rusiya siyasi elitasında, eləcə də hərbi elitasında vəziyyət kifayət ciddidir".

**Q.Hüseynli Rusiyanın Ukraynaya müdaxiləsinin artıq Rusiya hüdudlarında ciddi qəzəb dalğası doğurduğunu, ölkənin düşdüyü problemlərin narazılıqları artırdığını da vurğuladı:** "Malayziya təyyarəsi vurulanadək müəyyən illüziyalarla ətrafı aldatmaq mümkün idi. Amma təyyarə hadisəsindən sonra artıq Putin ətrafına da əvvəlki kimi nəzarət edə bilmir. Xüsusən hərbi elita içərisində ciddi çürümə prosesləri gedir və bu proses Kreml başçısı üçün ağır nəticələr doğura bilər. Çünki hərbi elita da başa düşür ki, Qərb artıq Rusiyanı təkləyib və hətta Rusiyanın bölünməsi prosesi üzərində iş getməyə başlayıb. Şimali Qafqazda da müəyyən hərəkətlərin başlanması artıq Rusiya üçün ciddi çöküş siqnalıdır. Qərb yaranmış vəziyyətdə Rusiyanı sıradan çıxarmaq üçün yeni-yeni variantlara əl atmaq fikrindədir. Prosesə başçılıq edən ABŞ-dır. Avropa Birliyi bir qədər ehtiyatlı hərəkət edir. Rusiya elə bir bataqlığa düşüb ki, çırpındıqca daha dərinə batır. Zənnimcə, Rusiya dövlətçiliyi, xüsusən də Vladimir Putinin başı üzərində buludlar getdikcə sıxlaşmaqdadır".

❑ Etibar SEYİDAĞA

# Vurulan təyyarənin "qara qutuları" Niderlandın Təhlükəsizlik İdarəsinə verildi

## ABŞ isə təyyarəyə buraxılan raketin uçuş trayektoriyasının sxemini dərc edib

**Bir neçə gün əvvəl qəzaya uğrayan Malayziya təyyarəsi ilə bağlı araşdırmalar davam etdirilir. Artıq ABŞ-ın Ukraynadakı səfirliyi "BUK" zenit-raket qurğusundan Malayziyaya məxsus "Boinq-777" təyyarəsinə buraxılan raketin uçuş trayektoriyasının sxemini dərc edib.**



"UNİAN"ın verdiyi xəbərə görə, bu barədə məlumat səfirliyin facebookdakı səhifəsində dərc olunub. Belə ki, dərc olunmuş sxemə əsasən, ABŞ təyyarənin separatçıların nəzarəti altında olan Donbas ərazisindən "yer-hava" sinfinə aid olunan "BUK" zenit-raket qurğusundan vurulduğunu təsdiqləyib.

Bundan başqa, ABŞ Ukrayna ordusuna məxsus "BUK" raket sistemlərinin istifadə olunma ehtimalını tamamilə istisna edir: "Ukrayna ordusu da "BUK" sistemləri ilə təchiz olunub, lakin biz əminik ki, onların heç biri hadisə baş verən ərazidə olmayıb. Həmçinin Ukrayna ordusu münaqişə başlayandan "yer-hava" sinfinə aid raket sistemlərindən bir dəfə də olsun istifadə etməyib. Lakin Kiyev Rusiyaya məxsus hava uçuş vasitələrinin dəfələrlə Ukraynanın hava məkanına daxil olması barədə şikayət edib", deyə məlumatda bildirilir.

Vurulan təyyarənin "qara qutuları" isə Niderland ekspertlərinə təhvil verilib. "Gazeta.ru"nun xəbərinə görə, ya istinadən verdiyi xəbərə görə, bu barədə "Frans Press" agentliyi məlumat yayıb. "Malayziya mütəxəssisləri "Boinq 777" təyyarəsinin "qara qutuları"nı Niderlandın Təhlükəsizlik İdarəsinə verilib", deyə Niderland XİN bildirib.

"Boeing 777" təyyarəsində ölən sərnişinlərin meyitlərinin olduğu ilk təyyarə isə Niderlanda yola düşəcək. Təyyarə yola düşməzdən əvvəl "Xarkov" beynəlxalq aeroportunda vida mərasimi keçiriləcək. Meyitlər Hollandiyada yerləşən "Holversum" hərbi bazasına aparılacaq. Burada meyitlərin tanınması proseduru keçiriləcək. Qeyd edək ki, məlum qəzada 298 nəfər həyatını itirib. Təyyarənin vurulma ehtimalları daha çoxdur.

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 187 (5896) 24 iyul 2014

**Müsavat Partiyasında başqanlığa namizədlərin qeyri-rəsmi seçki kampaniyası başlanıb. Mətbuatda və facebook sosial şəbəkəsində bu fəallığı müşahidə etmək mümkündür. Başqanlığa iddialı partiya funksionerlərinin çıxışları, verdikləri mesajlar, eyhamları belə demək mümkünsə, Müsavat liderliyi uğrunda mübarizənin qızışdığını əsaslandırır.**

# "Başqan bəlli kriteriyalara cavab verən şəxs olmalıdır"

## Arif Hacılı: "Seçki kampaniyası rəsmən başlananda münasibətimi açıqlayacağam"



Başqan müavini Qubad İbadoğlunun, partiyanın Divan üzvü Tural Abbaslının, Müsavatın Mərkəzi İcra Aparatının rəhbəri Arif Hacılının namizəd olacaqları çıxışlarında səslənib. Lakin namizədlər rəsmi kampaniya başlamadığı üçün açıq çıxışlar etmirlər, platformalarını açıqlamırlar.

A.Hacılı hələlik bu mövzuda danışmaq istəmir. Onun sözlərinə görə, partiyadakı fəaliyyətə başı qarışıb və Müsavatın gənclər təşkilatının sədr müavini Fərəc Kərimlinin həbsi ilə məşğuldurlar: "Onun sosial şəbəkələrdə çıxışları, siyasi fəaliyyəti qondarma ittihamla həbs edilməsinə səbəb olub. Fərəcdən əvvəl də qardaşı qondarma ittihamlarla həbs olunub. Bizim partiyadakı fəaliyyətimiz indiki mərhələdə daha əhəmiyyətlidir. Seçki kampaniyası rəsmən başlananda münasibətimi açıqlayacağam".

**A.Hacılı başqanın hansı keyfiyyətlərə, kriteriyalara malik olmasından da danışdı:** "Müsavat başqanı bəlli kriteriyalara cavab verən şəxs olmalıdır. Ən əsası Rəsulzadə-Elçibəy yoluna, siyasi-ideoloji xəttinə sadiq, siyasi qabiliyyəti olan, təcrübəli, fiziki və mənəvi cəhətdən güclü şəxs başqan ola bilər. Mən elə bilirəm ki, Müsavatda belə adamlar var".

Hollandiyada yaşayan müsavatçı Eldəniz Yusifov Müsavat Partiyasının başqanlığına iddialı namizədlərlə bağlı Azərbaycan mediasına qalmaqallı açıqlama verib. O bildirib ki, Avropada yaşayan müsavatçıların əksəriyyəti partiyanın İcra Aparatının rəhbəri Arif Hacılının namizədliyini dəstəkləyir.

E.Yusifov Qubad İbadoğlunun başqanlığının Müsavata heç bir faydası olmayacağını da deyib. Onun fikrincə, indiki şəraitə - meydanlarda mübarizəyə, həbslərə, fiziki təzyiqlərə Qubad İbadoğlu hazır deyil.

❑ **E.SALAMOĞLU**

# Müxalifətin heroin susqunluğu

## "Mövzu qapanmayıb və proses hələ uzun müddət davam edəcək"



**Xəbər verildiyi kimi, iyulun 11-də Gürcüstan Daxili İşlər Nazirliyi Azərbaycandan keçib Türkiyəyə gedən yük maşınına baxış zamanı 2 ton 790 kiloqram təmiz heroin aşkar edib. Heroin saflaşdırılıb və maye halda olub. Narkotik vasitə 93 ədəd 30 litrlik maye sabun çəlləklərində qablaşdırılıb. Ekspertiza müəyyən edib ki, ələ keçirilmiş narkotik maddə 80 faiz saflaşdırılmış təmiz heroindən ibarətdir və bazar dəyəri yüz milyonlarla dollardır. İşlə bağlı iki Gürcüstan vətəndaşı saxlanılıb.**

Gürcüstan hökuməti bu hadisəyə ciddi reaksiya verib. Gürcüstanın baş naziri İrakli Qaribaşvili hökumətin iclasını keçirərək Azərbaycanla sərhəddə tutulan 3 tona yaxın təmiz heroinə görə Daxili İşlər Nazirliyini təbrik edib. Baş nazir bəyan edib ki, indiyə qədər bu cür böyük miqdarda heroini indiyədək nəinki Gürcüstanda, heç qonşu ölkələrdə ələ keçirməmişdilər. Bunu Gürcüstan dövləti etdi.

Azərbaycan hökuməti, Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti isə 2 ton 790 kiloqram təmiz heroinin ölkə ərazisindən keçib Gürcüstana necə daxil olduğuna bu günədək şərh vermir. Müvafiq rəsmi qurumlar ən yaxşı halda "məlumatsızıq" deməklə kifayətlənirlər. Halbuki bu qədər böyük miqyaslı prosesdən onların xəbərsiz olması qeyri-mümkündür. Dünyanın hansısa azacıq normal, aktiv cəmiyyətləri olan ölkəsi ilə bağlı belə bir biabırçı hadisə baş versəydi ya həmin ölkənin hökuməti, müvafiq rəsmi orqanlarının rəhbərliyi könüllü istefaya gedərdi, ya da cəmiyyət ayağa qalxıb onları istefaya məcbur edərdi. Azərbaycanda isə iki həftə keçsə də nə cəmiyyətdən, nə də onun avanqardı sayılan müxalif siyasi partiyalardan nə bir etiraz aksiyası, nə məsələ ilə bağlı dəyirmi masalar yoxdur. Müsavat Partiyasının və Milli Şuranın sədri Cəmil Həsənlinin heroin hadisəsi ilə bağlı bəyanat verib hökumətdən izahat tələb etməsini çıxsaq, bu cür mühüm hadisə ilə bağlı heç bir reaksiya müşahidə edilmir. Hansı ki, ölkəmizin dünyada nüfuzuna ciddi zərbə vuran bu skandaldan məntiqlə müxalifət hökuməti sıxışdırmaq üçün istifadə etməli idi. Bəs müxalifət nə üçün bunu etmədə və etmir?

**Bu sualla müraciət etdiyimiz Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Arif Hacılı öncə bildirdi ki, sözügedən hadisə çox ciddi və Azərbaycanı dünyada gözdən salan bir hadisədir. Bu cür hadisələr Azərbaycanın və onun hakimiyyətinin bütün dünyada kriminal ölkə olduğu imicini təəssüf ki, yaradır. Bu miqyasda heroin əməliyyatının keçirilməsi təbii ki, xırda narkotik alverçilərinin işi deyil:** "Burada heç şübhəsiz ki, yüksək səviyyədə himayədarlıqdan söhbət gedir. Mən düşünürəm ki, yalnız Azərbaycanın yüksək mənsəbli şəxsləri tərəfindən yox, eyni zamanda bu narkotikin hərəkət etdiyi istiqamətdə olan bütün ölkələrin kifayət qədər təsirli adamlarının nəzarəti altında olmadan tonlarla heroinin hərəkət etməsi mümkün deyil. Tonlarla heroinin hərəkət etməsi üçün yüzlərlə, bəlkə də minlərlə adamın bundan xəbəri olmalıdır. Çünki bu, tam məxfi təşkil olunması mümkün olmayan bir işdir. Belə olan halda bir neçə dövlətin sərhədini belə bir yük heç bir halda keçə bilməzdi. Hesab edirəm ki, bu, bəşəriyyət qarşısında cinayətdir. Bu cinayəti törədənlər hökmən cəzalandırılmalıdır. Düşünürəm ki, həm Gürcüstan istintaq orqanları, eyni zamanda beynəlxalq birlik bu hadisəni törədənlərin cəzalanması üçün əlindən gələni edəcək və bu proses hələ başa çatmayıb.

Müxalifətin mövqeyinə gəldikdə isə Müsavat Partiyası bu məsələyə kifayət qədər ciddi yanaşıb və bu mövzuda öz mövqeyini rəsmi ifadə edib. Ancaq hazırda mövcud olan müəyyən süstlük, Ramazan ayının olması və bir sıra müxalifətçilərin məzuniyyətdə olması da, görünür, heroin hadisəsi ilə əlaqədar hansısa dəyirmi masaların və digər aksiyaların keçirilməsinə imkan verməyən əsas amillər olub. Bir daha deyirəm ki, bu mövzu hələ qapanmayıb və bu proses uzun müddət davam edəcək. Kimin bu məsələ ilə bağlı kəskin, konkret mövqe qoymaq haqqında fikirləri varsa, yəqin ki, bunun üçün imkanları olacaq".

❑ **Etibar SEYİDAĞA**

# 139 ilin əzabı



**Hüseynbala SƏLİMOV**

**Bəli, mətbuatın daha bir gününü də ötürdük. Ona görə "mətbuatın günü" yazıram ki, qəzetçilər üçün bütün günlər eynidir. Bu hesabla bizim mətbuatın 139 yaşı tamam oldu.**

Bayram günündə hakimiyyətə yaxın və eləcə də hakimiyyət mətbuatının təmsilçilərini, hətta hakimiyyət adamlarını öz tədbirlərinə qatanlar bir şeyi unutdular ki, bu 139 ildə çox az şey dəyişib, Həsən bəy Zərdabi ilk qəzeti nəşr edərkən nə qədər çətinlik çəkirdisə, qəzetçilər indi də elə həmin qədər çətinlik çəkirlər.

Ona görə də bayram ovqatı yox idi. Biz qəzetçilər bayram günlərini ona görə yada salırıq ki, bu, belə qəbul olunub. Lap elə bir kinoda deyildiyi kimi: "Ayə, toyda adam neyləyər? Oynayar!.."

Biz də bayramları belə qəbul edirik. Ayə, bayramda adam neyləyər? Şənlənər, deyər, gülər... Biz də dedik, şənləndik, güldük... Halbuki ürəklərimiz tamamilə bayram ovqatında deyildi, ürəklərimiz qan ağlayırdı. Qəzetini sata bilməmək qəzetçi üçün iki qat əzabdır. Qəzetini satmırsa, deməli, pul da almayacaq. Hələ onu demirəm ki, qəzet satılmırsa, deməli, oxuyan da olmayacaq...

Bəs qəzetlər niyə satılmır? Ona görə satılmır ki, satmağa qoymurlar. Bəli, bu hakimiyyət mətbuatın ölməsi üçün əlindən gələni edir. Bir saat boş dayanmır, gündə bir "yenilik", bir qadağa fikirləşir...

İndi elə adamlar peyda olub ki, "Əşi, qəzet niyə lazımdır?"-deyirlər. Onlara demək istəyirik ki, qəzet Həsən bəy Zərdabinin vaxtında niyə lazım idisə, indi də ona lazımdır.

Son yarım əsrdə insanlar məktub yazmaqdan yadırğadılar. Halbuki bu, bütöv bir sənət idi. Avropada fəlsəfi romanların çOxu məktub stilində, epistolyar janrda yazılmışdı. Russo, Didro bu stildə yazmışdı. Onları neləyirik? Axundov öz fəlsəfi incisini məktub janrında yazmamışdımı?

Qəzet də belədir. İnsanların qəzet oxumaq vərdişi vardı. Yadınıza gəlirmi? Qəzet alıb boş skamyalardan birinə çəkilirdin və dərhal qəzeti vərəqləməyə başlayırdın...

Haradadır o vaxtlar?.. Amma ən qəribəsi nədir? Məsələn, Türkiyədə qəzet hələ də öz çəkisini saxlayır. Bunu ən azı kinolarından görmək mümkündür. Məgər internetləşmə məsələsində Türkiyə bizdən geridədir? Nə olub? Bəlkə bizim mətbəx TV-si insanların bütün tələbatını ödəyir? İnanmaq olmur? Axı insan tək mədədən və bağırsaqdan ibarət deyil, başqa nəsə də var!

Həsən bəy Zərdabi hökumətin diqqətini yayındırmaq üçün qəzetin adını "Əkinçi" qoymuşdu. Görəsən, biz hansı adı fikirləşək ki, hökumətin diqqəti bizdən yayınsın?

Səhv etmirəmsə, Həsən bəy Zərdabi cəmi iki il qəzet nəşr edə bildi. Biz isə təxminən 25 ildir ki, qəzet nəşr edirik. Mən "biz" deyəndə hamımızı - müstəqil mətbuatın bütün insanlarını, jurnalistlərini, redaktorlarını, texniki işçilərini nəzərdə tuturam...

Həsən bəy Zərdabiyə birinci olmaq nəsib oldu. Bəs bizim nəsibimiz nə oldu? Mən bu haqda susmağa üstünlük verirəm. Deməyə söz yoxdur...

Ona görə də bayram günündə beynimdən elə bir sual keçirdi: "Ayə, adam bu bayramda nə edər?"... Qərəz, çalışdıq ki, şənlənək, gülək, biri-birimiz təbrik edək...

Zarafat deyil, 139 il keçib. Amma məni indi bir sual düşündürür: əcəba, bunun davamı olacaqmı? Bax, bunu bilmirəm...

Bayram günü Allahdan dilədik ki, bu ölkəyə yaxşı hakimiyyət qismət eləsin ki, bizə heç olmasa yaxşı təqaüd versin! Belə getsə, heç əməlli-başlı təqaüd də ala bilməyəcəyik...

Bəli, bizim öz muradımız var. İstəyirik ki, mətbuatın 150-200 yaşı tamam olsun. Amma bizim hakimiyyətin də öz diləyi var - onlar da istəyir ki, YAP-ın hakimiyyətdə olmasının 50-100 illiyini qeyd etsinlər! Allah kimi eşidəcək, bizi, yoxsa onları? Özü bilən məsləhətdir.

Burada yadıma müdrik bir zərb-məsəl düşür. Bəli, qaçan da Allahı çağırır, qovan da... Allah kimi eşitsin?..

Yenə də deyirəm ki, özü bilən məsləhətdir. Bəli, hamı belə deyir. Bizimki, sadəcə diləməkdir, istəməkdir...

Növbəti ildə mətbuatın yaşına daha bir il əlavə olacaq. Bəlkə də yuvarlaq bir ədəd alınacaq. Nə isə. Növbəti ildə baxarıq. İndidən deyim ki, o il təmtəraqlı olacaq. Zarafat deyil, təzə bir bina inşa olunur.

Amma bilmirəm, bir ildən sonra mətbuat olacaq, ya yox?.. İnşallah, qalar. Hər halda, buna ümid edirik...

YENİ MÜSAVAT
N 187 (5896) 24 iyul 2014

# Arxamızda Cibuti!



Zamin HACI
zaminhaci@gmail.com

**22 iyulda prezidentin Xızı rayonuna səfəri zamanı Xızı şəhərində 25 evdən ibarət qəribə bir yaşayış kompleksinin də açılışı oldu. Bu evlərin qəribəliyi əsasən ondan ibarət idi ki, rəsmi məlumatda həmin mənzillərin təbii fəlakətlərdən əziyyət çəkmiş xızılılara verildiyi bildirilsə də, açılışda heç bir mənzil sakini nümayiş etdirilmədi. Sitat: "Bu yeni massivin sakinlərinin əvvəlki evləri rayonda müxtəlif illərdə baş vermiş ekzogen proseslər, o cümlədən qeyri-normal yağıntı, torpaq sürüşməsi, çökmə nəticəsində yaşayış üçün yararsız vəziyyətə düşüb. İkimərtəbəli evlərdə hər cür şərait yaradılıb" (AzərTAc).**

Məsələni şübhəli edən təkcə bizim xəbərsiz qaldığımız "ekzogen proseslər", anonim Xızı sakinləri deyil. Hamımız bilirik ki, yapistlər təbii fəlakətdən zərər çəkənlərə heç vaxt qıyıb 2 mərtəbəli evlər tikməzlər. Evlərin AzərTAc-ın saytındakı fotoları da ciddi şübhə oyadırdı, çünki bunlar sadə xızılıya tikilən yaşayış mənzilinə yox, hansısa oliqarxın istirahət mərkəzindəki super təmirli kotteclərə bənzəyirdi. Bəs bu mənzillərdə kim yaşayacaq?

Açığı, mən bərbəzəkli, ancaq insansız evlərin fotolarını görəndə ilk ağlıma Xaçmazın məşhur Xraxoba kəndi gəldi. Orda yapistlər Palıdlı adında təzə yaşayış massivi qayırıblar, evlərin dəbdəbəsi və sayı da təxminən eynidir. Yeni kəndə isə şübhəli şəkildə... naxçıvanlı olduqları deyilən kürdləri yerləşdiriblər. Bu haqda mediada çoxlu reportajlar gedib, ancaq icra hakimiyyəti kürdlərin Naxçıvandan Xaçmaza köçürülməsinə heç bir məntiqi izahat verməyib. Xızıda da eyni siyasət güdüləcəkmi - buna sonra baxarıq.

Xızı dağları xınalı-xınalı boylanmaqda qalsın, sizə xəbər verim Cibutidən. Bəli, yanlış oxumadınız, Afrikada, materikin burnunun ucunda yerləşən Cibuti adlı cırtdan bir dövlət var, 21 iyulda bu Cibuti Ermənistanın Azərbaycana yönələn işğalçı siyasətini pisləyən kəskin bəyanat vermişdir, yapistlər də həmin bəyanatı "bəh-bəhlə" hər yerdə yayıblar.

Varını verən utanmaz, əlbəttə, biz əhalisi Gəncədən bir az çox, ərazisi isə Salyan və Sabirabad qədər olan Cibuti dövlətinə dərin minnətdar oluruq ki, bizim uğurlu xarici siyasətimizi dəstəkləmişdir. AzərTAc yazır ki, bəyanatda "Cibuti hökumətinin işğal olunmuş Azərbaycan ərazilərində mülki Azərbaycan əhalisinə qarşı törədilmiş hərəkətləri bəşəriyyətə qarşı cinayət hesab etdiyi bildirilir.

İslam Əməkdaşlıq Təşkilatının, BMT Baş Məclisinin və Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişənin həlli ilə bağlı qəbul etdiyi qətnamələrin xatırlandığı bəyanatda işğal altındakı Azərbaycan ərazilərində yerləşən arxeoloji, mədəni və dini abidələrin talan edilməsi və dağıdılması kəskin şəkildə pislənilir" və sairə və ilaxır.

Bir sözlə, dəhşət bəyanatdır, ola bilsin Cibutinin sayəsində biz gələn il Zəngilanda xarı-bülbül çiçəyi yeyəcəyik, Kəlbəcərdə qanqal otlayacağıq, Füzuli rayon mədəniyyət evinin qabağında dahi şairimiz Seyran Rövşənin AYB sədri Anara həsr edilən "Erkəklər ağlamaz!" poemasını dinləyəcəyik! Yaşa, yaşa, Azərbaycan, qadir sovet ölkəsində! Qoy millətdə ruh yaşasın! *(Poeziya üçün bu qədər yerimiz var idi)*.

Ancaq Cibutini bizə doğma, əziz, mehriban eləyən təkcə Qarabağ siyasəti və müsəlmançılığı deyildir. Sən demə, bu dövlətin bizə çox bənzəri vardır. Buyurun, faktlara baxın.

Cibuti 1977-ci ildə Fransa müstəmləkəsi olmaqdan qurtulub *(böyük ehtimalla fransızlar özləri bezib gediblər, çünki sərvəti-zadı olmayan, dəvə otlayan mənasız bir yerdir)*, özünü respublika elan edib və o vaxtdan keçən 37 il ərzində bu dövlətciyin cəmi... 2 prezidenti olmuşdur.

Birinci prezident Həsən Güləd Aptidon *(Cibuti dilində "Həsənquliyev Qüdrət" kimi oxunur)* adında bir nəfər olub, bu qardaş 1977-ci ildən 1999-cu ilə qədər prezident işləyib. 22 il. Sonra bezib və vəzifəni öz doğma bacısı oğluna, İsmayıl Ömərov-Əliyevə, üzr istəyirəm, yanlış yazdım, İsmayıl Ömər Gəllah adlı yoldaşa bağışlayıbdır. Həsənqulu müəllimin öz uşaqları yox imiş.

O vaxtdan bəri İsmayıl müəllim Cibutinin əvəzedilməz, dahi, müqəddəs, ümummilli, günəşəbənzər, yağış yağdıran *(nəzərə alın ölkə Afrikadadır)*, kölgəlik salan, sərinlik verən, canım sənə desin, dəvə yağlayan tək lideri olaraq qalmaqdadır. Özü də İsmayıl müəllim çox zarafatcıl adamdır - hərdən prezident seçkiləri də keçirdir. Məsələn, 2005-ci ildə seçki zamanı o, tək namizəd olub və səslərin... 100 faizini toplayıb. Mən bunu anekdot-zad kimi yazmıram, istəsəniz internetdə bu faktları müstəqil şəkildə tapa bilərsiniz.

Sonda bir daha ermənilərə üzümü tuturam: rədd olun!

# Köhnə YAP-çıların vəzifəyə gətirilməsinin sirri

**Yeni Azərbaycan Partiyası Siyasi Şurasının və İdarə Heyətinin üzvü, partiyanın icra katibinin müavini, deputat Mübariz Qurbanlının prezidentin sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri vəzifəsinə təyin olunması yeni müzakirələrə imkan yaradıb.**



**Mehman Əliyev:** "Müvafiq postlara təyinat zamanı ilk növbədə etibarlı adamlar axtarılır"



**Ərəstun Oruclu:** "2013-cü il prezident seçkilərindən sonra "köhnə qvardiya" üstünlük əldə etdi və opponentlərini sıradan çıxartdı"



**Siyavuş Novruzov:** "İqtidar partiyası dövlət üçün bir kadr potensialıdır, kadrların hazırlanması üçün məktəbdir"

Bu da hakim partiya rəhbərliyində təmsil olunan üç aparıcı fiqurdan sayca ikincisinin iqtidar komandasında müvafiq vəzifə ilə təltifləndirilməsidir. Bundan əvvəl YAP-ın icra katibi və partiya sədrinin müavini Əli Əhmədov da baş nazirin müavini təyin edilmişdi. Düzdür, uzun müddət idi ki, vəzifə təyinatları zamanı YAP-ın kadrlarından istifadə olunmamasından dolayı siyasi kuluarlarda müzakirələr gedirdi və bir sıra hallarda hakim partiyadakı narazılıqlar mətbuata da sızırdı. Xüsusilə də bəzi gənc kadrların komandada yer almasından sonra qocaman YAP-çılar vəzifə təyinatı alacaqlarına bəslədikləri ümidlərini dəfn etmişdilər. Lakin bu mərhələdə YAP-ın təcrübəli kadrlarına istinad edilməsi maraqlı bir mənzərə yaradıb. Belə görünür ki, hakim partiyanın hakim komandada mövqelərinin tədrici də olsa, gücləndirilməsi prosesi gedir.

**"Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyev hesab edir ki, müvafiq postlara təyinat zamanı ilk növbədə etibarlı adamlar axtarılır:** "Ona görə də bu cür seçim edilir. Yəni burada professional yanaşma, yaxud hansısa sahəni incəliyinə qədər bilmək məsələsi o qədər də önəmli deyil. Dediyim kimi, burda daha çox sadiq olan insana üstünlük verilir. Dini Komitə elə bir sahədir ki, burda daha çox təcrübə, siyasi biliyin olması əhəmiyyət kəsb edir. Eyni zamanda dini icmalar, inanclı insanlar arasında avtoriteti olan insan olmalıdır. Bu postu tutan şəxs dövlətlə dini icmalar arasında olan şəxsdir. Ona görə də dövlətin dini siyasətini insanlara, təşkilatlara çatdıracaq bir adam olmalıdır. Hər halda, inanclı adamlardan soruşmaq lazımdır ki, onlar Mübariz Qurbanlıya nə qədər etibar edirlər".

YAP-ın elitasının irəli çəkilməsi şəraitində hakim partiyanın gənc üzvləri bu durumdan narazı qala bilərmi?

**M.Əliyev suala cavablında dedi:** "Mən bu gün xeyli gənclər görürəm ki, onların arasında YAP-çı olan da, olmayan da var, onlar özlərinin gələcəyini, karyeralarını hansısa postda olub maraqlarını təmin etməkdə görürlər. Artıq belə bir təbəqə də formalaşıb. Ancaq YAP-dakı gənclər kimdən narazı ola bilər? Bu partiyada demokratik mühit varmı ki, kimsə narazı olsun, kimsə inciyib getsin, ya partiya parçalansın? Müəyyən canfəşanlıqlar ona yönəlib ki, hakimiyyətdən istifadə edib şəxsi maraqlarını təmin etsinlər. Əgər ölkədə bu korrupsiya, iqtisadiyyatın qeyri-normal inkişafı varsa, bunlar hamısı onu göstərir ki, hakimiyyətdə olanların əksəriyyəti öz maraqlarını təmin etmək üçün çalışırlar. Ora da gəlmək istəyənlər də məhz bu məqsəd üçün gəlir. Heç kəs hakimiyyətdə ona görə təmsil olmaq istəmir ki, gəlib korrupsiyasız, rüşvətsiz Yeni Azərbaycan quracaq. Ümumiyyətlə, bu sistem belədir".

**"Yeni vəzifəyə təyin olunan YAP-çı deputatın mandatı ləğv olunarkən Milli Məclisdə iqtidar partiyasının sıralarının seyrəlməsinə necə təsir edəcək" sualına YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov cavab verərkən modern.az-a deyib ki, bu, bütün dünyada rast gəlinən praktikadır. Onun sözlərinə görə, parlamentdəki kadr potensialından dövlətin idarə olunmasında kifayət qədər istifadə olunur. Səbəbinə gəldikdə, birinci növbədə həmin insanlar hazırlıqlı olurlar və seçicilərini parlamentdə təmsil edirlər. Belə adamların ictimai-siyasi fəaliyyəti, siyasi dünyagörüşü, dövlət idarəçiliyində təcrübəsi diqqət çəkir:** "YAP-ın parlamentdə təmsil olunan kifayət qədər üzvü var. Həm ümummilli lider, həm də indiki prezidentimiz istər parlamentdə, istərsə də partiyanın rəhbər strukturlarında, Siyasi Şurasında, İdarə Heyətində təmsil olunan insanları müxtəlif vəzifələrə təyin ediblər. Bəzisi icra başçısı göndərilir, bəziləri müxtəlif nazirliklərdə, dövlətin ayrı-ayrı strukturlarında təmsil olunurlar. Bu da tamamilə məqsədəuyğun və düzgün xətdir". **Kadrlardan istifadənin səbəblərindən danışarkən o, YAP-ın "bir məktəb olduğunu" diqqətə çatdırıb:** "İqtidar partiyası dövlət üçün bir kadr potensialıdır, kadrların hazırlanması üçün məktəbdir. Bu prosesdə gənclər də iştirak edir və vaxtaşırı onların da potensialından istifadə olunur. YAP 500-1000 nəfərdən ibarət deyil, geniş və böyük bir ordudur. Vətəninə, xalqına bağlı, təhsilli, dövlətçiliyi bilən insanların toplaşdığı bir siyasi təşkilatdır". Qeyd edək ki, bununla da YAP-ın Milli Məclisdə təmsil olunan 4-cü nümayəndəsi mandatsız qalıb. Belə ki, 2013-cü ilin oktyabrında baş nazirin müavini vəzifəsinə təyin olunan Əli Əhmədovun deputat mandatı ləğv olunub. Adı korrupsiya qalmaqalında hallanan Gülər Əhmədova özü mandatından imtina edib. 2013-cü ilin mart ayında isə deputat Hikmət Atayev avtomobil qəzasında dünyasını dəyişib.

**Maraqlıdır, S.Novruzov özü necə, vəzifə gözləyirmi? "Hansısa vəzifəyə təyin olunmağım üçün səlahiyyət partiya sədrinə aiddir"** - deyə, o bildirib. "Birinci növbədə, mənim kifayət qədər işim var. Həm Yeni Azərbaycan Partiyasının icra katibinin müaviniyəm, həm də Milli Məclisdə İntizam komissiyasının sədriyəm. Ümumi işlərdə də fəaliyyət göstərirəm. Amma mənim yeni vəzifəyə təyin olunacağım barədə nəsə bir söz deyə bilmərəm. Çünki bu cür məsələlərdə səlahiyyət partiyanın sədrinə aiddir. Partiya sədri nə vaxt yeni vəzifəyə məni məsləhət bilərsə, o vaxt da bu reallaşa bilər"-deyə, S.Novruzov əlavə edib.

**Politoloq Ərəstun Oruclu köhnə YAP-çıların vəzifəyə təyin olunması tendensiyasının fərqli izahını verdi:** "2013-cü il prezident seçkilərindən sonra "köhnə qvardiya" üstünlük əldə etdi və faktiki olaraq özünün yeni yaranmaqda olan opponentlərini, yəni Paşayevləri sıradan çıxartdı. İndi də həmin o qvardiyanın möhkəmlənməsi gedir və o prosesin davamıdır, başqa heç bir şey yoxdur". **Ə.Oruclu deyir ki, bu gün meydanda əsasən "köhnə qvardiya"nın komandası var:** "Məsələn, Əli Əhmədov da bundan əvvəl baş nazirin müavini təyin olunmuşdu. Həmin ərəfədə hakim komandada bir neçə nəfərin sıradan çıxarılması onu göstərir ki, burada komanda oyunu gedir". **Ekspert güman etmir ki, Prezident Administrasiyasında şöbə müdiri olan Elnur Aslanov və ya Dini İşlər üzrə Dövlət Komitəsinin sabiq sədri Elşad İskəndərov etibarsız çıxıblar deyə vurulub:** "Güman etmirəm ki, onlar etibarsız çıxıb, yaxud ümidləri doğrultmayıb. Məncə, onlar hansısa daxili intriqanın qurbanı oldular. Gülən camaatı və digər söhbətlər prosesin dekorativ bəzədilməsi idi. Əslində isə onlar intriqanın qurbanı oldular". **Ə.Oruclu da vəzifə tamarzısı olan YAP gənclərinin belə bir situasiyada hansısa sərt mövqe sərgiləyəcəyini güman etmir:** "Məncə, onların xüsusi bir çəkisi yoxdur ki, nəyəsə təsir etsinlər. Avtoritar partiyadır və mərkəzdən idarə olunur".

❑ Cavid TURAN



# Beynəlxalq Qızıl Xaç Komitəsi girovlarla bağlı hərəkətə keçdi

## Kəlbəcərdə girov götürülən soydaşlarımızın yaxınları Bakıda aksiya keçirdilər; Avropadakı soydaşlarımız da piket təşkil edib

**Bir neçə gün əvvəl öz torpaqlarımızda əsir götürülən vətəndaşlarımızın məsələsi ciddiliyini qorumaqdadır. Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycanın işğal altındakı bölgəsində olan nümayəndəsi Tomas Haliyer Xankəndində separatçı Dağlıq Qarabağ rejiminin təmsilçisi Karen Mirzoyanla görüşüb. Görüş iyulun 22-də keçirilib. "Media forum" saytı bildirir ki, separatçı rejim görüşdə Kəlbəcərdə girov götürülmüş Azərbaycan vətəndaşlarının məsələsinin müzakirə olunduğu haqda xəbər yayıb.**

Yayılan məlumatda qeyd olunur ki, görüşdə BQXK nümayəndəliyinin Dağlıq Qarabağdakı fəaliyyəti müzakirə olunub və bu kontekstdə Kəlbəcərdə girov götürülmüş azərbaycanlılarla bağlı məsələyə toxunulub. Bildirilib ki, BQXK ofisi məsələ ilə bağlı Dağlıq Qarabağdakı separatçı rejimin strukturları, eləcə də hərbi əsirlər, girovlar və itkin düşmüş şəxslərlə bağlı komissiyası arasında əməkdaşlıq qurulub.

Bu ay azərbaycanlılar Şahbaz Quliyev və Dilqəm Əsgərov Kəlbəcərdə ermənilərin əlinə keçib. Onlar diversiyada və 17 yaşlı bir ermənini öldürməkdə təqsirli bilinir. Şahbaz Quliyev və Dilqəm Əsgərovdan başqa daha bir azərbaycanlının Kəlbəcərə keçdiyi xəbər verilir. Onun adı açıqlanmayıb. İddiaya görə, həm şəxs iyulun 11-də Kəlbəcər ərazisində öldürülüb. Qeyd olunur ki, azərbaycanlı ilə atışma zamanı bir erməni həlak olub, biri yaralanıb.

İyulun 21-də baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Deniz Duranla görüşüb.

**Əli Həsənov BQXK nümayəndəliyinin rəhbərinə Ermənistanın girov götürdüyü azərbaycanlıların taleyi ilə bağlı və bu günə qədər onlar haqqında heç bir məlumatın olmamasından Azərbaycan tərəfinin narahatlığını çatdırıb və bildirib ki, bütün bu məsələlər ilk gündən ölkə prezidentinin diqqət mərkəzindədir. O qeyd edib ki, həmin şəxslər öz doğma torpaqlarından didərgin düşmüş məcburi köçkünlərdir:** "Bu insanların ora getməsinə səbəb həmin insanların vətən həsrəti və eyni zamanda öz doğmalarının məzarlarını ziyarət etməsidir. Bu şəxslər sərhədləri BMT tərəfindən tanınan Azərbaycanın ərazisində işğalçı qüvvələr tərəfindən girov götürülüblər. Onlar heç bir sərhəd pozuntusuna yol verməyib və heç bir beynəlxalq hüquq normasını və prinsiplərini pozmayıblar. Lakin bütün bunlara baxmayaraq, Ermənistan tərəfi həmin şəxslər haqqında həqiqətə uyğun olmayan müxtəlif fikirlər səsləndirir və onların üzərinə diversant və cinayətkar qrup kimi ləkələr yaxaraq onlara münasibətdə "Müharibə zamanı mülki şəxslərin müdafiəsi haqqında" Cenevrə Konvensiyasından irəli gələn müddəaları tətbiq etməkdən boyun qaçırır".

Görüşdə girov götürülmüş şəxslərlə bağlı BQXK-nın fəaliyyətinin daha da gücləndirilməsinin vacibliyi vurğulanıb və bu istiqamətdə intensiv iş aparmağın zəruriliyi diqqətə çatdırılıb.

**Ə.Həsənov bildirib ki, Ermənistan hərbçiləri tərəfindən Kəlbəcərdə girov götürülən azərbaycanlılar əsl vətənpərvər, qəhrəmandırlar:** "Onları qətiyyən qınamaq olmaz. Biz gənclərimizi torpaqlarımızı azad etməyə hazırlayırıq. Onlar gənclərimizə nümunədirlər. Onlar Kəlbəcərə bir neçə dəfə gediblər. İstəsəydilər, elə o vaxt gedəndə hansısa hadisələr törədərdilər.







Kəlbəcərdə 17 yaşlı bir oğlan ölüb. Cinayət işini aça bilmirlər, onların üstünə yıxırlar. Belə çıxır ki, açılmayan nə qədər cinayət varsa, yıxacaqlar həmin azərbaycanlıların üstünə..."

**Ə. Həsənov xatırladıb ki, Cenevrə Konvensiyasına uyğun olaraq müharibə aparan ölkələrin girov və mülki şəxslərlə davranış qaydaları var:** "Hadisədən neçə gün keçib, nə üçün Ermənistan tərəfi BQXK-ya azərbaycanlı girovlarla görüşməyə imkan vermir? Çünki başlarına min oyun açırlar, işgəncələr verirlər, iynə vururlar, bədənlərinə min cür şey yeridirlər".

**Baş nazirin müavini bildirib ki, girov götürülən azərbaycanlılar Ermənistan tərəfindən təzyiq və işgəncələrə məruz qalırlar:** "Biz bilirik ki, onlara təzyiq göstərilir, işgəncələr verilir". Ə. Həsənov mətbuatı və girovların yaxınlarını təmkinli və diqqətli olmağa çağırıb. O bildirib ki, bu məsələ ilk gündən Azərbaycan prezidentinin diqqətindədir, dövlət bu məsələ ilə məşğuldur.

**O, Kəlbəcərdə girov götürülmüş azərbaycanlılardan birinin öldürülməsi ilə bağlı Azərbaycan hökumətinin Beynəlxalq Qızıl Xaç Komitəsi ilə birlikdə günün sonunda birgə bəyanat yayacağını da qeyd edib. Ə.Həsənov bildirib ki, BQXK-ya edilən ciddi xəbərdarlıqdan sonra təşkilat əməli fəaliyyətə keçib:** "Artıq onlar da bundan nəticə çıxarıblar. Yayılacaq bəyanat da həmin fəaliyyətin nəticəsi kimi dəyərləndirilə bilər".

**Ə.Həsənovun fikrincə, Beynəlxalq Qırmızı Xaç Komitəsi tənqiddən nəticə çıxararaq Kəlbəcərdə azərbaycanlı girovların tutulması ilə bağlı əməli addımlar atıb:** "BQXK bununla bağlı Azərbaycan hökuməti ilə birgə bəyanatla çıxış edəcək".

Yeri gəlmişkən, girov götürülmüş vətəndaşların qohumları və ailə üzvləri iyulun 23-də Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) Bakı ofisinin qarşısına toplaşıblar. Azxeber.com-un hadisə yerində olan müxbirinin sözlərinə görə, onlar Qırmızı Xaç Komitəsinin əsir götürülənlərin işi ilə bağlı heç bir tutarlı addım atmamasını və prosesin uzadılmasından narahat olduqlarını deyiblər. Aksiya zamanı girovların azad olunması tələb edilib.

Aksiya zamanı Dilqəm Əsgərovun həyat yoldaşı Firuzə Əsgərova ərinin azad olunmasını tələb etdiyini söyləyib. O, əri geri qaytarılmayana qədər heç yerə getməyəcəyini, lazım olsa Beynəlxalq Qırmızı Xaç Komitəsinin binası qarşısında gecələyəcəyini bildirib.

Həmçinin Avropadakı azərbaycanlılar da girovların müdafiəsinə qalxıblar. "Yaşıllar və Sosial Demokratlar partiyalarının həm Almaniyadakı mərkəzinə, həm də Avropa parlamentindəki fraksiyalarına girovlarla bağlı məktub göndərmişik. Özümüz Almaniya vətəndaşı olduğumuz üçün onların qarşısında konkret tələblər qoymuşuq".

Bu barədə məlumatı Almaniyadakı Azərbaycan diasporunun nümayəndəsi, eyni zamanda oradakı **Sosial Demokratlar Partiyasının üzvü Toğrul Əziz** verib. "Azərbaycan vətəndaşlarının Azərbaycan ərazisində girov götürülməsinə Yaşıllar və Sosial Demokratlar partiyalarının birbaşa reaksiya verməsini, girovlarımızın normal şəraitdə saxlanmalarını təmin etmələrini və onların təzliklə azadlığa buraxılmasını təmin etməkdən ötrü Ermənistan hökumətinə təzyiqlər göstərilməsini tələb etmişik".

Rusiya isə əsir düşmüş azərbaycanlının onların vətəndaşı olduğunu təkzib edib. "Kəlbəcərdə ermənilər tərəfindən girov götürülən azərbaycanlılar arasında Rusiya Federasiyasının vətəndaşı yoxdur". APA-nın Rusiyanın Azərbaycandakı səfirliyinin saytına istinadən verdiyi məlumata görə, bu barədə Rusiya səfiri Vladimir Doroxin Milli Məclis sədrinin müavini Bahar Muradovaya ünvanladığı məktubunda bildirib.

"Rəsmi olaraq Sizə məlumat verirəm ki, Kəlbəcərdə baş vermiş insident zamanı tutulanlar arasında Rusiya Federasiyasının vətəndaşı yoxdur", - deyə V.Doroxin məktubunda yazıb.

Qeyd edək ki, Kəlbəcərdə ermənilər tərəfindən girov götürülmüş Dilqəm Əsgərovun Rusiya vətəndaşı olması barədə məlumatlar yayılıb.

"Öz doğma ata-baba torpağına, Kəlbəcərə, Zəngilana və digər yerlərə getmək oradan olan insanların hüququdur və heç kim bu hüquqa qarşı çıxa bilməz". Bu açıqlamanı isə "Dağlıq Qarabağın Azərbaycanlı İcması" İctimai Birliyinin sədri Bayram Səfərov verib.

**B.Səfərov bildirib ki, vətəndaş öz ölkəsi daxilində hərəkət edib, heç bir dövlətin sərhədini pozmayıb:** "Necə ola bilər ki, mən öz ölkəmin ərazisində sərhədi pozum? Biz hamımız istədiyimiz vaxt torpaqlarımıza, ata-baba yurdumuza gedəcəyik. Tək Kəlbəcərə deyil, digər işğal altındakı ərazilərə getmək bizim hüququmuz və istəyimizdir. Girov götürülmüş şəxslər də öz torpaqlarına gediblər. Onlar valideynlərinin qəbrini ziyarət ediblər. Biz nəinki öz ata-baba torpaqlarımıza getməliyik, həm də gedib orada yaşamalıyıq".

**İcma rəhbərinin sözlərinə görə, ermənilər mülki insanlara "diversant" adı qoymaqla onları ittiham eləməyə çalışırlar:** "Bu onların yeni sərsəm fikirlərindən biridir". B.Səfərov qeyd edib ki, dövlət başçısı da məsələni diqqətə götürüb. O, girovların azad olunacağına əminliyini də vurğulayıb.

❑ **Röya RƏFİYEVA**



# Yadigar Sadıqovun Hüquqlarını Müdafiə Komitəsi bəyanat yaydı

## "Məhkəmənin 6 illik cəzanı 4 ilə endirilməklə kifayətlənməsi "süni humanizm" görüntüsü yaratmaq cəhdidir"

**Müsavat Partiyası başqanının müşaviri, vicdan məhbusu Yadigar Sadıqovun Hüquqlarını Müdafiə Komitəsi bəyanat yayıb. Bəyanat iyulun 22-də Şirvan Apelyasiya Məhkəməsinin qərarı ilə Y.Sadıqovun cəzasının 6 ildən 4 ilə qədər azaltması ilə bağlıdır. Müdafiə Komitəsi bu qərarla qətiyyən razılaşmır və Yadigar Sadıqovun ümumiyyətlə həbsini qanunsuz hesab edir.**

Komitənin bəyanatında deyilir ki, Apelyasiya Məhkəməsinin baxışı zamanı Y.Sadıqovun vəkillərinin əsaslandırılmış vəsatətlərinin əksəriyyəti rədd edilib: "Yalnız bir-iki vəsatətin qismən təmin edilməsi, həm bütövlükdə ittiham tərəfinin siyasi sifariş əsasında iddia etdiyi xuliqanlıq hadisəsinin baş verməməsinə dair, həm də ayrılıqda ittihamın "zərərçəkən"in bədəninə "az ağır" xəsarət yetirməyə dair hissəsi haqda vəkillərin məhkəməyə təqdim etdiyi və ekspertiza rəyinin saxta olmasına şübhə yeri qoymayan, eləcə də ibtidai istintaq zamanı kobud prosessual pozuntuların baş verməsini əsaslandıran sübutlara əhəmiyyət verilməyib. Həmçinin ittiham tərəfinin saxta şahidlərinin təkrar dindirilmədən yayınmaları məhkəmənin qərarında öz əksini tapmayıb. Sırf ictimai-siyasi fəaliyyətinə görə uydurma xuliqanlıq iddiası ilə törətmədiyi cinayətdə ittiham edilən Y.Sadıqova bəraət vermək əvəzinə, Lənkəran məhkəməsinin saxta ittihama əsaslanmaqla verdiyi 6 il azadlıqdan məhrum etmə haqda hökmünün tam mahiyyətini apelyasiya instansiyasının qüvvədə saxlaması və 6 illik cəzanı 4 ilə endirməklə kifayətlənməsi "süni humanizm" görüntüsü yaratmaq cəhdi və hakim rejimin siyasi sifarişinin icrasını davam etdirməkdir.

Müdafiə Komitəsi Şirvan Apelyasiya Məhkəməsinin verdiyi qərarla qətiyyən razılaşmır və Y.Sadıqov azad edilənə qədər hüquqi müstəvidə mübarizəsini davam etdirəcəyini bildirir.

❑ **Nərgiz YAQUBLU**

YENİ MÜSAVAT
N 187 (5896) 24 iyul 2014

**İyulun 21-də ölkə başçısı YAP icra katibinin müavini, deputat Mübariz Qurbanlını Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə (DQİDK) sədr təyin etdi. Komitə sədri postu bu il mayın 2-də Elşad İskəndərov vəzifəsindən azad edildikdən sonra təxminən 80 gün müddətində boş qalmışdı. Və gözlənilmədən dövlət başçısı həmin posta belə deyilərsə, "yad" adamı gətirdi.**

# Mübariz Qurbanlını dinin başına gətirən yol - ekskurs

## Dini proseslərdən kifayət qədər uzaq adam sayılan Qurbanlının DQİDK sədri təyin olunması bu sahəyə nəzarətin, dini icmalara isə təzyiqin güclənəcəyinə işarədir...



Son illər baş verənlərin fonunda Dini Komitə sürətlə öz əhəmiyyətini artırmaqda və strateji dövlət qurumuna çevrilməkdədir. Bu mənada M.Qurbanlı post üçün gözlənilməz namizəd oldu. Daha çox politoloq və siyasətçi kimi tanınan, dini fəaliyyətlə aşağıdan-yuxarıya əlaqəsi olmayan Mübariz Qurbanlının Azərbaycan dövlətinin din siyasətini həyata keçirən, dini fəaliyyətə nəzarət edən bir quruma sədr gətirilməsi birmənalı qarşılanmadı və müxtəlif yozumlara səbəb oldu.

Məsələ ondadır ki, Azərbaycanda dini sahədə ciddi problemlər mövcuddur və hökumətin bu sahəyə yönəlik konkret siyasəti mövcud deyil. Üstəgəl, son illərdə Suriya, eləcə də İraqda davam edən müharibələr Azərbaycanda da məzhəblərarası münasibətlərə təsir edib. Hökumət xaricdə gedən döyüşlərə qatılan azərbaycanlıların qarşısını almaq üçün bir sıra tədbirlər görüb, QMİ Suriyada savaşın cihad sayılmadığı ilə bağlı fətva verib, dindarları geri çağırıb, rəsmi media radikal təkfirçi qruplara qarşı kampaniya başladıb, ölkə boyunca radikalizmə qarşı tədbirlər keçirilib.

Bütün bunların fonunda mayın 2-də qəflətən komitə sədri Elşad İskəndərov vəzifədən çıxarıldı. Onun konkret hansı səbəbdən işdən azad edildiyi bilinməsə də, hökumətə yaxın mediada sədrin nurçu camiə ilə əlaqələrinə görə vurulduğu iddia edilirdi. İskəndərovun işdən azad edilməsindən sonra postun uzun müddət boş qalması müəyyən amillərlə izah olunurdu.

Əvvəla, güman edilirdi ki, hakimiyyət posta daha çox etimad göstərilən, təcrübəli, dini proseslərə nəzarət etmək imkanlarına malik şəxsi gətirəcək. Hətta yeni sədrin müəyyən olunması prosesinin iki aydan artıq uzanması bu istiqamətdə ciddi tərəddüdlərin və sədrlik üçün şərtlərin daha mürəkkəb olduğunu göstərirdi...

Mübariz Qurbanlının təyinatı ilk növbədə onu göstərir ki, hakimiyyət dini qruplar üzərində təzyiqləri daha da artırmaq niyyətindədir. Sədr postuna "kənar" şəxsin gətirilməsi buna işarə sayıla bilər. Eyni zamanda hakimiyyətin dini fəaliyyət üzərində nəzarətinin artacağı, icmaların fəaliyyətinin təftiş olunması prosesinin güclənəcəyi gözlənilir. Bir sözlə, DQİDK dini qurumlar üzərində hökumətin təzyiq siyasətini həyata keçirən orqana çevriləcək.

Sədr postuna YAP rəhbərliyinə daxil olan şəxsin gətirilməsi bu qurum üzərində hakim partiyanın nəzarət əldə etməsi kimi də qiymətləndirilir. Maraqlıdır ki, ötən ilin payızında YAP sədrinin birinci müavini Əli Əhmədov baş nazirin müavini təyin olunub. Eyni zamanda ölkədə ictimai rəyə ciddi təsir rıçaqı hesab olunan Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsinin sədri, baş nazirin müavini Əli Həsənov və Elmlər Akademiyasının prezidenti Akif Əlizadə YAP sədrinin müavini təyin olunublar. Ölkədə ictimai rəyin formalaşmasında əsas gücə sahib olan və böyük bir əhali kütləsini özündə birləşdirən dini sahəyə məhz YAP kadrının gətirilməsi hakimiyyətin bu sahədə möhkəmlənmək və nəzarəti daha da artırmaq istəyi kimi qiymətləndirilə bilər.

Əslində əksəriyyətin düşüncəsinin əksinə olaraq DQİDK dini bir təşkilat deyil, hökumətin dini qurumların fəaliyyətinə nəzarətini həyata keçirən orqandır. Azərbaycanda formal dini idarə funksiyası isə QMİ-yə verilib. Bu səbəbdən hər iki qurum arasında bir qayda olaraq münaqişə yaşanıb. Baxmayaraq ki, DQİDK sədrləri vəzifəyə təyin olunmamışdan öncə şeyxülislamla yaxın dostluq münasibətlərinə sahib olublar. Hazırkı sədr Mübariz Qurbanlının da Şeyxlə yaxşı münasibətlərinin olduğu bildirilir.

Komitə Azərbaycan hakimiyyətinin dini sahədə pərakəndəliyi aradan qaldırmaq üçün 2001-ci ilin iyununda yaradılıb. DQİDK-nın ilk sədri Elmlər Akademiyasının əməkdaşı, şərqşünas, ərəb ölkələrində iş təcrübəsinə malik Rafiq Əliyev olub. R.Əliyev sədr postunda 5 il çalışıb. Bu dövr komitənin formalaşması ilə yanaşı, QMİ ilə DQİDK arasında gərgin münasibətlərin olması ilə yadda qalıb. Hətta 2006-cı ildə R.Əliyev QMİ sədrinin bütün Qafqazın şeyxi olmadığı haqda açıqlama verməsi ilə münasibətlər pik nöqtəyə çatmışdı. 2006-cı ilin iyulunda R.Əliyev postunu itirdi və onun yerinə keçmiş prezident müşaviri Hidayət Orucov təyin olundu. 15 ilə yaxın Azərbaycan prezidentinin milli məsələlər üzrə müşaviri postunda çalışmış H.Orucov ixtisasca filoloq idi və onun vəzifədə olduğu 6 il ərzində ölkədə dini zəmində münasibətlər daha da gərginləşdi. Bir sıra məscidlər qapadıldı, dini sahədə qadağalar sərtləşdirildi.

Din sahəsində vəziyyətin həddən artıq gərgin olduğu bir vaxtda H.Orucov vəzifədən kənarlaşdırıldı və onun yerinə nisbətən gənc, diplomat, İslam Konfransı Gənclər Forumunun baş katibi Elşad İskəndərov gətirildi. E.İskəndərov vəzifəyə təyin olunduqdan sonra dini sahədə yaranmış gərginlik nisbətən aşağı düşsə də, Yaxın Şərqdə başlayan müharibələr səbəbi ilə azərbaycanlıların bu bölgələrə döyüşlərə qatılması və məzhəblər arasında münasibətlərin gərginləşməsi tendensiyası artdı. Hökumət dini radikalizmi təbliğ edən və xarici ölkələrə döyüşçü göndərməkdə ittiham olunan bəzi icmalarda "təmizləmə" işləri apardı. Daha sonra başlayan nurçu ovu fonunda komitə sədri postunu itirdi.

İyulun 22-də yeni sədr Mübariz Qurbanlının Dini Komitədə təqdimatı keçirilib. DQİDK-nın rəsmi saytında verilən məlumatda qeyd olunur ki, təqdimat mərasimində Prezident Administrasiyasının İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdulla iştirak edib. Maraqlıdır ki, daha əvvəlki iki komitə sədrinin təqdimatında bu səviyyədə yüksək vəzifəli dövlət rəsmisi iştirak etməyib. Bu da hakimiyyətin din sahəsində diqqətinin daha da artmasının daha bir nümunəsi hesab oluna bilər.

Mübariz Qurbanlının DQİDK sədri təyin olunması ilə bağlı QMİ-dən də rəy almağa çalışdıq. QMİ-nin mətbuat xidmətindən bir cümlə ilə cavab verdilər: "Uğurlar diləyirik".

❑ Kənan RÖVŞƏNOĞLU



## Ağdamın işğal günü erməni bayrağı yandırıldı



**İyulun 23-də Qarabağ Azadlıq Təşkilatının (QAT) üzvləri Ağdamın işğal günü ilə bağlı Şəhidlər Xiyabanını ziyarət ediblər. Ziyarət zamanı torpaqlarımızın azadlığı və müstəqilliyimiz uğrunda şəhid olan bacı və qardaşlarımızın ruhlarına dualar oxunub, məzarlarının üstünə güllər qoyulub.**

Tədbir iştirakçıları həmçinin Türk Şəhidliyi abidəsini ziyarət ediblər. Sonra işğalçı Ermənistana nifrətin, qəzəbin bildirilməsi məqsədilə Ermənistanın bayrağı yandırılıb və tapdalanıb. Ziyarət iştirakçıları düşmənə nifrətlərini bir daha dilə gətirib, düşməni lənətləyiblər. Daha sonra QAT-çılar İkinci Fəxri Xiyabana gedərək orada uyuyan şəhidlərin, o cümlədən Asif Məhərrəmov, Mübariz İbrahimov, Famil Məmmədli və digərlərinin məzarlarını ziyarət ediblər, ruhlarına dualar oxunub, məzarlarının üstünə güllər qoyublar.

❑ ELŞAD

## Sifarişli qətl üzrə sabah qərar veriləcək

### "Avesta" konsernindəki qanlı cinayətin məhkəməsi sona çatır

**Bakı Apelyasiya Məhkəməsində "Azər-Ross" MTK-nın baş ofisində törədilən dəhşətli qətl hadisəsində və dələduzluqda ittiham olunan Hümbət Məmmədov, Tofiq Bəkirov, Fərman Hacıyev, Ramil Hacıyev, Sahil Şamilov və Şamil Şamilovun cinayət işi üzrə məhkəmə prosesi yekunlaşmaq üzrədir. İyulun 23-də hakim Mirpaşa Hüseynovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxslərin vəkilləri iştirak etməyib.**

Hakim ötən iclas da prokurorun çıxış etdiyini və Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmünün qüvvədə saxlanılmasını istədiyini xatırladıb. Deyib ki, vəkillərin prokurorun çıxışına münasibət bildirməsi üçün məhkəmə iclasını təxirə salıblar: "Təəssüflər olsun ki, vəkillər məhkəmə iclasında iştirak etmir. Qanuna əsasən vəkillər iştirak etməlidir. Amma bizə məlum olmayan səbəblərdən onlar prosesə qatılmayıblar. Növbəti məhkəmə iclasında vəkillər iştirak etməsə qərar qəbul ediləcək".

Hakim növbəti prosesi iyulun 25-nə təyin edib.

İttihama görə, 2011-ci il iyulun 11-i saat 13 radələrində paytaxtın Nərimanov rayonu ərazisində yerləşən "Azər-Ross" mənzil-tikinti kooperativində qurumun təsisçisi Əflatun Piriyev odlu silahdan açılan atəşlə qətlə yetirilib, baş mühasib Əmiraslan Əhmədov ağır yaralanıb.

İstintaq araşdırmaları zamanı cinayət işi üzrə dələduzluq faktları da üzə çıxıb. Məlum olub ki, şirkətin təsisçilərindən biri olan Hümbət Məmmədov vətəndaşları aldadaraq bir mənzili bir neçə nəfərə satmaqla dələduzluq edib. İş materiallarında qətl sifarişçisi H.Məmmədovun öz yaxın qohumunu zorlaması haqda məlumatlar da var.

Cinayət işi üzrə dələduzluqla üzləşmiş 26 vətəndaş zərərçəkmiş qismində tanınıb. Zərərçəkən vətəndaşlardan 24 nəfərindən 1 milyon 777 min manat pul alınıb və onların heç birinə mənzil verilməyib. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Hümbət Məmmədov və Vüsal Qurbanov ömürlük, Tofiq Bəkirov 14 il, Fərman Hacıyev 14 il 6 ay, Sahil Şamilov və Şamil Şamilov isə hər biri 12 il 6 ay müddətinə azadlıqdan məhrum ediliblər. Hökmdən təqsirləndirilən şəxslər apelyasiya şikayəti veriblər. Sahil və Şamil qardaşları barələrində olan hökmün ləğv edilməsini və bərəət hökmünün çıxarılmasını istəyiblər. Digər təqsirləndirilən şəxslər cəzalarının yüngülləşdirilməsini xahiş ediblər.

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 187 (5896) 24 iyul 2014

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF
www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Putindən yeni müharibə anonsu

## Kreml başçısının "Rusiyanın ərazi bütövlüyünə təhlükə yoxdur" mesajının Qarabağ məsələsinə hansı aidiyyəti var? Münaqişənin hərbi həll yolu yoxdur, sülh yolu isə dalana girib; tərəflərin bir-birinə yox, məhz Minsk Qrupuna etimad problemi yaşanır...

**Azərbaycanlıların Kəlbəcərdə girov götürülməsi və bunun üzərində erməni tərəfinin siyasi şou düzəltmək niyyəti ATƏT-in ABŞ və Avropadan olan həmsədrlərini də ciddi şəkildə təlaşlandırıb. Təbiidir, çünki insident vasitəçilərin tərəflər arasında kövrək etimad atmosferi yaradıb prosesi irəli aparmaq təşəbbüslərinə növbəti zərbədir. Üstəlik, yaranmış gərgin şəraitdə Azərbaycan və Ermənistan prezidentlərinin növbəti təmasından danışmağa dəymir.**

Təsadüfi deyil ki, məsələyə münasibət bildirən amerikalı həmsədri Uorlik APA-ya açıqlamasında Azərbaycan-Ermənistan sərhədində, ümumən təmas xəttində insan ölümlərindən narahatlıq keçirdiyini dilə gətirərək deyib: "Yaralanma və ölüm hallarına gətirib çıxaran insidentlərin artması sülh axtarışları istiqamətindəki səylərimizdə reqressdir. ABŞ və Minsk Qrupunun həmsədrləri tərəflərə münaqişənin sülh yolu ilə həlli üçün kömək etmək istəyirlər. Bu münaqişənin müharibə yolu ilə həlli yoxdur. Faktiki olaraq həmsədrlər gələcək addımları müzakirə etmək üçün Brüsseldə Azərbaycan və Ermənistan xarici işlər nazirləri ilə görüşmək istəyirlər".

**Bundan əlavə, diplomat ümid etdiyini bildirib ki, Azərbaycan və Ermənistan prezidentləri Fransa prezidenti Fransua Ollandın Parisdə görüşmək barədə təklifini qəbul edəcəklər.** "Ötən ilin noyabrında prezidentlər Vyanada görüşəndə, tərəqqinin mümkünlüyünün şahidi olduq. İnanırıq ki, bu müzakirələrin davamı sülhə doğru vacib bir addım olacaq. Həmsədrlər və ABŞ istənilən köməyi göstərməyə hazırdır", - deyə Uorlik əlavə edib.

Bu arada Ceyms Uorlikin Vyanaya yollandığı da məlum olub. Diplomatın tvitter səhifəsində yerləşdirilən qeydlərə görə, səfərdə məqsəd Minsk Qrupunun ofisini və ATƏT baş katibliyini Qarabağ danışıqlarının gedişatı barədə bilgiləndirməkdir. "Bu gün (dünən-red.) ATƏT-in Minsk qrupu bəyanat verəcək. Bəyanatda zorakılığın artmasından narahatlıq ifadə olunacaq", - deyə o vurğulayıb.

Xatırladaq ki, dünən Brüsseldə Minsk Qrupu həmsədrlərinin Azərbaycan və Ermənistan xarici işlər nazirləri ilə görüşləri keçirilib. Lakin çətin ki, bu cür insidentlər münaqişə tərəfləri arasında etimada işləsin. Əksinə, amerikalı həmsədrin də vurğuladığı kimi, analoji hadisələr sülh axtarışı yönündə səyləri yalnız geri döndərir. Yaranmış vəziyyət isə ən çox Rusiyanın xeyrinədir, çünki Azərbaycanla Ermənistan arasında nə qədər çox ziddiyyət olsa, bir o qədər o, Kremlin maraqlarına cavab verir.

Problem həm də ondadır ki, neçə vaxtdır ABŞ və Fransa həmsədrlərinin təşviq elədiyi "xalq diplomatiyası" da daha kara gəlmir. O üzdən son vaxtlar Qarabağ zonasında müharibə risklərinin artmasından tez-tez danışılır. Qərbdə narahatlıq var ki, Ukrayna olaylarına görə uğursuz situasiyaya tuş gələn Rusiya öz acığını məhz Güney Qafqazdan çıxa bilər - Qarabağ cəbhəsində yeni müharibəni alovlandırmaqla.

Kremlin yeni Qarabağ savaşında maraqlı olmasını hazırda başqa nüanslardan da görmək olar. Məsələn, Ukraynadan sonra Güney Qafqazın artan əhəmiyyətini ciddiyə alan rəsmi Moskvanın son aylar ərzində regionla həmsərhəd zonaya əlavə olaraq xeyli ağır hərbi texnika və canlı qüvvə topladığı haqda məlumatlar var.

Əlbəttə ki, bu hərəkətlilik heç də Rusiyanın özünə qarşı hansısa xarici təhlükə olmasından qaynaqlanmır. Hər halda, Rusiya Təhlükəsizlik Şurasının srağagün keçirilən iclasından danışan Putin bəyan edib ki, Rusiyanın ərazi bütövlüyü və suverenliyinə real təhlükə yoxdur.

Doğrudur, Ukraynadakı olaylar fonunda Təhlükəsizlik Şurasında bu mövzuda müzakirələrin aparılmasının özü də maraqlı hadisədir və siyasi təhlilçilər tərəfindən birmənalı qarşılanmayıb. Lakin bir şey dəqiqdir ki, heç kim, o cümlədən NATO Rusiyaya hücum eləməyə hazırlaşmır. Təhlükə zaman-zaman məhz Rusiyanın özündən gözlənilib. Necə ki, hazırda şimal qonşumuz Ukraynaya əzələ nümayiş etdirməkdədir və bu ölkə ilə sərhədə 40 minlik hərbi kontingent yığıb.

Deməli, Kremlin Azərbaycanın şimal sərhədinə topladığı, qeyri-adekvat sayda hərbi qüvvə də qətiyyən Rusiyanın təhlükəsizliyi ilə bağlı deyil, ən azından region dövlətlərini, ilk növbədə də Azərbaycanı təhdid eləmək, qorxu-hürkü altında saxlamağa hesablanıb.

Belə vəziyyətdə şübhəsiz ki, vasitəçilik institutunun - Minsk Qrupunun önəmi artmış kimi görünür. Minsk Qrupu isə ara-sıra nazirlərin, ən yaxşı halda prezidentlərin görüşünü təşkil eləməklə içini bitmiş hesab edir. Son vaxtlar bu da əlçatmaz olub. Odur ki, Kremlin Qarabağ kartından öz istədiyi kimi yararlanmaq imkanları artıb ki, azalmayıb. Minsk Qrupunun faktiki dağılması indi ən çox Moskvanın çıxarlarına uyğundur.




Vasitəçiliyin böhran keçirməsi isə ilk öncə Azərbaycana - ərazisinin 20 faizi işğal altında olan tərəfə sərfəli ola bilməz. Çünki torpaqların sülh yolu ilə boşaldılması prosesi dalana giribsə, hərbi yolla işğala son qoyulmasına da imkan verilmir...

**"ATƏT-in Minsk Qrupu Azərbaycana deyil, Ermənistana etimadı öyrətməlidir". Bunu baş nazirin müavini, Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov Ağdam rayonunun Ermənistanın hərbi təcavüzü nəticəsində işğalının 21-ci ildönümü ilə əlaqədar keçirilən anım mərasimində deyib.**

"Minsk Qrupu ölkələri son vaxtlar etimad sözünü ortaya atıblar. Ancaq bilsinlər ki, bizə o etimadı öyrətmək lazım deyil. Azərbaycan xalqı tarixən həmişə qonşularla etimad şəraitində yaşayıb. Qoy, gedib o etimadı ermənilərə öyrətsinlər, o şərti ermənilərin qarşısında qoysunlar", - deyə Ə. Həsənov vurğulayıb. Minsk Qrupunun öz mahiyyətini itirdiyini deyən Həsənov Azərbaycan xalqının bu quruma inanmadığını da qeyd edib.

Şübhə yox ki, belədir. İndi tərəflərin bir-birinə yox, məhz Minsk Qrupuna etimad problemi var.

# "Girovlara işgəncə verilir"

## Əli Həsənov ermənilərin buna görə görüşə imkan vermədiyi qənaətindədir...

**Baş nazirin müavini, Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov erməni girovluğunda olan kəlbəcərlilərdən danışıb. Anspress-in məlumatına görə, nazir müavini ermənilərin əllərində olan məcburi köçkünlərə müxtəlif ləkələr yaxdıqlarını deyib.**

"Deyirlər onlar diversantdırlar. Onlar öz torpaqlarına gediblər. Onları qınamaq olmaz. Onlar əsl vətənpərvər və gənclərimizə nümunədirlər. Əgər onlar öz kəndlərinə gediblərsə, bunun harası diversantlıqdır? İndi açılmamış cinayətləri ermənilər onların üzərinə atacaqlar".

**Ə.Həsənov Azərbaycanın həmişə beynəlxalq təşkilatlara ermənilərin necə olduğunu dediklərini xatırladıb:** "Niyə ermənilər Beynəlxalq Qızıl Xaç Komitəsinə (BQXK) onlarla görüşə icazə vermirlər? Çünki onlar azərbaycanlılara işgəncələr verirlər. Ona görə onlara görüş təyin etmirlər".

Nazir müavini mətbuat nümayəndələrini də ehtiyatlı olmağa çağırıb. O, qeyd edib ki, öldürülmüş şəxslə bağlı bu günün sonunda bəyanat veriləcək. Baş nazirin müavini həmçinin bir neçə gün öncə tənqid etdiyi BQXK-nın fəaliyyətindən danışıb. O qeyd edib ki, BQXK göstərişlərdən sonra araşdırma aparıb və nəticəsini də açıqlayacaq.



**Əli Həsənovun sözlərinə görə, hər gün bu barədə prezidentə məlumat verilir:** "Artıq prezident girovlar məsələsini öz diqqətində saxlayır və məsələyə nəzarət edir. O, hadisələrin gedişatı ilə hər gün maraqlanır". Nazir müavini Dilqəm Əsgərov və Şahbaz Quliyevin qohumlarına da müraciət edərək onlar barədə lazım olmayan məlumatlar verməməyə çağırıb.

YENİ MÜSAVAT
N 187 (5896) 24 iyul 2014



# Fəlakət karuseli

Mahal İSMAYILOĞLU
mahal57@mail.ru

**Rüşvətxorluqla mübarizə görüntüsü yaratmaq üçün hərdən ali məktəb müəllimləri də həbs edilir, hansı təhsil ocağında korrupsiya üzə dirənirsə, kütləvi həddə qərarlaşırsa, o universitetin rektoru əvəzlənir... Amma ciddi dönüş yaranmır. Biz adi adamlar bütün bu olayları kənardan izləyirik, bütün hallarda hakimiyyətin, heç olmasa özünü reklam xatirinə, kütləviləşən rüşvətxorluğu yenə bilmədiyinin şahidi oluruq. Kimsə bunun fərqində deyil ki, belə talan lap aşağıdan yuxarıya qədər elə dövlətin öz əli ilə dəstəklənir. Özü az qala adət-ənənə halını alır...**

Hər bir azərbaycanlının təfəkküründə uşağın diplomu olması mütləq şərtə dönüb. Cehiz almaq, təmtəraqlı toy etmək kimi... Diplom da bir bəzək olub, bu bəzək həm də az qala atribut kimi qəbul olunub...

"Təki uşağın diplomu olsun... Sonrası asandır, fürsət düşsə iş də tapacaq..."

TQDK təhsil karuselini neçə illərdən bəri eyni ahənglə fırladır... Yerlər dolmayanda keçid balı aşağı salınır, kütləvi savadsızlıq beləcə rəsmi statusa sahib olur.

Ənənəvi qiymətləndirmə ilə yanaşsaq 600-dən 700-ə qədər olan bal "əla", 500-600 bal - "yaxşı", 400-500 bal - "kafi", 300-400 bal isə "qeyri-kafi" bölgüsünə uyğun gəlir. Təhsilin ödənişli və ödənişsiz bölgüsü də bu şərtlərə uyğun aparılır... 300-dən aşağı bal isə heç bir dəyərə uyğun gəlmir. Onda 200 balla ali məktəb tələbəsi olmağı hansı meyara aid edək...

Ən azından 20 ildir ki, beləcə davam edir, yerlər dolmayanda TQDK son çarə kimi bu addımı atır... Anlamaq olmur ki, bəyəm savadsızlıq, ən aşağı qiymətlə universitet tələbəsi olmaq da öhdəlikdirmi? Əgər bu yolla plan dolursa, onda kütləviləşən rüşvətin qarşısını almaq mümkün olacaqmı? Nədənsə, hər il 300-dən aşağı bal toplayıb, tələbə auditoriyasına daxil olanların ümumi kontingentin 35-40 faizini təşkil etdiyini unuduruq... Unuduruq ki, imtahanlarda savadsız olduğu təsdiqlənən on minlərlə abituriyent heç bir ciddi sınağa çəkilmədən beləcə diploma yiyələnir, sonra da bizim üçün yaşam şərtlərini diktə edir, müxtəlif vəzifələrdə çalışırlar...

Savadsız adamlar daha çevik olurlar, onlar cəmiyyətdəki boşluqlardan çox ustalıqla yararlanır, daha sürətlə karyera pillələrini aşırlar...

Təsəvvür edirsinizmi, indiyəcən nə qədər savadsız adama diplom verilib. Üst-üstə gəlsəniz, görəcəksiniz ki, son 20 ildə böyük bir dəstə diplomla cəmiyyətin canına daraşıblar. Ən azı indən sonra 30-40 il bizim həyatımızı onlar idarə edəcəklər, biz idarələrin, müəssisələrin qapısını açanda savadsız, amma iddialı məmurla üz-üzə qalacağıq...

Əgər bu qədər gənc biliyinin "qeyri-kafi" olduğu təsdiqlənəndən sonra tələbə auditoriyasına daxil olursa, onların fərqli meyarlarla "oxumağı", rüşvət qarşılığında qiymət alması yolunda hansısa bir maneə qalırmı? Kimsə onsuz da oxumaq istəməyən, ya da buna bir zərrə qədər də həvəsi olmayan kəsin rüşvət verən əlini geri qaytaracaqmı, qiymət qarşılığında pul təklif edən varsa, onsuz aldığı maaş taleyin istehzası olan alimin qazanc mənbəyi beləcə təmin olunmayacaqmı?

Anlamaq olmur ki, kütləvi savadsızlıq niyə başa çəkilir, onun mövcudluğu təmin edilir, qəbul planları dolur, sonda isə bunun əzabını bütün toplum çəkir...

"2" qiymət alan kəs 25-30 il əvvəl hansısa ali məktəbə qəbul ola bilərdimi? Axı test üsulu tətbiq olunanda öncə Sovet imperiyası üçün xarakterik olan rüşvətin qarşısını almaq, müəyyən məbləğ qarşısında diplom almağa son qoyulması hədəf götürülmüşdü... Bəs nədən ən aşağı həddə biliyə malik ola bilməyənlər belə asanlıqla diplom ala bilirlər? Biz niyə yağışdan çıxıb, yağmura düşdük?

Hansısa universitetdə bu yolla tələbə kontingenti formalaşırsa, sonra onun qarşısında yüksək pafoslu şərtlər, tələblər necə qoyulur? Bir tərəfdən kütləvi savadsızlıq dəstəklənir, digər tərəfdən isə cəmiyyətdə rüşvətə qarşı mifik savaş elan edilir...

Bu qədər "diplomlu mütəxəssisə" ehtiyac varmı? Onsuz da onların böyük əksəriyyəti gec-tez diplomlu fəhlə aqibəti ilə barışırlar. Kimlər vəzifə qazana bilirsə, onlar cəmiyyətdəki boşluqlardan ustalıqla yararlananlardır...

Təhsil karuseli fırlanır... Hər il on minlərlə savadsız adam diplomlu fəlakət kimi üstümüzə yeriyir... TQDK isə qəbul planını beləcə "doldurur"...

## Bağlanan tikinti şirkəti haqda yeni sensasion məlumatlar

# "Sevil" MTK-nın rəhbəri həbs olunub

### Minlərlə vətəndaşın milyonlarla pulunu mənimsəməkdə suçlanan "Sevil Massivi"nin rəhbəri Aynur Zeynalov gizli vəhhabi məscidi inşa etdirirmiş; bu qalmaqalda Abşeronun icra başçısı Zakir Fərəcovla Hökməli bələdiyyəsinin sədrinin adları da hallanır

**Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi "Sevil" MMC-nin rəhbəri Aynur Zeynalovun barəsində həbs-qətimkan tədbiri seçib. El arasında Hacı Aynur kimi tanınan bu şəxs külli miqdarda ziyan vurmaqla dələduzluq etməkdə ittiham olunur. Barəsində 3 aylıq həbs-qətimkan tədbiri seçilən A.Zeynalov hazırda Bakı İstintaq Təcridxanasında saxlanılır.**




Redaksiyamıza daxil olan məlumatda bildirilir ki, Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin "Sevil Massivi" MTK-da qəfil yoxlamalara Korrupsiyaya Qarşı Mübarizə Komissiyasından verilən tapşırıqla başlanıb.

Bu tapşırığın mübhəm səbəbi olub. Belə ki, dövlət orqanlarına "Sevil"in inşa etdirdiyi "Sevil Massivi Yaşayış Kompleksi"ndə vəhhabi təriqətindən olan şəxslərin toplaşması haqda məlumatlar daxil olub. Araşdırmalar zamanı bəlli olub ki, massivdə vəhhabilər nəinki çoxluq təşkil edir, hətta Aynur Zeynalov da bu təriqətin ardıcılıdır və ən əsası ərazidəki çoxmərtəbəli binaların olduğu ərazidə gizlin şəkildə vəhhabi məscidi inşa olunmağa başlayıb! Bu məsələ aydınlaşandan sonra "Sevil" MTK-da yoxlamalara "yaşıl işıq" yandırılıb. İlkin olaraq MTK-ya vergi yoxlaması göndərilib. Yoxlama zamanı bir çox yeyinti hallarının olması, bir torpağın bir neçə nəfərə satılması aktları ortaya çıxıb. Bu məlu - matlar araşdırılması üçün Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə göndərilib. Və əməliyyat planı hazırlanaraq MTK-da qəfil yoxlamalar başlanıb.

Qaynağımız deyib ki, həmin vaxt Türkiyədə istirahətdə olan "Sevil" MTK-nın rəhbəri Aynur Zeynalov Bakıya çağırılıb və hava limanında saxlanılaraq nəzarət altında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə aparılıb, orada ona ittiham elan olunaraq barəsində həbs-qətimkan tədbiri seçilib. Həmin gün saxlanılan digər şəxs Hökməli bələdiyyəsinin sədri Mirnemət Mirəziz oğlu Miradıyev olub. Bir qədər əvvəl "Tərəqqi" medalı ilə təltif olunmuş M.Miradıyev Vergilər Nazirliyinə çağırılıb. Heç nədən xəbəri olmayan bələdiyyə sədri Vergilər Nazirliyində sorğu-sual olunaraq Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə aparılıb. M.Miradıyevin bu məsələyə aidiyyəti isə "Sevil" MTK-ya Hökməli bələdiyyəsinin balansında olan hektarlarla torpaq sahəsini ayırması olub. Bundan başqa, M.Miradıyev ərazidə qanunsuz tikintilərin aparılmasını, xüsusən vəhhabi məscidinin tikilməsini himayə etməkdə suçlandırılıb. M.Miradıyev istintaqda dindirildiyi zaman Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov dövlət orqanlarına bələdiyyə sədrinin azad edilməsi üçün müraciətlər edib. Son nəticədə siyasi rəhbərliyi inandıra bilib ki, M.Miradıyevin vəhhabi təriqətinə aidiyyəti yoxdur, onun bu işə qol qoyması sadəcə tamahından irəli gəlib. Bundan sonra sinəsi "Tərəqqi" medallı bələdiyyə sədrini azad ediblər.




Aldığımız digər bir məlumata görə, "Sevil" MTK-nın saxlanılan mühasibləri, menecerləri, iş icraçılarına da ittiham elan ediləcəyi gözlənilir.

Qeyd edək ki, iyulun 21-də MTK-nın baş ofisindən və yaşayış massivindən reportaj hazırlamışdıq.

Həmin reportaj zamanı müxbirimiz yaşayış massivinin girişində post qoyulduğuna və içəri heç kimin buraxılmadığına şahidlik etmişdi.

Aldığımız son məlumatda yaşayış kompleksindəki vəhhabi məscidi binalar üçün ayrılmış meydançanın ərazisində olub. Binalardan yalnız ikisinin özülü tökülsə də, həmin məscid sürətlə tikilirmiş. A.Zeynalovun həbsi, işçilərinin saxlanılmasından sonra isə məscid gecə ilə sökülüb. Biz ərazidə olarkən tikinti meydançasında sökülmüş binanın qalıqlarının şahidi olmuşduq. Mühafizəçi həmin tikilinin "düzgün inşa edilmədiyinə görə" söküldüyünü deyib.

Belə görünür ki, hakimiyyət nümayəndələri vəhhabi təriqətindən olan qruplaşmanın nəzarətində, üstəlik, mühafizə olunan və gözdən iraq bir ərazidə məscid olmasına qarşıdır.

Maraqlı məqamlardan biri də budur ki, "Sevil" MTK-da məlum əməliyyat ərazinin qonşuluğunda yerləşən Müşfiqabad qəsəbəsindəki məsciddən vəhhabi icmasının qovulmasından az sonraya təsadüf edib.

"Sevil" MTK rəhbərinin vəhhabi təriqətinin nümayəndəsi olması, qanunsuz əməllərdə ittiham edilməsi minlərlə vətəndaşın ev almaq istəklərinin gerçəkləşməsini də əngəlləyəcək. Azından öhdəliklərinin yerinə yetirilməsi illər sonraya ertələnəcək. Bunu söyləməyə əsas verən isə acı praktikadır. "GEN" MMC-də baş verənlər buna misaldır. 7 il əvvəl güclü reklam kampaniyası hesabına vətəndaşları şirkətə cəlb edən "GEN" MMC rəhbəri Elbrus Əliyev nə az, nə çox, 12 milyon manat vəsait toplamışdı. Və sonda bir mənzili, üstəlik, olmayan mənzili bir neçə şəxsə satdığına görə 12 il müddətinə azadlıqdan məhrum edildi. 377 vətəndaş isə bu gün də dövlət qurumlarının qapısını döyməklə mənzillərini tələb edirlər.

Hazırda "Sevil Massivi"nin ofisinin giriş-çıxış qapıları bağlıdır. Qapılar üzərində "Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsi. Zərflər üçün" sözləri yazılan möhür vurulub.

Ən pisi odur ki, MMC-yə hələ də pul ödəmək üçün gedən müştərilər var. Və onlara ofisin müvəqqəti başlandığını deyirlər.

Baş Prokurorluğun mətbuat xidmətindən "Sevil" MMC-də baş verənlərlə bağlı hər hansı bir şərh verilmir.

Mövzunu davam etdirəcəyik.

***

### "Sevil" MTK yazılanlara reaksiya verdi

**"Sevil Massivi" MTK-nın ofisindən yazılanlarla bağlı "Yeni Müsavat"a elektron məktub daxil olub. Məktubda deyilir:**

""Sevil Massivi" MTK müştərilərə faizsiz kreditlə torpaq və mənzil əldə etmək imkanı yaradır. Azərbaycanda ilk inşaat sektoru kimi faizsiz kredit şərti ilə minimum qiymətlərlə mənzil və ya torpaq təklif edən yeganə şirkət olaraq təqdim etdiyimiz kommunikasiya xətləri *(qaz, su, işıq, kanalizasiya və telefon xətti)*, sənədləşmə ilə birlikdə müasir bir şəhərcik salırıq. Massivin yaşayış başladıqdan sonra tam infrastrukturla - məktəb, uşaq bağçası, poliklinika, aptek, ticarət mərkəzi ilə təmin olunması əhalinin ehtiyaclarını olduqca rahatlaşdıracaqdır. Müştərilərimiz əldə etdikləri mənzil və ya torpaq sahəsinə ödədikləri qiymətlərdən razıdır, bir çox müştəriyə tam sənədləşdirmə - çıxarış verilib.

Hazırda "Sevil Massivi"ndə Vergilər Nazirliyi tərəfindən yoxlamalar getdiyi üçün ofisdə və massivdə işlər bir müddətlik dayandırılıb. Qeyd etdiyimiz yoxlama bizim xeyrimizədir, düzgünlüyümüzün və şəffaflığımızın sübutudur. Sənədlərimizin yoxlamadan keçməsi zaman alır və bu zaman ərzində heç bir əsası olmadan yazılan xəbərlər yayan saytlar öz xeyirlərinə əhalinin təşvişə düşməsindən sanki razı qalan insanlardır. Tezliklə ofisimiz fəaliyyət göstərəcək və müştərilər əvvəlki kimi ödənişlərini edə biləcəklər. Əhalinin təşvişə düşməsi üçün heç bir səbəb yoxdur. Məlumat üçün bildiririk ki, Aynur Zeynalov respublikadadır, yazılan xəbərlər tamamilə yanlışdır. Menecer, mühasib və ya hər hansı bir işçimizin tutulması xəbərinin heç bir əsası yoxdur, ofisdə iş başlandıqdan sonra hər kəs əvvəlki kimi işinin başında olacaqdır. Və sonda əhalini bu cür narahat edən xəbərlərə qarşılıq olaraq "Sevil Massivi" MTK olaraq ofisimizin yaxın müddətdə fəaliyyət göstərəcəyini bir daha təsdiq edirik.

**"Sevil Massivi" MTK-nın müdiriyyəti"**

❑ Elşən MƏMMƏDƏLİYEV

**Politoloq Hikmət Hacızadənin xalq şairi Səməd Vurğunun ünvanına səsləndirdiyi tənqid və təhqirlər ciddi qalmaqal yaradıb. S.Vurğunun ünvanına işlətdiyi "səviyyəsiz şair" ifadəsi birmənalıq qarşılanmadı. Mətbuata açıqlama verən bir neçə tanınmış yazıçı, şair, publisist H.Hacızadəni bu sözlərinə görə qınadı.**

# Səməd Vurğunu söyən politoloqa sərt cavablar

## Tural Ağatlı: "Hikmət Hacızadə kimi danışığını bilməyən birisindən bunu gözləmək lazımdı"

**İyulun 22-də Hikmət Hacızadə S.Vurğuna görə tənqid olunmasına münasibət bildirib. Musavat.com-a göndərdiyi yazılı açıqlamada o, S.Vurğun haqda növbəti dəfə təhqiramiz ifadələr işlədib:** "Üç gündür internetim işləmirdi, indi görürəm mediada əməlli-başlı stalinsayağı kampaniya başlayıb - Səmədi və sovet poeziyasını məndən müdafiə edirlər. Naftalin iyi verən adamları yığıb mənə söydürürlər. Xalqın beynini sovet vaxtından elə yuyublar ki, indiyə qədər Stalin-Səməd-Nərimanov... deyə-dəyə qalıb. "Hikmət Hacızadənin məqsədi var!" Bəli, məqsədim var! Məqsədim odur ki, Səməd kimi adamlar Azərbaycanda yetişməsin. Səməd gənclərimiz üçün nümunə olmasın. Məddahlıqla, satqınlıqla heç kim ailə saxlamasın. Kəpəzə çıxıb Göygölə baxıb kabab yeməkdənsə, bəxtsiz ana vətənimizə baxıb düşünsün".

H.Hacızadənin S.Vurğuna qarşı bu cür mövqeyi ilə bağlı yenidən bir neçə tanınmış şəxsin mövqeyini öyrəndik.

**Telejurnalist İlhamiyyə Rza Səməd Vurğun barədə deyilən fikirlər onun ruhuna hörmətsizlik kimi qiymətləndirdiyini dedi:** "Səməd Vurğun minlərlə insanın oxuduğu və sevdiyi bir müəllifdir. Onun haqqında bu qədər asanlıqla, rahat bir şəkildə "səviyyəsiz" və yaxud bunun kimi digər sayğısız ifadələr işlədilməsinin əleyhinəyəm. Bu özü həyatda olmayan və buna görə də ünvanına deyilən ittihamlara cavab verə bilməyəcək bir insanın ruhuna və onu sevənlərin duyğularına qarşı edilən hörmətsizlikdir. Bu başqa məsələ ki, ideoloji ədəbiyyat nümunələri və müəlliflər zamanın süzgəcindən keçirilərək, təftiş edilməli və bütün faktorlar nəzərə alınmaqla şərh edilməlidir. Həm də bunu Hikmət Hacızadə, Sərdar Cəlaloğlu, nə də İlhamiyyə Rza etməlidir. Bu, ədəbi tənqidin öhdəsinə düşən bir məsələdir ki, o da bizdə yoxdur. Təəssüf ki, söhbət qərəzsiz, obyektiv, ədəbi elmi meyarlara söykənən peşəkar tənqidçilikdən gedir. Səməd Vurğun kommunist ideologiyasına səmimi olaraq xidmət edən bir şair olub. Onun həmin ideologiyanı tərənnüm edən əsərləri o qədər səmimidir ki, bütün şübhələri yox edir. Bəy nəslindən olsa da, çox kasıb bir ailənin yetirməsi olan Səməd Vurğun ən azı sosialist inqilabının ona, kasıb bir şairə yaratdığı imkanlara görə bu quruluşa minnətdar olmaya bilməzdi. Mən ümumiyyətlə yaxın tariximizin birmənalı şəkildə inkar edilməsinin əleyhinəyəm. Sovet dönəminin bu xalqa verdiyi töhfələri unutmaq olmaz. İstər ədəbiyyatda, istət incəsənətdə, təsviri sənətdə və digər sahələrdə yaradılmış monumental sənət əsərləri var ki, 20 illik müstəqillik dövrümüzdə onların yanından yel olub ötə bilən bir yaradıcılıq nümunəsi belə yaranmayıb. Və nə qədər ki, bu baş verməyib, İsa Hüseynovun "Ulduzlar sönmür", Səmədin "Komsomol" poemasından güclü bir əsər yaranmayıb, sovet müəlliflərini inkar etmək haqqımız yoxdur. Tənqid etmək olar, inkarsa, yox. Özü də bunu edən şəxslər tənqidlə təhqiri ayıra bilən adamlar olmalıdır. Ümumiyyətlə, bizdə çoxluğun dəyərinə çevrilmiş adamları, məfhumları *(inancları)* söymək təəssüf ki, bir dəbə çevrilib, çünki belə addımlar dərhal diskussiyaya səbəb olur... Bundan əlavə, Səməd Vurğunun ədəbi dilimizin yaranması və formalaşmasında müstəsna rolu var.

**İlhamiyyə Rza Hikmət Hacızadənin onun əleyhinə danışanları naftalin adlandırmasına da münasibət bildirdi:** "Bildiyimə görə, Hikmət bəy rusdillidir, bəlkə Səmədi heç orijinaldan oxumayıb, oxuyubsa dilin gözəlliyini hiss etməyib. Mən özüm Hikmət bəyin "Demokratiya: gediləsi uzun bir yol" kitabını bir neçə dəfə oxumağa cəhd etdim. Amma etiraf edim ki, dilinə görə başa çatdıra bilmədim. Hansısa bir dildən edilmiş uğursuz tərcüməyə daha çox oxşayırdı. Sanki müəllif bunu ya ingilis, ya da rus dilində yazıb, sonra da özü tərcümə edib. Çox güman ki, elə belə imiş. Odur ki, ədəbi dilimizin bugünkü gözəlliyində xidməti olan insanları unutmaq yox, onların bizə miras qoyduğu ədəbi dilimizdən faydalanmalı, öyrənməli və bu insanları minnətdarlıq hissi ilə yad etməliyik. İstər Səməd Vurğun olsun, istər Mirzə İbrahimov, istərsə də Sabir Əhmədli ... Mən başa düşürəm ki, Hikmət bəy antisovet mövqeli bir insandır. Amma bədii yaradıcılıq siyasət deyil ki, ona siyasi meyarlarla qiymət verilsin. O zaman Nazim Hikməti də kommunist olduğuna görə Türkiyə ədəbiyyatından silək getsin. Nazim dünya ədəbiyyatının parlaq simasıdır, nəinki türk, ya sovet... Sonda demək istəyirəm ki, söylədiyin fikirlərin mübahisə doğuracağını bilərək, qabaqcadan əks fikir söyləyəcək insanları naftalin adlandırmaq, yumşaq desək, qabaqdan gəlmişlikdir. Amma olsun, mən dəyərlərimizi güvələrə yedirməmək naminə naftalin olmağa hazıram".

**"Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı Səməd Vurğunu milli şair adlandıraraq, bu cür ifadələrin onun barəsində işlədilməsinin yolverilməz olduğunu söylədi:** "Səməd Vurğun milli şairdir. Hikmət Hacızadə milli azadlıq hərəkatında yeri, əvəzsiz xidmətləri olan insandır. Çox təəssüf edirəm ki, dilində hələ də rus sözlərini işlədən Hikmət Hacızadə Vurğun haqqında belə cılız fikirlər səsləndirir. Bunu Hikmət bəyə heç cür bağışlaya bilmirəm. Bilirəm ki, o, intellektual adamdır. Onun Azərbaycan dilində bilik səviyyəsinin nə dərəcədə yüksək olduğunu bilmirəm. Vurğun Azərbaycan şeiriyyətinin baş komandanıdır. Poeziyamızda məxsusi yeri olan adamdır. Onun yaradıcılığına fikir versək, görərik ki, dilimizin formalaşmasında əvəzsiz xidmətləri var. Əsərlərində 5 min Azərbaycan sözündən istifadə edib. Yaradıcılığında bu qədər dilimizin sözlərindən istifadə edən ikinci bir insan yoxdur. Təəssüf edirəm ki, Səməd Vurğun başda olmaqla, sovet dövründə yaşayıb yaratmış insanlara qarşı bu cür aqressiv münasibət var. Vurğun Azərbaycanı canı qədər sevən bir insan olub. O, bəşəri, fəlsəfi şairdir".



**İlhamiyyə Rza: "Mən dəyərlərimizi güvələrə yedirməmək naminə naftalin olmağa hazıram"**



**Akif Aşırlı: "Hikmət Hacızadə səviyyəsinin nə qədər aşağı olduğunu göstərdi"**

**A.Aşırlı səsləndirilən bu cür fikirlərin insanların təfəkkür səviyyəsinin aşağı olmasından irəli gəldiyini də qeyd etdi:** "Səməd Vurğun haqqında belə ifadələrin işlədilməsi təfəkkür səviyyəsinin aşağı olmasından, onun yaradıcılığı ilə yaxından tanış olmamaqdan irəli gəlir. Vurğunu qəbul etməmək də normaldır. Amma onun haqqında səviyyəsiz ifadəsini işlədən insanın cəmiyyətdə səviyyəsinə qarşı şübhə yaranır. Bununla Hikmət Hacızadə səviyyəsinin nə qədər aşağı olduğunu göstərdi. Gənclərin də bu barədə yazıları var. Onları haradasa başa düşmək olar. Bu fikirlər hər hansı bir qurumdan, mərkəzdən qaynaqlanır. Cəmiyyətin bu qədər problemi olan zamanda belə diskussiyalara yol açmağa gərək yoxdur. Hikmət Hacızadə kimi siyasətdə rolu olan bir insanın bu cür məsələləri anlamamasını başa düşə bilmirəm".

**Araşdırmaçı jurnalist Tural Ağatlı Hikmət Hacızadə kimi danışığını bilməyən insanın dilindən belə ifadələrin çıxmasına təəccüblənmədiyini bildirdi:** "Doğrusu, indi klassik yazarlarımızı tənqid atəşinə tutmaq biriləri üçün *(xüsusilə gənclər üçün)* qısa müddətdə tanınmaq üslubuna çevrilib. Lakin Hikmət Hacızadə kimi tanınmağa ehtiyacı olmayan *(bəlkə də yanılıram)* bir şəxs üçün bu cür üsluba əl atılması anlaşılan deyil. Lakin mən yenə də təəccüblənmirəm. Çünki bir mətbuat təmsilçisi olaraq, bu şəxsin ritorikasına, danışıq üslubuna, jarqonuna az-çox bələdəm. Və ondan normal danışıq tərzi, qeyri-etik ifadələrdən istifadə etmədən fikrini çatdıra bilmək mədəniyyəti gözləmək də jurnalistlərə təəccüblü gələ bilər. Azərbaycan xalqının məbədi səviyyəsinə qalxa bilən nəhəng bir söz adamına "səviyyəsiz" kimi ifadələri yaraşdırmaq da sadəcə Hacızadə kimi "səviyyəli" üslub sahiblərinə uyğun gələr. Digər tərəfdən, bunlar niyə gedib siyasətləri ilə *(əgər varsa...)* məşğul olmurlar? Sosial şəbəkədə özləri düşüncədə biriləri ilə söyüşmək, ucuz küçə jarqonları ilə mübarizə aparmaq bunların əxlaq göstəricisidirmi? 21-ci əsrdə qrantlara satılmaq, 20-ci əsrin repressiya illərində "Azərbaycan" şeirini yazmaqdan çoxmu ləyaqətlidir? Və... ona deyin, içi rahat olsun, həqiqətən Azərbaycan xalqı bir daha Səməd Vurğun yetişdirməyəcək".

**Cavanşir ABBASLI**

# 10 rayonda uşaqlar üçün qayğı mərkəzləri yaradılıb

**Bu ilin ilk yarımilində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) tərəfindən xüsusi qayğıya ehtiyac duyan uşaqlara sosial xidmətlərin göstərilməsi üzrə elan edilmiş müsabiqələrdə qalib gələn 13 ixtisaslaşmış QHT ilə müqavilələr imzalanıb.**



Nazirlikdən "APA-Economics"ə verilən məlumata görə, müqavilələrə uyğun olaraq, həmin QHT-lər tərəfindən icra edilən layihələr çərçivəsində 10 rayonda (Lənkəran, Yardımlı, Ağsu, Tovuz, Astara, Beyləqan, Yevlax, Qax, Ağcabədi, Qazax) hər biri 30 nəfər uşağa sosial xidmət göstərən günərzi qayğı mərkəzləri yaradılıb. Bu, ötən ilin müvafiq dövrünə nisbətən 25% çoxdur.

Layihələr üzrə həmçinin 4 rayon üzrə 7 yaşınadək 100 nəfər uşaq Portec metodikası ilə sosial reabilitasiya xidmətinə cəlb olunub, sosial təhlükəli vəziyyətdə olan kimsəsiz uşaqların (küçə uşaqları) sosial reabilitasiyası məqsədilə il ərzində 350-500 uşağa xidmət göstərən sığınacaq yaradılıb. Eyni zamanda 50 nəfər daun sindromlu uşağa xidmət göstərən reabilitasiya mərkəzi, 50 nəfər lal-kar və zəif eşitmə qabiliyyəti olan uşağa xidmət göstərən surdoloji mərkəz, 50 nəfər əqli geriliyi olan uşağa xidmət göstərən psixo-sosial dəstək mərkəzi, 2 rayonda 100 nəfər sağlamlıq imkanları məhdud uşaq üçün reabilitasiya mərkəzi, görmə qabiliyyəti zəif olan uşaqlar üçün informasiya mərkəzləri fəaliyyətə başlayıb. Ötən il icra edilməyən layihə işə salınaraq Bakı şəhərində 50 nəfər uşağa sosial xidmət göstərən 2 autizm mərkəzi yaradılıb.

Layihələr çərçivəsində sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi proqramlarla idman, incəsənət və xalq sənət növlərinin öyrədilməsinə yardım göstərən mərkəz də açılıb. Həmçinin 117 nəfər sağlamlıq imkanları məhdud uşaq valideynləri ilə birlikdə ölkə xaricində reabilitasiya kursu keçib. Belə uşaqlara və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlara qarşı ictimaiyyətin diqqətinin artırılması üçün təbliğat kampaniyaları təşkil olunub. Sosial sifarişləri icra edən təşkilatların müstəqil monitorinqinin aparılması üçün də ayrıca layihə icra edilir.

## Beynəlxalq Təhsil Mərkəzi

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

< *Kiyev Dövlət Texniki Universiteti*
< *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
< *Kremençuk Dövlət Universiteti*
< *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
< *Kiyev Dövlət Dəniz Akademiyası*
< *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
< *Tbilisi Dövlət Tibb Universiteti*
< *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
< *Minsk Dövlət Universiteti*
< *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
< *Qrodno Dövlət Universiteti*
< *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
< *Volqoqrad Dövlət Aqrar Universiteti.*
< *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A Nərimanov m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

### Elan

**Bakının Türkan qəsəbəsində dənizdən 600-700 metr aralı, sahəsi 20 sot olan bag satılır. Bağın orderi, 82 metr dərinlikdən çıxan şirin suyu, hasar və darvazası, meyvə agacları, 1 otaq və mətbəxdən ibarət kiçik tikilisi var. Qaz və telefon xətti yaxınlıqdan keçir. Qiyməti razılaşma yolu ilə.**

**Əlaqə tel: 070-611-64-15**

## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

## Məhkəmə xalq artistini cəriməlşədi

### Nazpəri Dostəliyeva İlhamə Quliyevaya 25 min manat ödəməlidir



**Ali Məhkəmədə xalq artisti Nazpəri Dostəliyevanın xalq artisti İlhamə Quliyevaya qarşı kasasiya şikayətinə baxılıb. N. Dostəliyevanın vəkili Yunis Vəliyevin APA-ya verdiyi məlumata görə, hakim Qəhrəman Allahverdiyevin sədrlik etdiyi prosesdə qərar elan edilib. Qərara əsasən, N. Dostəliyeva İ. Quliyevaya 25 min manat təzminat ödəməlidir.**

Qeyd edək ki, İ. Quliyeva N. Dostəliyevaya qarşı iddia ərizəsi ilə Nəsimi Rayon Məhkəməsinə müraciət edib. İddiada İ. Quliyeva N. Dostəliyeva tərəfindən şərəf və ləyaqətinin alçaldıldığını, işgüzar nüfuzuna zərər vurulduğunu bildirib. İddiaçı cavabdehdən maddi zərərə görə 200 min, mənəvi zərərə gör 500 min manat tələb edib. Lakin məhkəmə iddianı qismən təmin edərək N. Dostəliyevanın 50 min manat cərimə olunması barədə qərar çıxarıb. Həmin qərarla razılaşmayan N. Dostəliyeva isə apelyasiya şikayəti verib. Bakı Apelyasiya Məhkəməsi şikayəti təmin etməyib. Həmin qərardan N. Dostəliyevanın vəkili kasasiya şikayəti verib.

Nazpəri Dostəliyeva Ali Məhkəmənin qərarına münasibət bildirib.

"Qafqazinfo"nun məlumatına görə, xalq artisti yenidən məhkəməyə müraciət edəcəyini qeyd edib:

"Yekun nəticənin yaxşı olacağına inanıram. Qərar hələ tam açıqlanmayıb. Əlimdə faktlar, sübutlar var. Başqa instansiyalara da müraciət olunacaq. İnanıram ki, həqiqət qalib gələcək. Bu, son deyil".

Xalq artistinin vəkili Yunis Vəliyev isə açıqlamasında bildirib ki, məhkəmə qərarı onlara təqdim olunmayıb:

"Azərbaycan Respublikası Ali Məhkəməsində Bakı Apelyasiya Məhkəməsinin qərarına verdiyimiz kasasiya şikayətinə baxılıb. Şikayətimiz qismən təmin edildi. Cərimə məbləği 25 min manat müəyyən edilib. Onların istəyi 500 min manat idi, məhkəməyə hakim Qəhrəman Allahverdiyev sədrlik edirdi. Ali Məhkəmənin qərarı bizə təqdim edilmədiyi üçün təəssüf ki, ətraflı məlumat verə bilmirik. Qərar təqdim olunan kimi detallar açıqlanacaq".

Qeyd edək ki, məhkəmənin qərarına əsasən Dostəliyeva İlhamə Quliyevaya 25 min manat ödəməli və eyni zamanda ondan üzr istəməlidir.

bakcell

## "Mançester Yunayted" yay futbol məktəbinin qalibləri "Old Traffordda"




**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkətinin AFFA ilə birlikdə həyata keçirdiyi "Mançester Yunayted" Yay Futbol Məktəbinin builki 32 iştirakçısı arasından seçilən 5 nəfər Mançester şəhərindəki Denston kollecində "Mançester Yunayted" Yay Futbol Məktəbində təlim keçirlər. AFFA-nın Elit Məşq layihəsinin koordinatoru İlham Əzizzadə və ""Futbol "Bakcell" ilə" layihəsinin koordinatoru Kamal Tağızadənin müşayiəti ilə İngiltərəyə yola düşən Əli Abbasov, Duraxan Dövlətxanov, Zərrər Məmmədov, Ramin Nəsirli və Vəliəhd Səmədov digər ölkələrdən olan digər uşaqlar ilə birlikdə təlim- məşq toplanışlarında müxtəlif biliklərə yiyələnirlər.**

**Xatırladaq ki, ötən il Mançesterdə olan azərbaycanlı iştirakçılardan biri - Tamerlan Rizvanov xüsusi nəticə nümayiş etdirərək "Mançester Yunayted" Yay Futbol Məktəblərinin "World Skills" finalına qədər yüksəlmişdi.**

**Qeyd etmək lazımdır ki, dünyanın ən məşhur futbol akademiyalarından biri olan "Mançester**

**Futbol Məktəbi" dünya futboluna Devid Bekxem, Pol Skoulz və Rayan Qiqz kimi əfsanələribəxş edib.**

**Azərbaycanın futbol üzrə milli komandalarının sponsoru və "Mançester Yunayted" futbol klubunun MDB məkanında ilk telekommunikasiya və yayım partnyoru olan "Bakcell" ölkəmizdə futbolun inkişafını dəstəkləyir. "Bakcell" inanır ki, Azərbaycanda böyük futbol potensialı var və bu potensial ölkə futbolunu irəliyə aparmağa qadirdir.**

## Siyəzən rayon sürücülük məktəbinin direktoru həbs edildi

**Siyəzən rayon sürücülük məktəbinin direktoru rüşvət aldığına görə həbs edilib. Baş Prokurorluğun mətbuat xidmətindən APA-ya verilən məlumata görə, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin "Hərbi vətənpərvərlik və mütəxəssis hazırlığı mərkəzi" MMC-nin Siyəzən rayon sürücülük məktəbinin direktorunun qanunsuz əməlləri barədə 161 "Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciət Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.**

Araşdırmalar zamanı sürücülük məktəbinin direktoru Tahir Qüvvətovun rayon sakinindən həmin məktəbə sürücü vəzifəsinə işə qəbul etmək üçün 1.000 manat məbləğində rüşvət almasında şübhələr üçün əsaslar olduğundan başlanmış cinayət işi üzrə ona Cinayət Məcəlləsinin 311.1-ci (rüşvət alma) maddəsində nəzərdə tutulan ittiham elan edilməklə barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

Hazırda iş üzrə istintaq tədbirləri davam etdirilir.

## Rusiyada azərbaycanlılar bir-birini armaturla döydülər, sonra güllələdilər

**Rusiyanın Buryatiya muxtar bölgəsinin inzibati paytaxtı Ulan-Ude şəhərində azərbaycanlılar arasında qanlı qarşıdurma baş verib. Virtualaz.org saytı Rusiya mənbələrinə istinadla xəbər verir ki, iyulun 23-nə keçən gecə iki azərbaycanlı işdən yaşadıqları evə qayıdarkən çoxmərtəbəli binanın küncündən qəfil çıxan 3 nəfər maskalı şəxs onlara hücum edib. Hücum edənlər azərbaycanlılar armaturlarla döyməyə başlayıblar. Əlbəyaxa davaya çevrilən qarşıdurma zamanı hücuma məruz qalanlardan biri hücum edənlərdən birinin maskasını çıxara bilib. Bu zaman məlum olub ki, maskalı həmin azərbaycanlının yerlisi və tanışıdır.**

Bundan sonra hücum edənlərdən biri silah çəkib və tapançadan azərbaycanlılara iki dəfə atəş açıb. Güllələrdən biri azərbaycanlılardan birinin düz ürəyindən dəyib və o, dərhal keçinib. İkinci azərbaycanlı isə yaralanıb. Hücum edənlər qaçaraq hadisə yerindən uzaqlaşıblar. Qanlı qarşıdurma çoxmərtəbəli binanın sakinlərinin və küçədən keçənlərin gözləri qarşısında baş verib. Hadisə yerinə çoxsayılı polis naryadı, təcili yardım maşınları çağrılıb.

Həlak olan şəxsin 30 yaşlarında olduğu, hazırda şəxsiyyətinin dəqiqləşdirildiyi bidirilir. Yaralı azərbaycanlı isə rus dilində yaxşı anlamır və hazırda onun dindirilməsi, hadisə barədə ifadəsinin tərcüməçi vasitəsilə alınması üçün tədbir görülür. Buryatiya DİN-in bu gün verdiyi açıqlama ilə bağlı hadisəyə görə Rusiya vətəndaşı olan üç nəfər saxlanılıb və onların barəsində zəruri sübutlar toplanır.

## Gənclər arasında kütləvi dava: 4 nəfər həbs edildi

**Bakı Şəhər Baş Polis İdarəsi Xaqani bağında baş vermiş kütləvi dava ilə bağlı məlumat yayıb. Lent.az-ın məlumatına görə, bildirilir ki, iyulun 22-si saat 05:35 radələrində, R.Rza küçəsində yerləşən Xaqani bağının yaxınlığında Bakı şəhər sakini, 1989-cu il təvəllüdlü Şahin Quliyev 4 bıçaq yarası ilə Kliniki Tibbi Mərkəzə yerləşdirilib. DİN BDYPİ və Səbayel RPİ 39-cu PB əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində cinayətdə şübhəli bilinən Şirvan şəhər sakinləri, 1991-ci il təvəllüdlü Kərim Kərimov, 1992-ci il təvəllüdlü Əli Süleymanov, 1993-cü il təvəllüdlü Fuad Əliyev və 1995-ci il təvəllüdlü İlham Sadıyev tutulub.**

Faktla bağlı cinayət işi açılıb, araşdırmalar aparılır.

## Pakistanda ölən azərbaycanlı qadının kimliyi bilindi

**Pakistanda vəfat edən azərbaycanlı qadının şəxsiyyəti bəlli olub. Bu barədə məlumatı ANS PRESS-ə Azərbaycanın Pakistandakı fövqəladə və səlahiyyətli səfiri Daşqın Şikarov verib.**

Bu, Bibixanım Ağayevadır.

Məlumata görə, qadın şəkər xəstəsi olub. "Mərhumənin cənazəsi Pakistan xəstəxanasında müayinə olunub. Həkimlərin verdiyi rəyə əsasən onun şəkəri qalxıb və bu səbəbdən də keçinib".

Səfirin sözlərinə görə, B.Ağayevanın cənazəsi dünən Bakıya yola salınıb.

Qeyd edək ki, azərbaycanlı qadının cəsədi Kəraçidəki «Saddar» hotelində aşkar edilib. O, iyulun 17-də biznes məqsədilə Azərbaycandan Kəraçiyə uçub və iyulun 23-də geriyə qayıtmaq üçün bilet alıb.

Ağayeva Bibixanımın ölümü barədə məlumatı polisə hotel meneceri verib. Otaq xidməti onun qaldığı otağa daxil olanda qadının cəsədi ilə qarşılaşıb.



YENİ MÜSAVAT
N 187 (5896) 24 iyul 2014

# 3 ton qaçaq heroinin Azərbaycan izləri - yeni bilgilər

**Gürcüstan Daxili İşlər Nazirliyinin saxladığı 2 ton 790 kiloqram heroinlə bağlı yaydığı rəsmi məlumatla kifayətlənib. İyulun 11-də baş tutan əməliyyatdan 4 gün sonra "Yeni Müsavat" məsələ ilə bağlı Gürcüstan Daxili İşlər Nazirliyinə informasiya sorğusu ilə müraciət edib. Həmin sorğuda Gürcüstan DİN-dən aşağıdakı suallara aydınlıq gətirilməsi xahiş olunub:**

## Bakıdakı iranlı iş adamına dair şok iddialar; böyük miqdarda heroinin Azərbaycanda saflaşdırılması iddiası var; Gürcüstan DİN "Yeni Müsavat"ın heroin əməliyyatı haqda sorğusunu qəbul edib

- Gürcüstan Daxili İşlər Nazirliyi məsələ ilə bağlı Azərbaycan hökumətinə, hüquq mühafizə orqanlarına müraciət edibmi?

- Narkotranziti həyata keçirənlərin vətəndaşlığı məlumdurmu?

- Yükün sahibi kimdir?

- Yük hansı adla rəsmiləşdirilib?

- Azərbaycan ərazisində yükün tranzitlə keçməsini kim təşkil edib?

- Narkotrafikin arxasında dayanan şəxs və ya şəxslər müəyyən olunubmu?

Gürcüstan DİN sorğumuzun alınmasını təsdiqləyib və cavabda müvafiq şöbənin sorğunu cavablandırılacağı qeyd olunub.

Lakin bu günə qədər sorğumuz cavabsız qalıb.

"Azadlıq" qəzeti Gürcüstandakı mənbəyə istinadla yazır ki, külli miqdarda heroinin saxlanması transmilli cinayətkarlıqla mübarizə çərçivəsində baş tutan bir əməliyyatdır. Həmin narkotik yükün Əfqanıstandan gətirildiyi və Azərbaycanda hansısa ikinci emal prosesi keçdiyi ehtimalı araşdırılır. Qəzetin istinad etdiyi mənbə qeyd edib ki, bu işin araşdırılmasında regionda təhlükəsizliyə maraqlı olan bir çox dövlətlərin birgə əməliyyat-araşdırma qrupu iştirak edir. "Bizim Yol" qəzetinə danışan Gürcüstanın "Azad zona" İctimai Birliyinin İdarə Heyətinin sədri Gela Vasadze anti - heroin əməliyyatından sonra Gürcüstan DİN-in susqunluq nümayiş etdirməsinin başa düşülmədiyini vurğulayıb:

"Gürcüstan DİN elan edir ki, iri həcmli narkotik partiyası tutulub. Bu fakt mətbuat vasitəsilə geniş işıqlandırılır, amma birdən-birə məlumatların arası kəsilir. Bəzi saytlar yazır ki, bu, Azərbaycan və Gürcüstan hüquq-mühafizə orqanlarının birgə əməliyyatı idi. Elə bu məsələ də anlaşılmaz olaraq qalır. Əgər bu əməliyyat birgə keçirilmişdisə, onda Azərbaycan Daxili İşlər Nazirliyinin bəyanatı da olmalı idi. Belə bir bəyanat isə bildiyimiz kimi, mövcud deyil. Özünüz düşünün: deyilənə görə, bu əməliyyat Gürcüstan hüquq-mühafizə orqanlarının tarixində həcminə görə yeganə əməliyyat olub".

**Heroinin təyinat ölkəsi haqda ehtimalını istefada olan polkovnik, Orta Asiya Narkosiyasət Mərkəzinin direktoru Aleksandr Zeliçenko belə əsaslandırır:** "Maraqlıdır, görəsən, tutulan heroinin tərkibində ratsemetorfanın (metorfan) həcmi nə qədər idi? Demək olar ki, heroin partiyasının tutulmasından danışan insanlar məhlulun tərkibində məhz bu narkotikin varlığından danışırdılar. Kimyaçı ekspertlər anlaya bilmirlər ki, niyə mal yiyələri narkotik məhlulu məhz əlavə narkotiklə qüvvətləndiriblər? Belə bir partiyanın hazırlanması asandır: suda həll edilmiş heroin iysiz, dadsızdır, heç bir şübhə yaratmır, odur ki, daşınması da asan olur. Məncə, bu məsələnin bir izahı var: narkotikləri Avropaya aparırlarmış. Orada isə keyfiyyətsiz malı ayırd edə bilirlər. Odur ki, tədarükçü məhlula əlavə qüvvətləndirici narkotik qatıb".



**"Qruzinform" İnformasiya-Analitik Agentliyinin baş redaktoru Arno Xidibeqişvili isə "Yeni Müsavat"ın əməliyyatın Azərbaycan-Gürcüstan güc strukturları ilə birgə keçirilməsi barədə yaydığı məlumatlara inandığını bildirib. Baş redaktora görə, belə iri partiyaları təsadüfən aşkar etmirlər:** "Ola bilər hələ ki araşdırma aparılır və istintaqın gedişinə mane olmamaq üçün tərəflər bir müddət susmaq barədə razılığa gəliblər. Ola bilər ki, narkotik alverçilərinin tərkibinə Azərbaycandan gizli agent yeridilib və onun aşkar olunmasını istəmirlər".

O ki qaldı narkotiklərin Gürcüstana Ermənistan ərazisindən keçirilməsi barədə yayılan xəbərlərə, baş redaktor bunu texniki xəta hesab edir. Elə bunu mətbuata izahatında Nino Giorqobiani *(Gürcüstan DİN-in mətbuat xidmətinin rəhbəri-E.M.)* də belə izah eləmişdi. İlk olaraq xəbər Vergilər Departamentinin əməkdaşı tərəfindən ingilis dilində hazırlanarkən, Azərbaycan yerinə səhvən Ermənistan yazılıb. Və bu məsələ Gürcüstan mediası tərəfindən sürətlə yayılıb. Təbii ki, rusdilli mətbuat da bunu gürcü mətbuatından səhv variantda götürüb.

**Ümumiyyətlə, Arno Xidirbeqişvilinin sözlərinə görə, hakimiyyət dəyişikliyindən sonra Gürcüstanda narkotiklərin qanunsuz dövriyyəsinə qarşı əməlli-başlı iş aparılır:** "Elə gün olmur ki, güc strukturları hansısa miqdarda narkotik aşkarlamasınlar. Narkotrafiklə mübarizə çərçivəsində bir müddət əvvəl Acarıstanda içində 120 kiloqram narkotik maddə olan yük maşınının saxlanılmasını da qeyd etmək olar. Məlumdur ki, aparılan mübarizəyə baxmayaraq, çoxdan yaradılmış narkokanallar hələ də fəaliyyətdədir. Gürcüstandan Avropaya və Rusiyaya yenə də narkotik karvanları gedir. Maraqlıdır, görəsən, narkodillerlər Saakaşvili hakimiyyətinin simasında özlərinə himayədar tapmayıblar ki? Məlumdur ki, Saakaşvili hakimiyyəti narkotrafikdən yaxşı qazanc əldə edirdi. Bu pulları Mişiko *(Mixail Saakaşvili nəzərdə tutulur)* həm özünün, həm də lideri olduğu o zamankı hakimiyyət partiyasının güclənməsi üçün istifadə edə bilərdi".

Xatırladaq ki, Azərbaycanın hüquq-mühafizə, gömrük və sərhəd xidməti orqanları maye halında olan, 93 ədəd 30 litrlik çəlləyə doldurulmuş heroinin sərhəddən necə keçdiyinə hələ də aydınlıq gətirməyib. Gürcüstan daxili işlər nazirinin açıqlamasından məlum olur ki, "qara bazar"da dəyəri təxminən 170 milyon dollar olan əfqan mənşəli heroinin ələ keçirilməsi üçün qurulan əməliyyat planında Azərbaycan da iştirak edib və narkotik maddə sərhəddən məhz bu əməliyyat planı çərçivəsində, yəni məqsədli və planlı şəkildə buraxılıb.

"Yeni Müsavat" bu mövzuda əlavə və özəl bilgilərə də sahibdir. Araşdırma getdiyi üçün hələlik onlardan yalnız bir qismini açıqlayaq. Diplomatik qaynaqlardan "Yeni Müsavat"a bildiriblər ki, əslində 3 tona yaxın rekord həcmdə narkotikin saxlanması beynəlxalq əməliyyatdır.

**Narkomal Gürcüstan marşrutu iləTürkiyəyə, oradan da Avropaya çıxmalı idi. Əməliyyatı Amerika həyata keçirib. Gürcüstan da təsadüfən seçilməyib:** "Gürcüstan Respublikası Saakaşvili iqtidardan gedəndən sonra beynəlxalq narkomafiyanın zəif həlqəsinə çevrilib. Hazırda bu ölkəyə ABŞ xüsusi xidmətləri tam kontrol edə bilirlər. Digər bütün ölkələrdə, o cümlədən də İran, Azərbaycan, Türkiyədə narkomafiya təminatlı ələqələrə malikdir. Narkotik partiyalarının daşınmasına isə Azərbaycanda iş quran əslən İrandan olan iş adamı məsuldur. O, neçə illərdir ki, bu işin başındadır və ilk dəfə böyük itki verib..."

"Yeni Müsavat" həmin iş adamının adını və daşınma firmasını, gələn narkotikin Bakı yaxınlığındakı saflaşdırma məntəqəsinin yerini müəyyənləşdirib. Lakin hələlik araşdırma gedir; ən yaxın saylarımızda təfsiat və adlar olacaq.

**Mövzuya qayıdacağıq.**

**❑ E.MƏMMƏDƏLİYEV**

# Məmurların prezident sərəncamına qarşı saxtakarlığı

## Lənkəranda "İstisu" pansionatının təmiri üçün ölkə başçısının 2005-ci ildəki sərəncamı 9 ildir icra olunmur

**Lənkəranın Haftoni qəsəbəsində "İstisu" pansionatının işi düyünə düşüb. "Yeni Müsavat" qəsəbə sakinlərinin istirahət guşəsinin bağlanması ilə bağlı şikayətini bir neçə dəfə ictimailəşdirsə də, problem həllini tapmayıb.**

Artıq 5 ildir ki, "İstisu" fəaliyyət göstərmir. Hər il saysız-hesabsız turistlərin, yerli əhalinin axışdığı bu istirahət mərkəzi məmurlar tərəfindən qapadılıb. Pansionatda müalicəvi əhəmiyyətə malik və təbii olaraq qaynar çıxan isti sulu hovuzlar var idi. İstirahət mərkəzi bağlandıqdan sonra əhali ümid edirdi ki, müasir tələblərə uyğun şəkildə təmir olunub, yenidən istifadəyə veriləcək.

Çünki prezidentin sərəncamı ilə 2005-2006-cı illərdə pansionat təmir edilməliydi. Sərəncamın icrası Gənclər və İdman Nazirliyinə, Mədəniyyət və Turizm Nazirliyinə və Maliyyə Nazirliyinə həvalə edilmişdi. Ancaq Haftoni sakinləri yazırlar ki, nə təmir gedir, nə də yenilik var.

Sadəcə, "İstisu" rüşvətxor və monopolist məmurlar tərəfindən zəbt edilib. Əgər bir




tədbir görülməsə, yerli camaat pansionatın qabağına toplaşıb etiraz aksiyası keçirəcək. "Yeni Müsavat"ı bu məsələdən xəbərdar edən Haftoni sakinlərinin dediyinə görə, tamamilə qanunsuzluq hökm sürür və heç bir əsası olmadan "İstisu"nu bağlı saxlayırlar.

**"Əvvəl deyirdilər ki, pansionat "Pasha Holdinq" tərəfindən alınıb, təmir olunub istifadəyə veriləcək. Əgər prezident sərəncamı ilə yenidənqurma işləri aparılacaqsa, özəl şirkətə necə verilə bilər? Uzaqbaşı təmir-tikintini həyata keçirən bir MMC yaradılar və işi icra edər. Bu istirahət mərkəzi Lənkəranın ən gözəl yerlərindən biridir. Camaat gəlib dincəlir, təmiz hava alırdı. Bu qədər qanunsuzluq, haqsızlıq olmaz,"** -deyə Haftoni sakinləri şikayətlənir.

Onların sözlərinə görə, prezidentə və ölkənin birinci xanımına məktub ünvanlanıb: **"Prezident sərəncamı 9 ildir ki, icra olunmur. Biz dəfələrlə mətbuatda bu problemi qaldırmışıq. "Yeni Müsavat" kənd sakinlərinin şikayətini dərc edib.**

**Amma nə faydası? Nə bəladırsa düşmüşük, gücümüz çatmır. Sovet vaxtından fəaliyyət göstərən bu müalicə müəssisəsi niyə bağlı olmalıdır? İnsanlar bura gəlir, qapısını bağlı görür. Prezidentin sərəncamını məmurlar icra etmirlər. Nə qanun sayırlar, nə sərəncam tanıyırlar".**

Lənkəran Şəhər İcra Hakimiyyətindən axar.az-a bildirilib ki, Haftoni qəsəbəsində yerləşən "İstisu" sanatoriyasının əsaslı təmiri nəzərdə tutulub". İcra Hakimiyyətindən qeyd edilib ki, "Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı üzrə" Dövlət Proqramı çərçivəsində pansionatın bu ildən etibarən təmirinə başlanacaq. Artıq icra müddəti də konkret müəyyənləşdirilib.

Dövlət Proqramının qəbul olunması səbəbindən Haftoni qəsəbəsindəki "İstisu" sanatoriyasının təmiri "Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı üzrə" Dövlət Proqramına daxil edilib, icrası isə Maliyyə və Gənclər və İdman nazirlikləri ilə birgə, Lənkəran İcra Hakimiyyətinə həvalə olunub. Göründüyü kimi, 2005-ci ildən icra olunmayan sərəncam qüvvədən ya düşüb, ya da unudulub. Pansionatın təmiri yeni proqrama salınıb.

**❑ Emil SALAMOĞLU**

# YENİ MÜSAVAT

Son səhifə

N 187 (5896) 24 iyul 2014




## Gülüşün insana faydaları

Gülüş immuniteti möhkəmləndirir, bizi stresslərdən qoruyur və qanda xoşbəxtlik hormonu olan endorfinin miqdarını artırır. Elm sübut edib ki, biz hər dəfə gülərkən orqanizmdə qocalma prosesləri ləngiyir. Nə qədər ucadan gülürüksə, orqanizm bir o qədər aktiv şəkildə antitellər hasil edərək müxtəlif infeksiyalara qarşı daha davamlı olur. Səbəbli və səbəbsiz gülüş min bir dərdin dərmanıdır. Bunun ən azı 6 əsas izahı var. Gülüş zamanı immunitet möhkəmlənir, ürək-damar sisteminin vəziyyəti yaxşılaşır, hipertoniklərin təzyiqi normallaşır. Gülüş qarın əzələlərini yığılmağa və boşalmağa vadar edir ki, bu da mədə və bağırsağın işini normallaşdıraraq orqanizmdən şlaklar, toksinlər və xolesterinin daha tez xaric edilməsinə imkan yaradır. Hər təbəssüm ürək və baş-beyinin qan təchizatını canlandırır, ağ ciyərlərin ventilyasiyasını yaxşılaşdırır, üz dərisinin daha yaxşı nəfəs almasına kömək edir. Gülən zaman xüsusən də uzun müddət kompüter monitoru qarşısında oturan insanın kürək və boyun əzələləri boşalır. Gülüş kədəri unutmağa kömək edir, depressiyadan xilas edir, yalnız ruhun yox, fiziki formanın da normal qalmasına imkan yaradır. Çox gülən insanlar allergiya və ya digər dəri səpkilərinə daha az məruz qalır.

## Bu ketçup butulkası 500 min dollara satılır

ABŞ-ın İllinoys ştatında ketçup butulkası formasında olan qala satışa çıxarılıb. Tikilinin sahibi olan Befel Ekkert firmasından bildirilib ki, onların artıq bu qalaya ehtiyacları yoxdur. "Ketçuplu qala"nın ilkin satış qiyməti isə 500 min dollardır. 170 metr hündürlüyü olan tikili 1949-cu ildə tikilib. İlk vaxtlar onun təyinatı Broaks Catsup zavodunun yanğına qarşı mühafizəsindən ibarət olub. 1995-ci ildən sonrakı yenidənqurma işlərindən sonra dünyanın ən hündür ketçup butulkasının baxışına saysız-hesabsız turistlər axışıb. Bununla da onun statusu dəyişib və turizm obyektləri sırasına qatılıb. Hazırda bu qala tarixi məkanların reyesterində də yer alır.




## Dodaqlarını yapışqanla yapışdırdı, polis çağırdı

Yeni Zelandiya sakini olan bir qadın təsadüfən dodağını super yapışqanla yapışdırıb. O, yapışqanı kremlə qarışdırdığı üçün belə bir xətaya yol verib. İyunun 27-dən 28-nə keçən gecə baş verən bu hadisənin yaranma səbəbi də ilginc olub. Qadın kley qutusunu qaranlıqda götürüb və diqqətsizlikdən onu krem hesab edərək dodaqlarına sürtüb. Dodaqları yapışmış qadın qəza xidmətinə zəng edib və olduqca çətinliklə danışmağa çalışıb. Amma bu, mümkün olmadığı üçün qırıq-qırıq səslərlə vəziyyətinin pis olduğunu anladıb. Zəngə cavab verən polis deyib ki, "qadın ancaq mızıldayırdı və biz vəziyyətin pis olduğunu anlayıb, zəngin gəldiyi ərazini müəyyənləşdirdik, sonra da ora getdik". Evə gedənə qədər polislər onun yaralı, ağzı, qolu bağlı vəziyyətdə saxlanılmasından şübhələniblər. Amma onunla ilk qarşılaşmada vəziyyətdən hali olublar və dərhal müdaxilə ediblər. Xatırladaq ki, bu, yapışqanla bağlı ilk hadisə deyil. 2010-cu ildə də 66 yaşlı şahzadə Frederik fon Anxalt səhvən göz qapaqlarını dırnaq yapışqanı ilə yapışdırmışdı. Nəticədə şahzadəyə cərrahi müdaxilə lazım gəlmişdi.






## Şahzadənin atı "narkoman" çıxdı

Britaniya şahzadəsi II Elizavetaya məxsus olan Estimeyt ləqəbli yarış atında dopinq aşkar edilib. Keçirilən dopinq testləri nəticəsində atın qanında morfiyanın izləri üzə çıxıb. Bu barədə lenta.ru "The Guardian"a istinadən xəbər yayıb. Atın qanından nümunələr 2013-cü ildə, 5 yaşlı at Royak Ascot cıdırında keçirilən yarışlarda qalib gələndən sonra götürülüb. Hazırda atı diskvalifikasiya təhlükəsi, şahzadənin özünü isə 80.6 min funt sterlinq pul itkisi gözləyir. Çünki şahzadənin atı sözügedən məbləğdə mükafatı məhz həmin yarışda qazanmışdı. Kral sarayından isə bildirilib ki, məlum atdan başqa, daha 4 atın qanında morfi tapılıb və bu, atların qidasına səhvən düşüb. Hazırda Bukenqam sarayı at yeminin istehsalçıları ilə birgə bu qadağan olunmuş maddənin mənbəyini araşdırır. Şahzadənin özü də qalmaqaldan xəbərdardır. O özü at yarışlarının həvəskarı kimi tanınır və 30-a yaxın yarış atına malikdir.




**QOÇ** - Risk etməyə məhkumsunuz. Çünki mövcud ideyalarınızı kerçəkləşdirməkdən ötrü başqa yolunuz qalmayıb. İndi güzəştə getmək yalnız zərərinizə işləyə bilər. Axşam maraqlı insanlarla görüşəcəksiniz.

**BUĞA** - Ümumi çalarlarına görə uğurlu ərəfə hesab etmək olar. Qarşılıqlı münasibətlərdən tutmuş əməli fəaliyyətə qədər hər şey zövqünüzə uyğun olacaq. Ağzıdualı olun.

**ƏKİZLƏR** - Əsasən nahara qədər fəaliyyətlə bağlı uğurlu anlarınız çox olacaq. Bunun üçün aktivliyinizi artırmalısınız. Sonrakı saatlarda isə köhnə problemlər gündəmə gələcək.

**XƏRÇƏNG** - Ciddi işlərin həllinə həvəs göstərməyin. Əks təqdirdə, sizə mane olanlar tapılacaq. Yaxşı olar ki, əsas diqqətinizi istirahətə yönəldəsiniz. Ürəyiniz istəsə, qonaq da getmək olar.

**ŞİR** - İxtiyarınızda olan bu gözəl gündə üzərinizə düşən başlıca vəzifə ədalətli qərarlar çıxarmaqdır. Baş verən situasiyaları düzgün qiymətləndirin. Yeni qərarlar səmərə verə bilər.

**QIZ** - Gərgin situasiyalarla rastlaşma ehtimalınız var. Əlləxüsus da kənar təsirlər əsəblərinizi qabarda bilər. Təmkinli olun. Yeni sövdələşmələrə başlamaq istəyirsinizsə, günortaya saxlayın.

**TƏRƏZİ** - Yeniliklər yolunuzu gözləyir. Rastlaşdığınız insanların əksəriyyəti qayğılarınızı sizə unutduracaq. Qonaq çağırılsanız, həvəslə razılaşın. Ümumiyyətlə, bu gün yola çıxmaq uğurludur.

**ƏQRƏB** - Bəzi qanqaraçılıqlar gözlənilsə də, səbr nümayiş etdirməlisiniz. Əmin olmadığınız proseslər barədə qəti fikir söyləməyin. Bir sözlə, riskə getmək, mübahisə etmək, səfərə çıxmaq olmaz.

**OXATAN** - Fəaliyyət zəminində uğurlarınız mümkündür. Bunun üçün ilk növbədə işgüzar sövdələşmələrinizin sayını artırmalısınız. Amma səhhətinizi də qorumalı, mübahisədən qaçmalısınız.

**OĞLAQ** - Daxili sıxıntılarınızın artacağı mümkündür. Bu isə ətrafınızda olan insanların etibarsızlığından doğacaq. Bir tərəfdən səhhətinizdə, digər tərəfdənsə münasibətlərinizdə problemlər mümkündür.

**SUTÖKƏN** - Kənardan kömək olmasa hər hansı nailiyyətə yetişə bilməyəcəksiniz. Ümumiyyətlə, təkbaşına heç bir iş görməməlisiniz. Bu gün yeganə uğurunuz ailə-sevgi münasibətlərində mümkündür.

**BALIQLAR** - Daxili sıxıntılarınızın xeyli azalacağı gözlənilir. İstənilən prosesdə ədalət prinsiplərindən bəhrələnin. İmkan verməyin ki, sizi aldatsınlar. Sevgidə qətiyyət göstərin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Hər gün yeni insan olur



İngiltərədə yaşayan Eve Hazelton hər gün fərqli bir geyim geyinməyə and içib. Buna səbəb onun könüllü olaraq işlədiyi döş xərçəngi vəqfinə pul toplama istəyidir. Hər gün başqa bir kostyum geyinərək yardım yığmağa çalışan 28 yaşlı gənc qadın planlaşdırdığı aksiyanın bu qədər səs-küyə səbəb olacağını təxmin etmirmiş. Hazelton öncə gündəlik həyatda istifadə etdiyi bütün geyimlərini sataraq pulunu başqa bir xeyriyyə təşkilatına verib. Bunun ardınca isə özünə yeni kostyumlar hazırlamağa, büdcəsinin imkan verdiyi çərçivədə isə yenilərini almağa başlayıb. Gənc qadının bu layihəsindən xəbər tutan və özəl geyimlər hazırlayan bir firma ona 365 ədəd kostyum göndərib.

Səhifəni hazırladı: SELCAN


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 10.565